# BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

ВЕСТНИК
БАКИНСКОГО УНИВЕРСИТЕТА

NEWS
OF BAKU UNIVERSITY

SOSİAL-SİYASİ
*elmləri seriyası*

*серия*
СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК

*series of*
SOCIAL-POLITICAL SCIENCES

№ 2, 2021

Bakı – 2021

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№2 Sosial-siyasi elmlər seriyası 2021***

## HÜQUQ

**UOT 340.11**

# RƏQƏMSAL TEXNOLOGİYALARIN HÜQUQİ SFERAYA TƏTBİQİ PROBLEMİNƏ DAİR

**M.F.MƏLİKOVA**
***Bakı Dövlət Universiteti***

*Məqalədə yeni digital (rəqəmsal) texnologiyaların üzə çıxması ilə əlaqədar baş verən rəqəmsallaşma dövrü, həmin texnologiyaların ictimai həyatın müxtəlif sferalarına nüfuz etməsi məsələləri xarakterizə olunur, onların hüququn və hüquqi materiyanın dərkində əhəmiyyətliliyi qeyd olunur. Bununla yanaşı, həmin məsələ üzrə nəşr olunmuş əsərlərə istinadən diqqət hüquqi texnologiyaların tətbiqinin, o cümlədən də hüquqa tətbiqinin mümkün neqativ nəticələrinə yönəldilir. Məqalədə rəqəmsal texnologiyaların dövlət-hüquqi gerkəçliyin dərketmə metodları sırasına aid olunması, həmçinin bilik cəmiyyətinin ictimai inkişafın müstəqil mərhələsi kimi tanınmamasına dair irəliyə sürülən mövqe əsaslandırılır.*

**Açar sözlər:** rəqəmsal texnologiyalar, rəqəmsal texnologiyaların tətbiqinin mümkün riskləri, hüququn normativliyi, informasiya cəmiyyəti, bilik cəmiyyəti, rəqəmsal texnologiyalar hüququn dərkinin metodu kimi.

Rəqəmsal texnologiyaların hüquqşünaslıqda istifadəsi problemi hüquq ictimaiyyətinin geniş marağına səbəb olmuşdur. Hüquqi ədəbiyyatın icmalının da göstərdiyi kimi, həmin problem araşdırma predmetinin rəqəmsal texnologiyalar rakursunda baxılması intensiv olaraq işlənib hazırlanır.

Yalnız ümumi dövlət və hüquq nəzəriyyəsi sahəsində deyil, həm də sahəvi hüquq elmləri sferasında rəqəmsal texnologiyaların tətbiqinə həsr olunmuş son dövrlərin hüquqi ədəbiyyatında nəşr olunan tematikanı izləmək kifayətdir ki, onun müasir mərhələdə hüquqşünaslığa tətbiq edilməsinin diapazonunu təsəvvür edək. Bununla belə, ədalət naminə qeyd etmək lazımdır ki, hüquqi texnologiyaların, o cümlədən də rəqəmsal texnologiyaların istifadəsi məsələsinə hüquqşünaslar ilk dəfə deyildir ki, müraciət edirlər.

Ədəbiyyatda hüquqi məsələlərin baxılmasında rəqəmsal texnologiyalarına olan inam, bəzən də onların iqtidarlılığı və sarsılmazlığı haqqında mülahizə yürüdülür. Bununla əlaqədar alimlərin diqqət mərkəzində yalnız rəqəmsal texnologiyanın anlayışı və onların hüquqla nisbəti deyil, həm də yuridik texnologiyaların növləri, yarımnövlər üzrə təsnifatı məsələləri, həmçinin təsnifatın meyarlarının üzə çıxarılması və s. durur. Eyni zamanda rəqəmsal texnologiya-

ların rolunun obyektiv dəyərləndirilməsi nöqteyi-nəzərindən onların hüquqda, hüquq sahələrində tətbiqinin neqativ nəticələrinin aşkar olunması və ictimai münasibətlərə təsirinin müəyyənləşdirilməsinə cəhdlər edilir.

Hüququn inkişafı və effektivliyinin təşviqinə məqsədli şəkildə yönəlmiş rəqəmsal texnologiyalarla hüququn özünün nisbəti problemi nədən ibarətdir?

Rəqəmsal texnologiyaların anlayışının müəyyən edilməsinə münasibətdə ortaya qoyulan müxtəlif yanaşmaları ümumiləşdirərkən onun cəmiyyətin, dövlətin, hüququn və onlarla bağlı olan institutların dərk edilməsinin dərin proseslərinin açılmasına şərait yaradan dövlət-hüquqi həyata, hüquqi fəaliyyətə rəqəmsal texnologiyaların nüfuz etməsi kimi nəzərdən keçirmək olar. Ədəbiyyatda daha lakonik tərif verilir və rəqəmsallaşma dedikdə "dövlətin, cəmiyyətin və hər bir insanın həyatının bütün sferalarına rəqəmsal texnologiyaların fəal surətdə nüfuz etməsi prosesi" [7, 162] başa düşülür.

Ədəbiyyatda səbəb qismində ictimai həyata, o cümlədən də hüquqi materiyaya digital (rəqəmsal) və informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı olan "rəqəmsallaşma" dövrünün baş verməsi qeyd olunur və bu barədə hüquqşünasların gəldiyi mülahizə haqlı görünür.

Belə hesab olunur ki, yeni rəqəmsal texnologiyaların hüquqi sferada tətbiq olunması hüququn ictimai münasibətlərə təsir sferasının, onun tənzimləyici rolunun dəyişdirilməsinə gətirib çıxara bilər, bütövlükdə hüququn obrazını dəyişdirə bilər. “Rəqəmsal texnologiyalar hüquqi həyatın bütün sahələrini dəyişdirir, hüquqyaratma və hüququn tətbiqi prosesinə təsir göstərir” [7,162]. Cəmiyyətə özünün təsirinin miqyası baxımından rəqəmsal texnologiya ədəbiyyatda sənaye inqilabına bərabər tutulur [15, 102].

Gətirilən mülahizələr faktiki məlumatlarla əsaslandırılır. Belə ki, planetin əhalisinin sayı 7,6 milyard olmasına rəğmən 2018-ci ilə olan məlumata əsasən dünyada internet istifadəçilərinin sayı 4,021 milyarda çatmışdı. Müasir dövrdə cisimlər internetinin (fiziki obyektlər arasında məlumatların ötürülməsi şəbəkəsi konsepsiyasının) formalaşdırılması, Neyronetin işlənib hazırlanması məsələləri müzakirə olunur. Hüquq elminin diqqət mərkəzində olan problemlər öz həllini Birləşmiş Millətlər Təşkilatının bir sıra aktlarında və sənədlərində iqtisadi fəaliyyət sferasında elektron ticarət kimi, elektron kütləvi informasiya vasitələri, sosial şəbəkələr, sms-xəbərdarlıqlar və s. kimi formalar göstərilmişdir [19, 94-95].

Bu baxımdan dünyanın ictimai inkişafında baş verən informasiyalaşma, yeni rəqəmsal texnologiyaların meydana çıxması ilə bağlı olan qlobal dəyişikliklər hüquq elminin əsas inkişaf tendeysiyalarının müəyyənləşdirilməsini, hüququn özündə, hüquqyaratmada və hüquq tətbiqetmədə gedən mühüm dəyişikliklərin öyrənilməsini tələb edir.

İctimai inkişafda hüququn rolunun, funksiyalarının anlamına rəqəmsallaşmanın təsirinin müxtəlif yollarının əhatəli xarakteristikası üzərində dayanmadan (göstərilən məsələlərdən hər biri müstəqil tədqiqat mövzusudur) nəzərdən keçirilən məsələnin çox güman ki, cəlb edə biləcək ayrı-ayrı tərəflərinə dair bəzi mülahizələrimizi oxucunun diqqətinə çatdırmaq istərdik.

1. Ehtimal olunur ki, indiki mərhələdə rəqəmsal texnologiya dövlət-hüquqi problemlərin araşdırılmasında bir panaseyaya (yunancadan tərcümədə - bütün həyati situasiyalarda güya ki, kömək edə biləcək hər şeyə qadir olan xəyali bir vasitə) [16, 509] çevrilmişdir. Xatırladaq ki, rəqəmsal məlumatlar (elektron məlumatlar, qanunvericilik texnikası, süni intellekt və b.) "rəqəmsallaşma dövrü" adlandırılan mərhələyədək də istifadə olunmuşdur. Rəqəmsal texnologiyaların tətbiqinin neqativ nəticələri haqqında da məsələlərə tədqiqatçıların bu texnologiyaların roluna həsr olunmuş əsərlərində kifayət qədər tez-tez rast gəlmək olur.

Nümunə olaraq P.M.Morxatın "Süni intellekt: hüquqi baxış" adlı monoqrafiyasını göstərmək olar. Həmin monoqrafiyaya S.N.Bratanovskiy tərəfindən verilmiş rəydə adı çəkilən əsərin "obyektiv olaraq, bu mövzu üzrə müasir elmi hüquqi tədqiqatların içərisində ən yaxşısı olduğu" [6, 202] ifadə olunur. Monoqrafiya müəllifinin elmi nailiyyətlərinin rəyci tərəfindən qeyd olunan cəhətlərinə diqqəti yönəltmədən baxılan məsələ üzrə müəllif tərəfindən verilən obyektiv qiyməti, xüsusilə qeyd etmək lazımdır, yəni burada süni intellektin istifadə olunmasının yalnız müsbət deyil, həm də neqativ nəticələrinin müəyyənləşdirilməsinə diqqət çəkilir. Göstərilən rəydə də qeyd olunduğu kimi, monoqrafiyada "süni intellektin istifadəsinin riskləri və hüquqi problemləri açılıb göstərilmişdir". Monoqrafiyanın süni intellektin hüquq subyektinə həsr olunan 3-cü fəslində isə nəzərdən keçirilən məsələlər - süni intellekt hüquq pozuntusunun real icraçısının aləti kimi; süni intellektin öz hərəkətlərinə görə bilavasitə məsuliyyəti; süni intellektin sistemlərinin zərərə səbəb olan hərəkətlərin törədilməsinə görə üçüncü şəxslərin məsuliyyətinin müəyyən edilməsi problemi – süni intellektin istitfadəsi zamanı mümkün hüquq pozuntularının və risklərin ola biləciyinin mümkünlüyü haqqında tam aydın şəkildə şəhadət verir.

Başqa misal. Görünür ki, cəmiyyətin həyatının dövlət-hüquqi sferasında hüquqi, o cümlədən də rəqəmsal texnologiyaların tətbiqinin mümkün neqativ nəticələri robotların cinayət məsuliyyətinin problemlərinin tədqiqatçılar tərəfindən qoyulmasına və həlli yollarının axtarışına cəhdlərə onları stimullaşdırmışdır. Bunu elmi işin müəllifi V.N.Nekrasov tərəfindən yaranan situasiyanın xarakteristikasının verilməsi də təsdiq edir. O, qeyd edir ki, "yeni texnologiyaların üzə çıxması bir tərəfdən cəmiyyətə iqtisadiyyat, təhsil və mədəniyyət sahələrində böyük fayda vermiş oldu, digər tərəfdən isə cinayətlərin yeni növlərinin üzə çıxmasına və ənənəvi formalarının inkişafına gətirib çıxardı" [14, 134]. Ədəbiyyatda bir sıra xarici ölkələrdə robotların istifadəsinin neqativ nəticələri qeyd olunur. Buna misal olaraq robotların köməyi ilə narkotiklərin yayılmasını, pilotsuz avtomobillərdə insan ölümünü, silahlanmanın tam avtonom sistemlərinin yaradılması ideyasının üzə çıxmasını və s. göstərmək olar [14, 134].

Müxtəlif tədqiqatçılar arasında fikir ayrılığı əsas etibarilə robotların iştirakı ilə törədilən cinayətlərə görə məsuliyyətin kimin daşımalı olduğu, başqa sözlə desək, cinayətlərin subyekti qismində robotların və ya onlardan cinayətkar məqsədlərlə istifadə edən şəxslərin məsuliyyətə cəlb olunması ilə bağlı

məsələnin həllində özünü büruzə verir. Qeyd edək ki, hüquqi məsuliyyətin subyektləri kimi robotların hüquqi statusunu istisna edən tədqiqatçıların mövqeyi daha obyektiv və daha məqbul görünür.

Rəqəmsal texnologiyaların tətbiqinin mümkün neqativ nəticələri üzərində diqqəti cəmləməklə yazdığımız məqalədə dövlət-hüquqi problemlərin həllində onların rolunun kiçildilməsi istəyindən də uzaq olduğu vurğulanır. Lakin robotların istifadəsi həmin prosesin nəticələrinin obyektiv dəyərləndirilməsinin, ictimai həyatın müxtəlif sferalarında rəqəmsal texnologiyaların fəaliyyət təzahürünün nəticəsinin sağlam düşüncə ilə nəzərə alınmasının zəruriliyini ifadə edir.

Yuxarıda ifadə olunan mövqeyimizin təsdiqi üçün daha bir vacib məqama diqqəti yönəltmək istərdim. Bu, rəqəmsal texnologiyaların işlənib hazırlanması və tətbiqi zamanı insan faktorunun, idraki prosesin nəzərə alınmasının zəruriliyidir. Predmetini elmi icadlar, ixtiralar və s.-nin təşkil etdiyi idrak prosesi yeni texnologiyaların tətbiqinin nəticələrinin əhəmiyyətli yekunlaşmasında böyük rola malikdir. Həmin məsələ daha geniş araşdırmaları tələb etdiyindən bununla bağlı fikirlərimi M.K.Kleandrovun "Hüququn fundamental elmi və onun bəzi istiqamətləri haqqında" əsərində öz ifadəsini tapan bir cümlə ilə tamamlamaq istərdim: "...Elm ilk növbədə fərd olaraq insanın təfəkkür prosesinin, idraki fəaliyyətinin nəticədir" [9, 24].

2. Rəqəmsal texnologiyalara həddindən artıq aludə olmaq müəyyən dərəcədə hüququn atributiv xassəsini – normativliyinin istisna etməsinə gətirib çıxarır. Hüququn sosial hadisə kimi qiymətləndirilməsi onun normativ sistemliliyini heç də istisna etmir, əks təqdirdə, o, tarixən sosial normalar sistemindən ayrıla bilməzdi.

Ədəbiyyatda hüququn ilk növbədə əxlaqla və onun prinsipləri olan ədalət, hümanizm ilə, həmçinin etika ilə, iqtisadiyyatla, siyasətlə, dinlə bağlı olan mürəkkəb ziddiyyətli sosial hadisə kimi məhdud normativist anlamının hüdudlarından kənara çıxan ideyalar söylənilir. Bu zaman xüsusi diqqət hüququn etik əsaslarına verilir [4, 13-102; 18, 20-46, 86-122]. Müxtəlif hüquq institutlarının - hüquq düşüncəsi, hüquq münasibətlərinin və s. normalar sistemindən başqa hüququn anlayışına digərlərinin də daxil edilməsi ilə hüququn geniş anlayışı haqqında mövqe də ortaya qoyulmuşdu. Mahiyyət etibarilə burada hüququn anlayışına bir sıra hüquqi kateqoriyaları daxil etmək hesabına onun anlayışının genişləndirilməsi, bir növ zənginləşdirilməsi təklif edilir. Məsələnin belə qoyuluşunda müəyyən məntiq də mövcuddur. Hüquqi anlamın çərçivələrinin genişləndirilməsi mahiyyət etibarilə onun sosial hadisə kimi təbiətinin, bu kateqoriyaların bütün atributları ilə birlikdə onun əxlaqi dəyərinin açılmasına kömək edir. Bununla belə unutmaq olmaz ki, hüquq norma ilə üzvü şəkildə bağlıdır, mahiyyət etibarilə dövlət hakimiyyətindən gələn və ictimai münasibətlərin rəsmi tənzimləyicisi rolunu yerinə yetirən normalar sistemini özündə ehtiva edir. Bu anlamda hüququn normativliyi ilk növbədə onun ictimai münasibətlərin tənzimləyicisi kimi təyinatında ifadə olunur.

Bundan başqa fikrimizcə, müxtəlif hüquqi kateqoriyaların hüququn an-

lamına daxil edilməsi mahiyyət etibarilə bu fenomenin anlayışının hüdudlarının "yuyulması"na, hüququn tərifindən dəqiqliyin, konkretliyin itməsinə və nəticədə onun ictimai münasibətlərin tənzimlənməsinin effektivliyinin azalmasına gətirib çıxara bilər.

Ehtimal etmək olar ki, əgər hüquq müstəsna olaraq dövlət məcburetməsi ilə təmin olunan hakimiyyət aləti kimi nəzərdən keçirilməsə, hüququn normativizmi heç də onun mənəvi əsaslarını, hüququn adı çəkilən hüquq institutları ilə qarşılıqlı şəkildə realizəsini istisna etmir. Başqa sözlə ifadə olunsa, hüququn normativliyi onun anlamının genişliyi ilə uzlaşır ki, bu da onun ictimai münasibətlərin tənzimləyici rolunu heç də kiçiltmir. Hüquqi anlamın belə vəziyyəti Q.V.Maltsev tərəfindən kifayət qədər dəqiq şəkildə göstərilmişdir. Onun qeyd etdiyi kimi, "hüquq, onu necə müəyyən etmələrindən asılı olmayaraq, həmişə və dəyişilməz olaraq normativ səciyyə daşıyır. Bu halı inkar edən hər hansı konsepsiya ziyanlıdır. Eyni ilə də hüququn "geniş" anlamından qaçmaq da olmaz, çünki hüquq varlığın müxtəlif səviyyələrində özünü ifadə edir, o, özünün normaların məcmusu kimi tərifindən çıxış etməklə təsəvvür etdiyimizdən də daha mürəkkəb və geniş miqyaslıdır" [13, 33-34]. Ola bilsin ki, bu, hüququn anlamına yanaşmada ən yaxşı variantdır.

3) Rəqamsallaşma dövrü postindustrial cəmiyyətin təkamülünün informasiya cəmiyyəti adını almış yeni mərhələsinə uyğunluğu və bu cəmiyyətin inkişaf prosesində daha yüksək mərhələsinə - biliklər cəmiyyətinə keçməsi qeyd olunur. Biliklər cəmiyyətinin meyarlarının və prinsiplərinin 2005-ci ildə YUNESKO -nun Ümümdünya məruzəsində təsvir edilmişdir. Məruzədə qeyd olunmuşdur ki, informasiya cəmiyyəti texnologiyaların nailiyyətlərinə əsaslanır, biliklər cəmiyyəti isə daha geniş sosial, etik və siyasi parametlərlə xarakterizə olunur; yeni informasiya və kommunikativ texnologiyaların inkişafı biliklər cəmiyyətinin yaranması üçün şərait yaratmışdır. Həmin məruzədə biliklər cəmiyyətinin fəaliyyət prinsipləri - mövqelərin azad şəkildə ifadə edilməsi, informasiyalara və biliklərə ümumi əlçatınlılığı, mədəni və dil müxtəlifliyinə hörmət bəslənilməsi öz əksini tapmışdır. Digər sənədlərdə, məsələn, 2006-cı ilin 16 noyabrında qəbul edilmiş Müstəqil Dövlətlər Birliyinin iştirakçı dövlətlərinin Parlamentlərarası Assambleyasının qərarında biliklər "gercəkliyin dərki prosesinin, insan şüurunda onun təsəvvürlər, anlayışlar, mühakimələr, nəzəriyyələr şəklində adekvat olaraq əks etdirilməsinin nəticəsi..." kimi müəyyənləşdirilir. "Biliklərin əsasında bacarıqlar, vərdişlər və səlahiyyətlilik qazanılır" [8, 103-221].

Çox saylı tədqiqatçıların gəldiyi ümumi nəticə yeni digital-kommunikasiya texnologiyalarının ictimai həyatın bütün sferalarına intensiv şəkildə tətbiq olunmasının tanınmasından ibarətdir. Həmin nəticə eyni zamanda biliklər cəmiyyətinin müstəqil bir cəmiyyət olaraq ictimai inkişafın informasiya cəmiyyətindən sonrakı daha yüksək pilləsi kimi baxılmasının YUNESKO-nun yuxarıda qeyd olunan Ümumdünya məruzəsinə uyğunluğunda özünü ifadə edir. Bununla belə qeyd edilməlidir ki, müstəqil cəmiyyət kimi biliklər cəmiyyəti haqqında ideya bütün tədqiqatçılar tərəfindən qəbul olunmur. Həmin tədqiqatçılar

öz mövqelərini onunla əsaslandırırlar ki, informasiya və biliklər postsənaye cəmiyyətinin əsasını təşkil edirlər [5,4]. Belə yanaşma aşağıda göstərilən əsaslar baxımından daha düzgün hesab edilə bilər.

Belə ki, "informasiya cəmiyyəti" və "biliklər cəmiyyəti" anlayışlarının nisbətinin baxılması zamanı ilkin olaraq onların məzmuni xarakteristikası çıxış etməlidir. Həmin məzmuni xarakteristika belə nəticəyə gəlməyə əsas verir ki, prinsip etibarilə informasiya və bilik çoxsaylı parametrləri üzrə uyğun gələn, üst-üstə düşən iki "qohum" hadisələr kimi çıxış edirlər. Bunu onların fəlsəfi planda anlamı da təsdiq edir: informasiya (lat. informatio - izahetmə, şərhetmə) ilk növbədə "müəyyən xəbərlər, hər hansı məlumatların, biliklərin məcmusu" [1,188] kimi müəyyən edilir. "Biliyə" gəldikdə isə, o, "insanların ictimai, maddi və mənəvi fəaliyyətinin məhsulu" kimi baxılır... Daha sonra "biliyi dağınıq, pərakəndə təsəvvürlərin ümumi əhəmiyyəti olan, nəzəri cəhətdən sistemləşdirilmiş forma qəbul etməsi, gələcək insan fəaliyyəti üçün möhkəm bir əsas, istinadgah kimi saxlanıla, ötürülə və varisliklə inkişaf etdirilə biləcək olanın qorunub saxlanılması" [1, 60] kimi nəzərdən keçirilir.

Yuxarıda göstərilənlərdən məntiqi olaraq aşağıdakı nəticələrə gəlmək mümkündür:

a) İnformasiya cəmiyyətinə xas olan bilik mahiyyət etibarilə onun mühüm tərkib elementlərindən biri sayılır. İnformasiya özündə bilikləri ehtiva etdiyi kimi, biliklər də informasiyanı özündə ehtiva edir;

b) İnformasiya və biliyi bir-birindən ayırmaq hüquqi baxımdan qəbul edilməzdir, çünki bu vahid bir prosesdir. Yeri gəlmişkən, əvvəldə qeyd etdiyimiz informasiyanın anlayışına əlavə olaraq onu sözün geniş mənasında anlaşılan, «istehsalata aid olan, yaddaşın qorunması və yenidən işlənməsi, informasiyanın bütün növlərinin yayılması və s. haqqında biliklər sistemi» [1, 189] kimi müəyyən edilir. Onlar eyni bir məcrada inkişaf edirlər, dəyişilirlər və bir-birindən asılıdırlar. Onlar eyni bir cəmiyyətdə yanaşı mövcuddurlar.

Bu rakursda elmin ictimai həyatın bütün sferalarına nüfuz etməsi kimi bilik cəmiyyətinin xarakterik xüsusiyyətləri eyni dərəcədə informasiya cəmiyyəti üçün də səciyyəvidir. Özü də bilik cəmiyyətini informasiya fəaliyyəti olmadan, informasiyasız təsəvvür etmək çətindir.

İnformasiya və bilik arasında fərqlərin olduğunu iddia edən tədqiqatçıların belə bir fikri ilə razılaşmaq çətindir ki, informasiya yalnız keçmişlə və indinin müəyyən hissəsi ilə uzlaşdığı halda, «bilik irəlicədən nəyi isə söyləməyə, səbəbli əlaqələri üzə çıxarmağa və ya gələcək hərəkətlərə münasibətdə qərarlar qəbul etməyə imkan verir» [19, 93] .

Hesab etmək olar ki, hətta bu yanaşmanın qəbul olunduğu halda belə fərqləndirici cəhətlər informasiya və biliyin bir-birini şərtləndirən iki hadisə olduğu ilə bağlı müddəanı inkar etmir. Bu, iki hadisənin real vəziyyətidir. Onların özlərinə xas olan xüsusi əlamətləri də mövcuddur. Əks təqdirdə onların tam identikliyini də tanımaq lazım gələrdi.

Biliklərin müxtəlif səviyyələrinin insan cəmiyyətinin inkişafının ayrı-

ayrı mərhələləri üçün xarakterik olan bir hadisə olduğu haqqında müddəanın sübuta ehtiyacı yoxdur. Bu, bütövlükdə ictimai inkişafın müxtəlif dövrlərinə müxtəlif dərəcələrdə uyğunluq təşkil edir. Məsələn, məlumdur ki, Roma hüquqşünaslığının II-III əsrləri tarixə onun çiçəklənməsi dövrü kimi daxil olmuşdur. Cəmiyyətin inkişafının müxtəlif mərhələlərində onun həyati fəaliyyətinin dövlət-hüquqi sferalarına Roma hüququnun təsirini, dünyanın müasir hüquq sistemləri tərəfindən Roma hüququnun resepsiyasını qeyd etmək kifayətdir. "Roma hüquqşünaslarının yaradıcılığı Avropanın hüquqi və siyasi fikrinə mühüm təsir göstərmişdir. Roma hüquqşünaslarının əsərlərini Orta əsrlərin hüquqşünasları öyrənmiş, şərh etmiş və tədris etmişlər" [2,81]. Roma hüququ üzrə keçirilən Avrasiya seminarında onun iştirakçılarının biri tərəfindən Roma hüququ «hüquqşünaslığın mənimsənilməsinin əsasları, peşəkar hüquq mədəniyyətinin hüquq nəzəriyyəsinin və çoxsaylı sahəvi fənlərin ehkamlarının fundamenti» [3, 148] kimi xarakterizə olunmuşdur.

Biliklərin təntənəsinin ən parlaq nümunələrindən biri Maarifçilik dövrüdür. Bu, elmi, fəlsəfi və ictimai fikrin inkişafı ilə bağlı olan Avropa mədəniyyətinin ən başlıca mərhələlərindən biridir. Feodalizmdən kapitalizmə keçid dövrünün bu proqressiv ideya cərəyanının əsasında rasionalizm və azadfikirlilik dururdu. Bu cərəyanı Böyük Fransız inqilabının ideoloji hazırlığın əsası kimi qəbul edilir. Maarifçiliyin prinsipləri ABŞ-ın İstiqlaliyyət Bəyannaməsində, Fransada qəbul olunan İnsan və Vətəndaş Hüquqları Bəyannaməsində öz əksini tapmışdır. Maarifçilik mərhələsinin şüarı qismində biliklərin yayılması, idraka söykənən qanunvericilik, siyasi azadlıqlar və vətəndaş bərabərliyi çıxış edirdi. Maarifçilik ölkədə biliklərin, təhsilin, təhsil-tərbiyə və mədəni-maarif təsisatlarının sistemi [17, 1082] kimi müəyyən edilir. Maarifçiliyin məşhur nümayəndələri, fikir nəhəngləri olan C.Lokk, Volter, J.-J.Russo, Ş.Monteskye, P.A.Holbax, K.A.Helvetsi, D.Didro, F.Şiller, T.Ceferson, T.Peyn və b. dünyanı yaxşılığa doğru dəyişmək iqtidarında olan biliklərin (oxu: ideyaların, elmlərin və s.) yayılmasına mühüm əhəmiyyət verməklə insanın bərabərliyinə, azadlığına əsaslanan idrakın hökmranlığı uğrunda mübarizə aparırdılar.

Beləliklə, biliklərin bütün digər amillər, daha həlledici sosial faktorlar üzərində prioritet kəsb etməsi ilə bağlı tarixi mərhələlərin nümunələri az deyildir. Misal olaraq İntibah dövrünü göstərmək olar. İntibah mərhələsi (Qərbi Avropa ölkələrinin mədəni inkişafındakı dövr) fəlsəfə, astronomiya (Kopernik), coğrafiya, təbiətşünaslıq, anatomiya (Vezali), memarlıq və heykəltəraşlıq (İtaliyada Leonardo Da Vinçi, Raffaella, Mikelancelo, Tisian, Almaniyada Dürer, Nixart, Fransada Fuke, Quton, Klue və digər rəssamlar, memarlar və heykəltəraşlar), XV əsrin ortalarında kitab çapının ixtirası və s. kimi böyük elmi kəşflərlə əlamətdar idi. Bu mərhələnin xarakterik xüsusiyyətləri qismində humanist dünyagörüşünü, antiklerikal xarakteri, insana, eləcə də onun hüdudsüz imkanlarına, onun iradəsinə və idrakı qüvvəsinə inamı, sxolastikanın və asketizmin inkarını, onlara qarşılıq olaraq dünyəvi elm və təhsilin ortaya atılmasını qeyd etmək olar. Həqiqətən də "XVI əsr Avropanın həyatında mənəvi, mədəni,

siyasi, dini dəyişikliklər və sarsıntıların olduğu bir dövrdür" [2, 109].

Bununla belə, biliklərin, elmlərin, yeni ideya istiqamətlərinin, kəşflərin yayılması ilə fərqlənən həmin cəmiyyət ümumdünya tarixində qəbul edildiyi kimi qalmaqda davam edir.

4) Hesab etmək olar ki, hüququn və hüquqi materiayanın dərk edilməsində rəqəmsal texnologiyaların bütövlükdə əhəmiyyəti və yaxud indiki dövrdə qəbul edilən "nüfuz etmə", "tətbiq edilmə" formasında ifadələr kimi onların istifadəsi hüququn atributiv xassələrini dəyişmir. Yəni yuxarıda da qeyd olunduğu kimi, onun normativliyini istisna etmir. Rəqəmsal texnologiyaların tətbiqi, fikrimizcə, hüququn yeni aspektlərinin dərk edilməsinə, onun indiyə qədər məlum olmayan tərəflərinin, funksiyalarının, sosial əlaqələrinin açılmasına, hüququn yeni məzmun rakursunda baxılmasına kömək edir. Məsələ ondadır ki, ictimai həyatın müxtəlif sferalarında yeni sosial proseslər yeni metodların axtarışını, bütövlükdə metodologiyanın elementlərinin yenilənməsini tələb edir. Rəqəmsal texnologiyaların belə rolu, təyinatı onları idrak üsulları, metodları və qaydalarının sırasına aid etməyə, başqa sözlə desək, metodologiyanın elementlərindən birinə aid etməyə imkan verir. Belə status heç bir halda rəqəmsal texnologiyaların əhəmiyyətini kiçiltmir, əksinə, onların rolunu, əhəmiyyətliliyini, unikallığını daha da qabardır. Ona görə ki, "metod öyrənilən hadisələrə, predmetlərə və proseslərə yanaşmanı, həqiqətin elmi dərkinin və müəyyənləşdirilməsinin planlaşdırılmış yolunu ehtiva edir" [11, 17]. Metod həm də «idrak üsulu», "öyrənilən predmetin təfəkkürdə canlandırılması üsulu" [10, 179] kimi müəyyənləşdirilir. Bu məqamda məşhur hüquqşünas-alim Q.Yellinekin sözlərini nümunə olaraq gətirmək yerinə düşərdi. O, yazırdı ki, hər hansı araşdırma «idrak və məntiq nəzəriyyəsi sahəsində yeni axtarışların nəticələrinin əsasında metodoloji prinsiplərin müəyyən edilməsi ilə başlanılmalıdır» [12, 25].

## ƏDƏBİYYAT


1. Fəlsəfə ensiklopedik lüğəti. Bakı: Azərbaycan ensiklopediyası, 1997, 520 s.
2. Siyasi və hüquqi təlimlər tarixi /Məsul Redaktor O.E.Leyst. M.: Zertsalo, 2006, s. 81. (azərb.dilinə tərcümə edən: T.K.Zeynalova). Bakı: Nurlan, 2008, 390 s.
3. Алексеева Т.А. Рецепция римского права: общие принципы и современность (Обзов III Евразийского семинара по римскому праву) //Государство и право, 2020, № 1.
4. Алекси Роберт. Понятие и действительность права (ответ юридическому позитивизму). Пер. с немецкого. М.– Берлин: Инфотропик Медиа, 2011, 192 с.
5. Белл Д. Грядущее постиндустриальное общество: опыт социального прогнозирования. М., 1999.
6. Братановский С.Н. «Разумные машины» в глазах правоведа /П.М.Морхат. Искусственный интеллект: правовой взгляд // Гос-во и право, 2019, №1.
7. Грудцына Л.Ю. Рецензия на монографию «Цифровизация правотворчества: поиск новых решений / Пашенцев Д.А., Залоило М.В., Иванюк О.А. М.: ИНФРА-М., 2019 //Государство и право, 2020, № 1.
8. Информационный бюллетень. Межпарламентская Ассамблея государств-участников СНГ. ч.2, 2007, № 39.
9. Клеандров М.И. О фундаментальной науке права и некоторых ее направлениях // Государство и право, 2020, № 5.
10. Краткий философский словарь. М., 2000.

11. Матузов Н.И., Малько А.В. Теория государства и права: Учебник. М.: Дело АНХ, 2009, 528 с.
12. Марченко М.Н. Проблемы общей теории государства и права (государство). В 2 томах. Том 1, Учебник. М.: Проспект, 2015, 744 с.
13. Мальцев Г.В. Понимание права. Подходы и проблемы. М., 1999.
14. Некрасов В.Н. Уголовная ответственность роботов: актуальные проблемы и направления дальнейшего развития// Гос-во и право, 2019, №5.
15. Пашенцев Д.А., Алимова Д.Р. Новации правотворчества в условиях цифровизации общественных отношений // Государство и право, 2019, № 6.
16. Словарь иностранных слов. Под ред. И.В.Лехина и проф. Ф.Н.Петрова. М.: Гос-ое изд-во иностранных и национальных словарей, 1955.
17. Советский энциклопедический словарь. М.: Советская энциклопедия, 1981, 1600 с.
18. Тарасенко В. Г. Постулаты права. М.: Городец, 2009, 128 с.
19. Хмелевская С.А., Ермаков Д.Н. Специфика правового регулирование в цифровую эпоху: социально-философские размышление // Государство и право, 2019, № 4

## К ПРОБЛЕМЕ ПРИЕНЕНИЯ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В ПРАВОВОЙ СФЕРЕ

**М.Ф.МЕЛИКОВА**

### РЕЗЮМЕ

В статье характеризуется эпоха цифровизации, наступившая в связи с появлением новых дигитальных (цифровых) технологий, их проникновение в различные сферы общественной жизни, отмечается их значимость в познании права и правовой материи. Вместе с тем со ссылкой на публикации по данному вопросу акцентируется внимание на возможных негативных последствиях внедрения цифровых технологий, в частности, в право. В статье обосновывается отнесение цифровых технологий к числу методов познания государственно-правовой действительности, а также позиция относительно неприятия выделения общества знаний как самостоятельного этапа общественного развития.

**Ключевые слова**: цифровые технологии, возможные риски внедрения цифровых технологий, нормативность права, информационное общество, общество знаний, цифровые технологии в системе методов познания права.

## ON THE PROBLEM OF APPLYING DIGITAL TECHNOLOGIES IN THE LEGAL FIELD

**M.F.MALIKOVA**

### SUMMARY

The article characterized the era of digitalization, which began in connection with the emergence of new digital (cybernated) technologies, their penetration into various spheres of public life, notes their importance in the knowledge of law and legal matter. At the same time, with reference to publications on this issue, attention is focused on the possible negative consequences of the introduction of digital technologies, particularly, in law. The article substantiates the attribution of digital technologies to the number of methods of cognition of state and legal reality, as well as the position regarding the rejection of the separation of the knowledge society as an independent stage of social development.

**Keywords**: digital technologies, possible risks of introducing digital technologies, legal normativity, information society, knowledge society, digital technologies in the system of methods of cognition of law.

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№2 Sosial-siyasi elmlər seriyası 2021***

**UDK.343.98**

# MÜASİR DÖVRDƏ MİLLİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASINDA ƏMƏLİYYAT-AXTARIŞ FƏALİYYƏTİNİN BƏZİ AKTUAL MƏSƏLƏLƏRİ

**E.Q.NƏBİYEV**
***Bakı Dövlət Universiteti***
***nabiyevelbay@gmail.com***

*Məqalədə əməliyyat-axtarış fəaliyyəti kontekstində milli təhlükəsizliklə bağlı məsələlər araşdırılır, təhlükə və təhdid terminləri təhlil olunur, bununla əlaqədar beynəlxalq və yerli təcrübəyə, milli təhlükəsizliklə bağlı mühüm məsələlərə nəzər salınır, əməliyyat-axtarış qanunvericiliyinin vəzifələri ilə bağlı mühüm aktual məsələlər araşdırılır,qanunvericiliyə müəyyən əlavə və düzəlişlər təklif olunur.*

**Açar sözlər:** təhlükəsizlik, milli təhlükəsizlik, milli maraqlar, təhlükə, təhdid, cinayət, əməliyyat-axtarış fəaliyyəti, əməliyyat-axtarış qanunvericiliyi, kəşfiyyat, əks-kəşfiyyat.

Tarixən dünya qaydalarının təməlini təşkil edən və hər hansı cəmiyyətin mahiyyətindən irəli gələn prinsiplərdən biri təhlükəsizliyin təmin olunması olmuşdur. Bütün tarixi dövrlərdə dövlətlər təhlükəsizlik şəraitində yaşamağa can atmışlar ki, bu da onların təbii hüququ kimi qəbul oluna bilər. Dövlət meydana gəldiyi dövrdən ta bu günə qədər təhlükəsizliyin təmin olunması funksiyası öz aktuallığını saxlayır.

Tədricən təhlükəsizliyin təmin olunması dövlətlərin fəaliyyətinin başlıca funksiyalarından birinə keçməklə cəmiyyətdə və dövlətdə sosial-siyasi, iqtisadi sabitliyin, dayanıqlı inkişafın təmin olunmasında başlıca rol oynamağa başladı. Müasir dövlətlərin xarici siyasətində isə təhlükəsizliyin təmin olunması prioritet məsələlərdən biridir. Bu baxımdan hər bir dövlət həm daxili, həm də xarici təhlükə və təhdidlərdən cəmiyyəti və özünü qorumaqla özünümüdafiə tədbirlərindən geniş istifadə edir.

Dövlətin daxili funksiyası kimi təhlükəsizliyin təmin olunması onun mühafizə (hüquq qaydasının mühafizəsi) funksiyasından irəli gəlir. Bu funksiyanın əsas təyinatı isə cinayətkarlıqla və digər hüquqpozmalarla mübarizə aparmaqdır. “Dövlətin funksiyaları onun müxtəlif inkişaf mərhələlərində mahiyyətini, əsas vəzifələrini və sosial təyiinatını ifadə edən coxcəhətli fəaliyyətinin başlıca istiqamətləridir”(11,104). Təhlükəsizliyin təmin olunması bu istiqamətlərdən biridir. Bununla belə, təhlükəsizliyin (ilk növbədə milli təhlükəsizliyin)

təmin olunması dövlətin xarici funksiyası olan xarici təhlükəsizliklə də birbaşa bağlıdır.

Müasir dövrdə təhlükəsizlik ictimai həyatın müxtəlif sferaları üzrə şaxələnməklə özündə xarici təhlükəsizliyi, daxili təhlükəsizliyi, hərbi təhlükəsizliyi, informasiya təhlükəsizliyini, ekoloji təhlükəsizliyi və s. əhatə etməklə insanın, cəmiyyətin və dövlətin mühüm həyati maraqlarını daxili və xarici təhlükə və təhdidlərdən qorumağa yönəlmişdir. Təhlükəsizliyin təmin olunmasının əsas subyekti qismində çıxış edən dövlət təhlükəsizlik obyektlərinin müdafiəsinin zəruri səviyyəsini yaratmaq və saxlamaq üçün təhlükəsizlik sferasında münasibətləri tənzimləyən hüquq normaları sistemi yaradır, bu yönümdə dövlət hakimiyyət və idarəetmə orqanlarının əsas istiqamətlərini müəyyən edir, təhlükəsizliyi təmin edən orqanları və onların fəaliyyətinə nəzarət mexanizmini formalaşdırır və ya yenidən təşkil edir (14, 13-14).

Çoxşahəli və obyektiv xarakter daşıyan "təhlükəsizlik" məfhumunun dolğun tərifinə hüquq ensiklopediyasında rast gəlinir. Burada təhlükəsizlik "Dövlətdə siyasi, iqtisadi və sosial sabitliyin yaranmasını, qanunların icrasını və hüquq qaydasının şərtsiz müdafiəsini, tərəfdaşlıq əsasında beynəlxalq əməkdaşlığın inkişafını şərtləndirən şəxsiyyətin, cəmiyyətin və dövlətin mühüm həyati mənafelərinin siyasi, iqtisadi, sosial, hərbi, texnogen, ekoloji, informasion və digər xarakterli daxili və xarici təhdidlərdən müdafiə vəziyyəti" kimi anlaşılır (15, 82). Tərifdən göründüyü kimi, təhlükəsizlik insan, cəmiyyət və dövlət üçün mühüm əhəmiyyət kəsb edən sahələri əhatə etməklə onları qanunvericilik qaydasında təhlükə və təhdidlərdən qoruya bilməsidir.

Göstərilən müdafiə vəziyyəti insanı, cəmiyyəti və dövləti yarana biləcək və ya yaranan təhlükəli hallardan, təhdidlərdən, o cümlədən cinayətlərdən, qanunsuz müdaxilələrdən qorunmasını özündə ehtiva edir və hüquq qaydası ilə bağlılığını göstərir. Prof. M.Məlikovanın qeyd etdiyi kimi, hüquq qaydası və qanunçuluğun cəmiyyətdə sosial təyinatı dövlət rejimini möhkəmləndirməkdən, dövlət-hüquq quruculuğuna xidmət etməkdən, insanların qanuni mənafelərini qorumaqdan ibarətdir (11, 361). S.N.Jarov isə qeyd edir ki, mövcud hüquq qaydasının mühafizəsi özündə ədəb qaydalarının qorunmasını, cinayətkarlıqla mübarizəni, dövlət təhlükəsizliyinin təmin edilməsini əhatə edir (9, 38).

Hüquq qaydasının mühafizəsi və təhlükəsizliyin təmin olunması hər bir dövlətin diqqət mərkəzində olan mühüm məsələlərdən biridir. Bu hüquqi kateqoriyaların təmin olunmasının mühüm vasitələrindən biri isə hüquqi təminatlardır. Ölkədə hüquq qaydasının mövcudluğu qanunçuluğun cəmiyyətdə sarsılmaz rejimi qismində hökm sürməsinə, sabitliyinə bilavasitə bağlıdır (11, 360).

Hüquq qaydasının əsas cəhətlərindən biri isə cinayət törətmiş şəxsin məsuliyyətinin labüdlüyüdür. Cinayətin vaxtında aşkarlanmaması, açılmaması insanların mühüm qanuni məqsədlərindən biri olan özünü təhlükəsizlikdə hiss etməsinə xələl gətirir, onların dövlətə inamını azaldır. "Qanunçuluğun effektivliyi cəmiyyətdə hüquqi rejimin təntənəsinə, cəmiyyətin mütəşəkkilliyinə, insanlarda ona qarşı inam və hörmətin yaranmasına, onların qanunun tələblərinə

tabe olmasına səbəb olur" (11, 351). Bu baxımdan hüquq qaydası mühafizə olunmaqla insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyi, ictimai-siyasi, iqtisadi sabitliyi təmin olunur.

Yuxarıdakı tərifdən görünən məsələlərdən biri təhlükəsizliyin "təhlükə" və "təhdid" anlayışlarına antonim olmasıdır. Azərbaycan dilinin izahlı lüğətində "təhlükəsizlik" - "heç bir təhlükə olmadığı hal, şərait" kimi anlaşılır. Təhlükənin isə iki mənada işlədilməsi qeyd olunur: 1) "Qorxu törədən hal; xətər, xətərli iş, özünü təhlükəyə atmaq"; 2) Xoşagəlməz, qorxulu, ağır bir hadisənin baş vermək ehtimalı" (3, 292).

Birinci mənada təhlükə qorxu törədən hal olduğu halda, ikinci mənada söhbət hələ baş verməmiş, lakin baş verməsi ehtimal olunan hadisədən gedir. Mənaca təhlükəyə yaxın termin isə təhdiddir. Lüğətdə təhdid "qorxutma, hədələmə, hədə-qorxu" kimi göstərilir (3, 290). Bu anlamda aşağıda təhdidin təhlükə ilə yanaşı mötərizədə göstərilməsini məqsədə müvafiq hesab edirik. Eyni zamanda təhlükə təhlükəsizliyə təhdid kimi də göstərilə bilər.

Fikrimizcə, milli təhlükəsizlik kontekstində təhdidi həm də hər hansı dövlət tərəfindən digər dövlətə qarşı təzyiq vasitəsi kimi də qiymətləndirmək olar. Bu xüsusda mühüm hüquqi məqam qorxu törədən halı, baş verməsi ehtimal olunan hadisəni vaxtında aşkarlamaq, qarşısını almaq və zəruri qabaqlayıcı tədbirlər görməkdir. Eyni zamanda qorxu törədən hal (təhlükə), həm də qorxutma (təhdid) anlamına gəlir. Məna etibarı ilə hər iki termin, demək olar ki, çox yaxındır və insan amili ilə bağlı olduğunu göstərir. Hər iki halda insana, cəmiyyətə və dövlətə hələ tam zərər vurulmur, ancaq bu ehtimal artıq vardır və hər iki halda zərərli nəticələrin baş verməsi mümkündür.

Bu anlamda təhlükə və ya təhdid müvafiq qanunvericilklə nəzərdə tutulmuş cinayət əməllərində və ya milli təhlükəsizliyə və milli maraqlara zərər vurulmasına yönəlik hərəkətlərdə (hərəkətsizlikdə və ya fəaliyyətdə), qanunvericiliklə mühafizə olunan dəyərlərə zərər vurmaq məqsədi ilə qadağan olunmuş qruplaşmaların (təşkilatların) yaradılmasında ifadə olunur. Məlum olduğu kimi, cinayət qanunvericiliyində nəzərdə tutulmuş əməllər insan, cəmiyyət və dövlət üçün ciddi təhlükədir. Lakin elə cinayət əməlləri də var ki, onlar digər cinayətlərin qarşısının alınmasına yönəlmişdir.

Bununla yanaşı, güc strukturlarının öz vəzifə borclarını lazımınca və vaxtında icra etməməsi də ciddi təhlükə yaradan hallara aid edilə bilər. Bu və ya digər sferalarda cinayətkarlığın vəziyyəti (onların çoxluğu, mənfi dinamikası) onu milli təhlükəsizliyə təhdid kimi qiymətləndirməyə əsas verir. Belə vəziyyət əməliyyat-axtarış orqanlarının bütövlükdə hüquq tətbiqetmə sisteminin fəaliyyətinin səmərəliliyinin zəif səviyyədə olduğunun göstəricisi ola bilər. Çünki belə hallar cəmiyyətdə gərginliyin, hakimiyyətə inamsızlığın yaranmasına səbəb ola, eləcə də digər fəsadlara gətirib çıxara bilər.

Bunu ötən əsrin 90-cı illərində Azərbaycanın nümunəsində müşahidə etmək olar. Belə ki, cinayətkarlıqla mübarizə baxımından onların vaxtında açılmaması yeni-yeni cinayətlərin törədilməsinə yol açmaqla yanaşı, həm də cə-

miyyətdə sosial gərginliyinin yaranmasına gətirib çıxarır. Həmin dövrdə Azərbaycan Respublikasında obyektiv və subyektiv səbəblərdən cinayətkarlıqla mübarizə xeyli zəifləmiş, nəticədə isə müxtəlif xarakterli cinayət təzahürləri geniş vüsət almış, cəmiyyətdə sosial gərginlik xeyli artmışdır. Bunu Azərbaycan Respublikası Prezidentinin 9 avqust 1994-cü il tarixli, 181 №-li "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərmanından sezmək olar. Fərmanda deyilir: "Son vaxtlar dövlətin iqtisadi, siyasi əsaslarının təhlükəsizliyi, vətəndaşların həyatı, səhhəti və mülkiyyət hüquqları əleyhinə yönəldilən və əsasən mütəşəkkil cinayətkar dəstələr, qanunsuz silahlı birləşmələr və digər cinayətkar ünsürlər tərəfindən törədilən cinayətlərin, o cümlədən terror aktları, təxribat, qəsdən adam öldürmə, banditizm, silahın, döyüş sursatının və partlayıcı maddələrin talanması və digər yollarla ələ keçirilməsi kimi, narkotik maddələrlə bağlı cinayətlərin, maliyyə-kredit fırıldaqlarının və iqtisadi xarakterli sair cinayətlərin çoxalması müşahidə olunur" (16).

Sözügedən Fərmanda həm də göstərilirdi: "Bir çox hallarda cinayətlərin üstünün açılması üçün zəruri hərəkətləri hüquq mühafizə orqanlarının lazımi çevikliklə, qanunla müəyyən edilmiş formalarda və vaxtında yerinə yetirməməsi, qanunun nəzərdə tutduğu məcburiyyət tədbirlərinin tətbiqində səhvlərə yol verməsi, öz səlahiyyətlərindən təsirli istifadə etməməsi əhalinin haqlı narazılığına və cəmiyyətdə gərginliyin artmasına səbəb olmuşdur" (16). Fərmandan göründüyü kimi, cinayətlərin vaxtında açılmaması və bu yönümdə mövcud boşluqlar cəmiyyətə xeyli zərər vurur, dövlətin nüfuzuna ciddi xələl gətirir, onların artması üçün əlverişli şərait yaradır.

Vaxtı ilə Azərbaycanın görkəmli mütəffəkirlərindən biri olan M.F.Axundov cəzanın zəruriliyini cinayətlərin qarşısının alınması vasitəsi kimi əsaslandırmışdır (5,146-147). Cinayətlərin vaxtında açılmaması, aşkarlanmaması isə insanlarda qanuna inamsızlıq və etibarsızlıq hisslərinin yaranmasına, özbaşınalığa və qisasçılığa, cinayətlərin cəzasız qalmasına gətirib çıxara bilər ki, bu da öz növbəsində, bir tərəfdən, cinayət törətməyə meylliliyin artmasına, yeni cinayətlərin törədilməsinə yol aça, onların potensial cinayətkara çevrilməsinə, digər tərəfdən sosial gərginliyin yaranmasına gətirib çıxara bilər ki, bu da milli təhlükəsizliyə ciddi təhdiddir.

Milli təhlükəsizliyə təhdid yaradan hallarda, hətta münasibətləri soyuq olan dövlətlər belə müəyyən məqamlarda əməkdaşlıq etmək məcburiyyətində qalırlar. Məs., son illərdə ABŞ-la RF arasında yaranmış gərginlik nəticəsində RF-nin yüksək rütbəli məmurlarına, o cümlədən xüsusi xidmət orqanlarının əməkdaşlarına qarşı sanksiyalar tətbiq olundu. Lakin ABŞ-ın təhlükəsizliyinin təmin olunması ilə əlaqədar RF-nin xüsusi xidmət orqanları əməkdaşlarının həmin ölkəyə getmək zərurəti yarandığından sonunculara qarşı olan sanksiyalar qısa müddətdə aradan qaldırıldı və onlar heç bir məhdudiyyət olmadan ABŞ-a gedə bilərdi. Bu, həm də təhlükəsizliyin təmin olunması sahəsində dövlətlərin əməkdaşlığının qaçılmaz olduğunun göstəricisidir.

Sözügedən istiqamətdə ABŞ-la RF arasında əməkdaşlığın təzahürü olaraq 2017-ci ilin dekabrında Mərkəzi Kəşfiyyat İdarəsinin RF-nin Sankt-Peterburq şəhərində hazırlanan terror aktı barədə ona məlumat verməsi olmuşdur. Bununla əlaqədar saxlanılan şəxslər Sankt-Peterburqda Kazan Baş Kilsəsini partlatmalı və insanların sıx olduğu yerlərdə bir sıra partlayışlar törətməli idi. 2019-cu ilin dekabrında isə RF-nin Federal Təhlükəsizlik Xidməti bayram günlərində ABŞ-ın Boston şəhərində idman yarışı zamanı baş vermiş terror aktı barədə sonuncunu əvvəlcədən məlumatlandırmışdır.

Beynəlxalq miqyasda da cinayətkar qruplaşmalar son dərəcə təhlükəlidir. Bu sırada mütəşəkkil transmilli cinayətkarlığı xüsusi olaraq qeyd etmək lazımdır. 1975-ci ildə Cinayətkarlığın qarşısının alınması və hüquq pozuntuları törədənlərlə davranma üzrə BMT-nin 5-ci Konqresində mütəşəkkil transmilli cinayətkarlıq cəmiyyət və milli iqtisadiyyat üçün ənənəvi cinayətkarlığın formalarından daha ciddi təhdid olduğunu bildirmişdir.

Belə cinayətkar dəstələr təkcə hansısa dövlət üçün deyil, beynəlxalq hüquq qaydaları üçün ciddi təhlükədir (təhdiddir). Bu baxımdan onların beynəlxalq əlaqələrinin üzə çıxarılması üçün həyata keçirilən əməliyyatlar olduqca əhəmiyyətlidir. Məs., 13 iyul 2018-ci il tarixli “Yevronyus”un məlumatına görə 2018-ci ildə futbol üzrə dünya çempionatı ərəfəsində İnterpol (beynəlxalq polis birliyi) cinayətkar qruplaşmaların beynəlxalq əlaqələrini aşkarlamaq məqsədi ilə qaçırılmış nəqliyyat vasitələrinin axtarışı üzrə rusiya-finlyandiya sərhədində əməliyyat keçirmişdir. Bu zaman 1200-dən çox nəqliyyat vasitəsi yoxlanılmışdır. İnterpolun təmsilçisi bildirmişdir ki, nəqliyyat vasitələri ilə bağlı cinayətlər yer kürəsinin müxtəlif ərazilərində cinayətkar və terrorçu qruplaşmalarını birləşdirən kriminal fəaliyyətdir. Avropada qaçırılmış nəqliyyat vasitələri CAR və Avstraliyada aşkar olunmuşdur. 10 il ərzində İnterpol bölməsinin bu kateqoriya cinayətlərlə mübarizədə keçirdiyi 14 əməliyyatı nəticəsində 1500 qaçırılmiş avtomobil aşkarlanmışdır. Bununla belə hələ 7 milyondan çox nəqliyyat vasitəsi hələ də beynəlxalq axtarışdadır.

Milli təhlükəsizliyə təhdid və təhlükələr konstitusion normalar daxil olmaqla bir sıra normativ-hüquqi aktlarla (cinayət və cinayət prosessual qanunvericiliyi, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” 28 oktyabr 1999-cu il tarixli AR-in Qanunu, “Terrorçuluğa qarşı mübarizə” haqqında 18 iyun 1999-cu il Qanunu, “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” 29 iyun 2004-cü il tarixli AR-in Qanunu, “Milli təhlükəsizlik haqqında” 29 iyun 2004-cü il tarixli AR-in Qanunu, “Dövlət sirri haqqında” 7 sentyabr 2004-cü il Qanunu və digər qanunlarla) əhatə olunur və bu strateji istiqamətin hüquqi bazasını təşkil edir. Bu qəbildən olan qanunvericilik aktlarının hər biri təhlükəsizliyin, o cümlədən milli təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır.

Lakin dövlət siyasətinin strateji istiqamətlərindən biri olan cinayətkarlıqla mübarizəyə köklənmiş, hüquq mühafizə fəaliyyətinin mühüm bir növü, hüquq qaydasının təmin olunmasının mühüm vasitəsi kimi çıxış edən əməliyyat-axtarış fəaliyyətinin (bundan sonra - ƏAF) həyata keçirilməsi ilə bağlı

hüquqi münasibətləri tənzimləyən (təhlükəsizliyə qəsd edən kriminal yönümlü əməllərin təhlükə və təhdidlərin - qarşısının alınması, aşkarlanması, açılması və digər bu kimi vəzifələrin yerinə yetirilməsi) əməliyyat-axtarış qanunvericiliyi xüsusi əhəmiyyət kəsb edir. Bu xüsusda ƏAF-nin rolunu xüsusi olaraq qeyd etmək lazımdır. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR-in Qanunu bu strateji istiqaməti tənzimləyən, insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyini təmin edən mühüm qanunlardan biridir.

Yuxarıda göstərilən qanunlarda, eləcə də digər normativ hüquqi aktlarda "təhlükə" və "təhdid" terminlərinə, "təhlükənin aradan qaldırılması" və buna oxşar termin və ifadələrə yetərincə rast gəlinir. Lakin ƏAF cinayətkarlıqla mübarizəyə köklındiyi halda (bu fəaliyyətin məqsədlərindən biri milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etməkdir), digər qanunvericilik aktları öz məqsəd və vəzifələri çərçivəsində milli təhlükəsizliyin və milli maraqların təmin olunmasına yönəlmişdir. Məs., kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti milli maraqların müdafiəsi və milli təhlükəsizliyin təmin edilməsi məqsədi ilə həyata keçirilən xüsusi fəaliyyət növü kimi səciyyələndirilir. Belə ki, "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" AR-in Qanununun 1.4-cü maddəsinə əsasən "Əks-kəşfiyyat fəaliyyəti Azərbaycan Respublikasının milli maraqlarının həyata keçirilməsinə mane olan və ya bu maraqlara təhlükə yaradan şərait, proses və amillərdən qorunmasına yönəlmişdir".

Mövcud təhlükə və təhdidlərlə mübarizə kontekstində "Əməliyyat-axtarış fəaliyyəti haqqında" AR Qanununda təsbit olunmuş bu fəaliyyət növünün məqsəd və vəzifələrinə nəzər salaq. Qanunun 1-ci maddənin II hissəsində bu fəaliyyətin cinayətkar qəsdlərdən müdafiə olunan məqsədləri göstərilir (insan həyatı, sağlamlığı, hüquq və azadlıqları, hüquqi şəxslərin qanuni mənafeləri, dövlət sirri, habelə milli təhlükəsizlik), III hissəsində isə onun vəzifələri sadalanır. Qanunda norma-vəzifələr sırasında:

- hazırlanan və törədilən cinayətlərin qarşısınıın alınması;
- törədilmiş cinayətlərin aşkar edilməsi və açılması;
- cinayətləri hazırlayan, törədən və ya törətmiş şəxslərin müəyyən edilməsi;
- məhkəmə, istintaq və təhqiqat orqanlarından gizlənən, cəza çəkməkdən boyun qaçıran və ya itkin düşən şəxslərin axtarılması;
- naməlum meyitlərin şəxsiyyətinin müəyyən edilməsi göstərilir.

Yuxarıda göstərilən 90-cı illərin tarixi hadisələrindən göründüyü kimi, sadalanan vəzifələrin yerinə yetirilməməsi və ya vaxtında yerinə yetirilməməsi (hazırlanan və törədilən cinayətlərin qarşısının alınmaması, sonuncuların aşkar edlməməsi və açılmaması və s.) özü belə müxtəlif xarakterli təhlükələrin yaranmasına və bunun nəticəsi olaraq bir çox fəsadlara və ilk növbədə sosial gərginliyin yaranmasına gətirib çıxara bilər ki, bunun özü milli təhlükəsizliyə, xalqın və dövlətin milli maraqlarına ciddi təhdiddir.

Sözügedən qanuna əsasən ƏAF insan həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət sirrini, habelə milli

təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etmək məqsədi ilə müvafiq dövlət orqanları tərəfindən aşkar və qeyri-aşkar üsullarla həmin qanunla müəyyən olunmuş tədbirlərlə həyata keçirilən fəaliyyət növüdür. Qanunun bir sıra maddələrində şəxsi təhlükəsizlikdən (6-cı maddənin 8-ci bəndində), təhlükənin aradan qaldırılmasından (10-cu maddənin VI hissəsində), dövlət təhlükəsizliyindən (11-ci maddənin III hissəsinin 4-cü bəndində), ictimai təhlükəsizliyə real təhlükədən (14-cü maddənin V hissəsində), real təhlükədən (17-ci maddəsinin IV hissəsində) bəhs olunur. Məs., Qanunun 11-ci maddəsinin IV hissəsinin 4-cü bəndinə əsasən əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi barədə məhkəmənin (hakimin), istintaq orqanının və ya əməliyyat-axtarış fəaliyyətinin səlahiyyətli subyektinin qərarı dövlət təhlükəsizliyinə və ya müdafiə qabiliyyətinə təhlükə yaradan hadisə baş verdikdə, yaxud onun qarşısı alındıqda qəbul oluna bilər.

Qeyd etmək lazımdır ki, peşəkar axtarışın bir hissəsi kimi ƏAF çoxşahəli, özündə müxtəlif istiqamətləri ehtiva edən, hüququn müxtəlif sahələri ilə bağlı olan sosial cəhətdən faydalı fəaliyyət növüdür. Fikrimizcə, bu xüsusda ƏAF-in hüquqi tənzimlənməsinə nəzər salmaq, diqqəti çəkən məqamları təhlil etmək, müəyyən boşluq və çatışmazlıqları aşkar edib onların aradan qaldırılması üçün əsaslandırılmış təkliflər irəli sürmək qanunvericiliyin təkmilləşməsinə xidmət edir.

İnsan, cəmiyyət və dövlətin təhlükəsizliyinin təmin olunması istiqamətində yeni qanunvericiliyin hüquqi əsasını qoymuş və bu yönümdə mühüm mərhələ olan sözügedən Qanun cinayətkarlıqla mübarizənin daha da səmərəli aparılması baxımdan son dərəcə önəmlidir. Hüquq ədəbiyyatında düzgün olaraq göstərilir ki, bu qanun ƏAF sahəsində "qanunvericiliyin özəyini və bu fəaliyyətin hüquqi tənizmlənməsinin əsasını təşkil edir"(8,186). Qanundan göründüyü kimi, məqsədlərdən biri milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etməkdir. Bu yönümdə cinayətlərin qarşısının alınması, onların aşkar edilməsi vacibdir.

Bu xüsusda hüquqi əhəmiyyət kəsb edən əsas məsələlərdən biri bu qanunvericiliyin özəyini təşkil edən "əməliyyat-axtarış fəaliyyəti" terminidir. Əməliyyat müəyyən fəaliyyətin həyata keçirilməsi deməkdir. Azərbaycan dilinin izahlı lüğətində əməliyyat ("əməliyyə") dedikdə "müəyyən bir məqsəd güdən və bir-biri ilə əlaqəli olan işlər" başa düşülür (2, 111). Baxdığımız aspektdə verilən ümumi anlayış çərçivəsində ƏAF aşkar və qeyri-aşkar üsullarla təhlükəsizliyin təmin olunmasına, cinayətkarlığa qarşı mübarizəyə yönəlik fəaliyyətdir. Bu kontekstdə əməliyyat əməliyyat-axtarış qanunvericiliyi ilə müəyyən olunmuş aşkar və qeyri-aşkar üsullarla həyata keçirilən fəaliyyət növüdür.

ƏAF spesifik metod və vasitələrin köməyi ilə cinayətkarlıq sferasında və infrastrukturunda zəruri məlumatların səmərəli axtarışını həyata keçirir ki, bu da, istər peşəkar səviyyədə hüquqa zidd fəaliyyətlə fəal məşğul olan, istərsə də müxtəlif səbəblərdən bu fəaliyyətə potensial olaraq meyl göstərən şəxsləri aşkarlamağa imkan verir (12,11). Əməliyyatla axtarış arasında sıx əlaqənin ol-

duğunu qeyd etmək lazımdır. Məs., telefon danışıqlarına qulaqasmaqla cinayətin açılması üçün zəruri məlumatlar əldə oluna, cinayətkarın izinə düşmək mümkün ola bilər.

Lüğətdə axtarışın iki mənası göstərilir: 1."Cinayəti sübut edəcək əşyayi-dəlil toplamaq məqsədi ilə hökumət orqanları tərəfindən icra edilən axtarma, yoxlama işi". 2. "Kəşfiyyat"(1, 84). Sonuncu məsələyə gəldikdə, qeyd etmək lazımdır ki, kəşfiyyat, həm axtarışın tərkib hissəsi, həm də ayrıca bir fəaliyyət növü kimi mövcuddur. Belə ki, cinayət axtarışı növündə bu fəaliyyət qanunvericiliyə əsaslanmış kəşfiyyat (axtarış) tədbirləri sistemindən ibarətdir. Kəşfiyyat metodları vasitəsi ilə cinayətkar qruplar, onların strukturu, fəaliyyətin miqyası, keçmiş fəaliyyəti, gələcək planları, niyyətləri, real imkanları öyrənilir. Belə qrupların tətbiq etdiyi metodlar bəlli olduqda onların istifadə edə biləcəyi müxtəlif ssenariləri işləyib hazırlamaq, sonra isə ssenari hücumlarına qarşı müdafiə strategiyasını qurmaq olar (13,115).

Konkret cinayətkar qruplaşmasının necə hərəkət edəcəyi təxmin olunduqda profil strukturlarının bu təhdidə qarşı necə hərəkət etməli olduğu da bəlli olur. Bu zaman isə kəşfiyyat məlumatlarına böyük ehtiyac duyulur. "Kəşfiyyat-axtarış səciyyəli tədbirlər vasitəsi ilə cinayətə meylli, cinayət niyyətli və cinayət törətməyi düşünən şəxslər (qrup şəxslər) barəsində məlumatlar əldə olunur" (7, 13). Təhdidlərdən müdafiə tədbirləri informasiyanın (məs., terror qruplaşmaları haqqında məlumatların) toplanılmasını tələb edir. Sonra isə proqnozlaşdırılan təhdid barədə toplanmış bütün mümkün informasiya təhlil olunur. Göründüyü kimi, kəşfiyyat bir halda ƏAF-in zəruri elementi, digər halda bu fəaliyyətin bir növü kimi çıxış edir.

Bu da ƏAF-in hüquqi təbiətindən irəli gəlir. Fikrimizcə, geniş anlamda ƏAF-in məqsədi insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyini və milli maraqların müdafiəsini təmin edilməsi olduğu halda, dar mənada bu fəaliyyət növünün hüquqi təbiətindən irəli gələn vəzifələri (cinayətlərin qarşısının alınması, cinayət faktının aşkarlanması, açılması, onları törədənlərin ifşa olunub məsuliyyətə cəlb olunması, həm də müxtəlif xarakterli təhdidlərin aşkarlanması və aradan qaldırılması) yerinə yetirməkdir.

Geniş mənada ƏAF-i siyasi axtarış, kəşfiyyat və əks-kəşfiyyat (xüsusi xidmət) orqanları həyata keçirir, dar anlamda isə bu fəaliyyətlə əsasən cinayət axtarış (hüquq mühafizə) orqanları məşğuldur. Lakin onların vəzifələri kəsişdiyi halda birgə fəaliyyətinə də zərurət yaranır. Son nəticədə isə ƏAF şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyinin (eyni zamanda cəzanın labüdlüyünün) təmin olunmasına xidmət edir.

Cəzanın labüdlüyünün təmin olunması yolu isə göstərilən hallarla mübarizədən başlanır ki, bu da ƏAF-i şərtləndirir. Belə ki, ƏAF insanları cinayət əməllərindən çəkindirmə mənasında xəbərdaredici funksiyaya malikdir. Cinayət törətməyi düşünən şəxs yaxalana biləcəyini düşündükdə öz təhlükəli niyyətlərindən əl çəkə bilər. Göründüyü kimi, cinayətlərin vaxtında aşkarlanması onların qarşısının alınmasında mühüm rol oynayır. ƏAF-in vaxtında və düzgün

təşkili və aparılmasından, cinayətlərin aşkarlanması və açılması metodlarından düzgün istifadə olunmasından cinayətkarın müəyyən olunub məsuliyyətə cəlb olunması və başqa bu kimi hallar birbaşa asılıdır.

Kriminal xarakterli təhlükələrin (təhdidlərin) qarşısının alınması, aşkarlanması, açılması isə əməliyyat-axtarış fəaliyyətinin əsas vəzifələrinə aiddir. Əsas məsələ belə təhlükələri (təhdidləri), o cümlədən hazırlanan və törədilən cinayətləri vaxtında aşkarlayıb neytrallaşdırmaqdır. Məs., cinayətkar qruplaşmalar barədə məlumat daxil olduqda hüquq mühafizə və xüsusi xidmət orqanları onların hərəkərlərini və fəaliyyətini izləməli, niyyətləri, planları, hazırladıqları cinayətlər və s. barədə zəruri məlumatlar toplamalı və lazımi anda (kifayət qədər sübut olduqda) qabaqlayıcı tədbirlərlə cinayətin və ya cinayətlərin qarşısını almalıdırlar. Əks təqdirdə daha ağır nəticələrin (cinayətlərin) baş verməsini istisna etmək olmaz.

Göründüyü kimi, belə təhlükələrin (təhdidlərin) vaxtında aşkar edilməsi əslində baş verə biləcək ağır cinayətlərin qarşısının alınmasına xidmət edir. Bunu 3 may 2016-cı ildə yaxalanmış son dərəcə təhlükəli mütəşəkkil cinayətkar dəstəsinin timsalında nümayiş etdirmək olar. Belə ki, hüquq mühafizə və xüsusi xidmət orqanlarının birgə həyata keçirdiyi tədbirlərlə Zakatala rayon sakinləri bölgədə dini dözümsüzlük və bölüçülük meylləri yayan, vətəndaşları hədə-qorxu və digər zorakı üsullarla öz sıralarına cəlb etməyə çalışan, əhali arasında pozuculuq işləri aparan həmin rayonun bir neçə sakini saxlanılmış və yaşadıqları ünvanlarda baxış zamanı onlardan 2 ədəd avtomat silah, 2 tapanca, 13 əl qumbarası, 310 ədəd müxtəlif çaplı patron, 5 trotil şaşkası, həmçinin təbliği və yayılması qanunla qadağan edilmiş xeyli sayda dini ədəbiyyat aşkar edilərək götürülmüşdür (17). Belə cinayətkar qruplaşmasının qarşısı vaxtında alınmadıqda hansı ağır cinayətlərə gətirib çıxara biləcəyini təsəvvür etmək çətin deyil.

Beləliklə, cinayətlərin vaxtında qarşısının alınması, onların vaxtında aşkar edilməsi və açılması insana, cəmiyyətə və dövlətə vurula biləcək zərəri xeyli azaldır. Bu xüsusda qabaqlayıcı tədbirlərin görülməsi xüsusi önəm kəsb edir. Məsələ ondadır ki, bir çox halda hər hansı bir təhlükə və ya təhdid qəfildən yaranmır, onu qidalandıran və ya ona rəvac verən proseslər mövcuddur. Təhlükənin haradan, hansı mənbələrdən qaynaqlandığını, onun maliyyə mənbələrini aşkarlamaq və s. məsələlər ortaya çıxır. Bunu ilk növbədə ağır və xüsusilə ağır cinayətlərə şamil etmək olar. Belə cinayətlərin öncədən planlaşdırılmasının və müəyyən hərəkətlərə keçməsinin özü təhlükənin (təhdidin) başlanğıc nöqtəsi sayıla bilər. Bu baxımdan təhlükələrin erkən xəbərdarlığı son dərəcə vacibdir. Təsadüfi deyil ki, ƏAF cinayət işi başlanana qədər də həyata keçirilə bilər.

ƏAF-in vəzifələrinin təhlilindən belə qənaətə gəlmək olar ki, birinci və ikinci qrup vəzifələr cinayətkarlıqla mübarizənin iki əsas istiqamətinə: birincisi, cinayətlərin qarşısının alınmasına; ikincisi, artıq törədilmiş cinayətlərin aşkarlanması və açılmasına yönəlmişdir. Birinci qrup vəzifələr çərçivəsində cinayətlərin vaxtında aşkar edilməsi xüsusi önəm kəsb edir. Bu xüsusda birinci və-

zifə kimi “hazırlanan və törədilən cinayətlərin aşkar edilməsi və qarşısının alınması” kimi göstərilməsi, fikrimizcə, daha məntiqli olardı. Eyni zamanda “Əməliyyat-axtarış fəaliyyəti haqqında” AR Qanununun vəzifələrini təsbit edən 1-ci maddəsinin III hissəsinin bütün bəndlərinə “vaxtında” sözünün əlavə edilməsini və bunu müvafiq şəkildə ifadə etməklə ƏAF-in prinsipləri sırasına daxil edilməsini məqsədə müvafiq hesab edirik.

Cinayətkarlıqla mübarizədə xüsusi önəm kəsb edən ƏAF, həm də təhlükəsizliyin təmin olunmasına yönəlik fəaliyyətdir.

Milli təhlükəsizlik və milli maraqlar kimi strateji məsələlərdə, hətta dost olmayan dövlətlər belə əməkdaşlıq etmək məcburiyyətində qalırlar.

Bununla əlaqədar olaraq ƏAF-in də geniş və dar mənada mövcudiyyətini fərqləndirmək olar. Bu da həmin dövlət orqanlarının vəzifələrinin müxtəlifliyi ilə bağlıdır. ƏAF həm kriminal sferada cinayətkarlıqla mübarizə aparmaq üçün, həm də ictimai həyatın müxtəlif sferalarında təhlükə və təhdidlərin aşkar edilməsi və aradan qaldırılması zərurətindən irəli gələrək insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyini və sabitliyini təmin edən, onların hüquqi həyatının mühüm qanunauyğunluğunun təzahürü kimi çıxış edir. Bu zərurətdən irəli gələn vəzifələr ƏAF-in mahiyyətini təşkil edir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. I c., Bakı: Şərq-Qərb, 2006, 744 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. II c., Bakı: Şərq-Qərb, 2006, 792 s.
3. Azərbaycan dilinin izahlı lüğəti. Nizami adına Dilçilik institutu. Dörd cilddə. IV c., Bakı: Şərq-Qərb, 2006, 712 s.
4. Azərbaycan dilinin izahlı lüğəti. Nəsimi adına dilçilik institutu. Dörd cilddə. III c., Bakı: Şərq-Qərb, 2006, 672 s.
5. Axundov M.F. Əsərləri. 3 cilddə. 2-ci c. Bakı: Şərq-Qərb, 2005, 376 s.
6. “Əməliyyat-axtarış fəaliyyəti haqqında” AR Qanunu /www.e.qanun.az
7. Hüseynov Ş. “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Qanunda və onun tətbiq edilməsində olan problemlər. “Əməliyyat-axtarış fəaliyyəti: nəzəri qanunvericilik və təcrübi aspektləri”. Bakı: Polis Akademiyası, 2010, 7-17 s.
8. Hüseynov Ş., Səlimov K. Əməliyyat-axtarış fəaliyyətinin hüquqi əsasları və bəzi aktual məsələlər. Azərbaycan Respublikasında Dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmusu 01/2010. Bakı: Adiloğlu, 2010, 185-194 s.
9. Жаров С.Н. Оперативно-розыскная деятельность в России: организация, методы, правовое регулирование (историко-юридическое исследование). Дисс. на соиск. ученой степени доктора юридических наук. Екатеринбург, 2010, 459 с.
10.”Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” AR Qanunu /www.e.qanun.az
11. Məlikova M. Hüquq nəzəriyyəsi. Dərslik. Bakı: Elm və təhsil, 2019, 448 s.
12. Основы оперативно-розыскной деятельности. Учебник для юридических вузов. Издание второе, исправленное и дополненное. Под ред. В.Б.Рушайло. СПб., 2000, 720 с.
13. Служба безопасности. АСТ ГЕЛЕОС ЛГ Информэйшн Груп, 1998, 525 с.
14. Воронцов С.А. Спецслужбы России. Учебник. Ростов-на Дону: Феникс, 2006, 512 с.
15. Юридическая энциклопедия. Под общей ред. М.Ю. Тихомирова.М.: 2007, 972 с.
16. https://azvision.az/news/89601/
17. www.mia,gov.az/index. php.

## НЕКОТОРЫЕ АКТУАЛЬНЫЕ ВОПРОСЫ ОПЕРАТИВНО-РОЗЫСКНОЙ ДЕЯТЕЛЬНОСТИ ПО ОБЕСПЕЧЕНИЮ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ В СОВРЕМЕННЫЙ ПЕРИОД.

**Э.К. НАБИЕВ**

**РЕЗЮМЕ**

В статье в контексте оперативно-розыскной деятельности рассматриваются вопросы национальной безопасности, анализируются термины «опасность» и «угроза», в этой связи обращается внимание на вопросы, связанные с международной и местной практикой, национальной безопасностью, а также рассматриваются некоторые актуальные вопросы относительно оперативно-розыскного законодательства, вносятся предложения относительно совершенствования соответствующего законодательства.

**Ключевые слова:** безопасность, национальная безопасность, национальные интересы, опасность, угроза, преступление, оперативно-розыскная деятельность, оперативно-розыскное законодательство, разведка, контрразведка.

## SOME TOPICAL ISSUES OF OPERATIONAL-SEARCH ACTIVITIES IN PROVIDING NATIONAL SECURITY IN THE MODERN PERIOD

**E.K.NABIYEV**

**SUMMARY**

In the article, in the context of operational-search activities, issues of national security are considered, the terms "danger" and "threat" are analyzed, regarding to this fact attention is drawn to issues related to international and local practice, national security, and some topical issues related to operational-search legislation. Also, proposals are made to improve the relevant legislation.

**Keywords:** security, national security, national interests, danger, threat, crime, operational-search activity, operational-search legislation, intelligence, counterintelligence.

# QARABAĞDA YENİDƏNQURMANIN HÜQUQİ ƏSASLARI

**Ə.RZAYEV**
***AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu***

*Məqalədə "yenidənqurma", "bərpa", "yenidəndirçəltmə"anlayışlarına aydınlıq gətirilir. İkinci Dünya müharibəsində SSRİ və Avropanın dağıdılmış ərazilərinin bərpası, vurulmuş ziyanın ödənilməsi məsələlərinə tarixi ekskursiya edilir. İdarəetmənin universal xarakter daşımaqla Qarabağın işğaldan azad olunmuş ərazilərinin bərpa prosesində bütün məsələlərin birbaşa və ya dolayısı ilə onun vasitəsilə həll edilməsi göstərilir. Bərpa prosesində idarəetmənin rolu, onun mahiyyəti , xarakterik əlamətləri, sistemliliyi, tənzimləmə ilə müqayisəsi, hakimiyyət və iradə ilə bağlılığı təhlil edilir. İdarəetmədə məqsədlərin proqnozlaşdırılmasının əhəmiyyəti qeyd edilir, təşkilati strukturun, idarəetmə qərarlarının rolu göstərilir.*

*Məqalədə hüquqi aktlara əsaslanaraq Qarabağda bərpa prosesində nəqliyyat, rabitə , enerji, yol infrastrukturu məsələlərinin həll edilməsi, perspektivdə Kəlbəcər və Laçın rayonlarında* ***külək enerjisindən****, Zəngilan, Cəbrayıl rayonlarında* ***günəş enerjisindən*** *istifadə etmək, Qarabağı "****yaşıl enerji****" zonasına çevirmək, Zəngilan rayonunda "****ağıllı kənd-smart kənd", Ağdamda "ağıllı şəhər"*** *salmaq layihələrinin həyata keçiriləcəyi göstərilir.*

*Məqalədə, həmçinin Azərbaycan Respublikası Prezidentinin 07 may 2021-ci il tarixli Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərində "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında* ***Şuşa Bəyannaməsi****"nin imzalanmasının əlamatdar tarixi hadisə olduğu qeyd edilir.*

**Açar sözlər:** yenidənqurma, bərpa, idarəetmə, tənzimləmə, sistem, hakimiyyət, informasiya, idarəetmə subyekti, idarəetmə obyekti

Ədəbiyyatda və siyasi qərarlarda "**yenidənqurma**" və **"bərpa"** anlayışlarının sinonimi kimi bəzi hallarda "*yenidən dirçəltmə*", "*modernləşmə*", "*təkmilləşmə*", "*islahat*" anlayışlarından istifadə edilir.

**"Yenidənqurma"** termini ilk dəfə keçmiş SSRİ-də Sov. İKP MK-nın Baş katibi M.Qorbaçov tərəfindən 1987-ci ildə yeni islahatların ümumi adı və partiyanın yeni ideologiyası kimi istifadə edilmişdir. Yenidənqurma sovet dövlətinin unitar sisteminin dəyişdirilməsi, ölkədə sovet siyasi sisteminin iqtisadi, siyasi, ideoloji və sosial strukturunun modernləşməsi, demokratikləşmənin dərinləşməsi məqsədləri daşıyırdı. Yenidənqurma 1987-ci ildən başlayaraq bir neçə mərhələni (1987 -1989; 1989 – 1991) əhatə etmiş və nəticədə, nəzərdə tutulan məqsədlərə çatmamış və SSRİ-nin süqutu ilə yekunlaşmışdır.

Yenidənqurmadan fərqli olaraq **"bərpa", "yenidən dirçəltmə**" tam başqa mahiyyət daşıyır. Yəni söhbət müharibə və digər səbəblərdən dağıdılmış

ərazilərdə (vilayət, rayon, şəhər, kənd və qəsəbələrdə) iqtisadiyyatın, kənd təsərrüfatının və b. sahələrin bərpası, dirçəlişi və inkişafından gedir. Nümunə kimi İkinci Dünya müharibəsindən sonra SSRİ-də və Avropa dövlətlərində insan tələfatlarını və onlara vurulmuş zərərin bərpası prosesini göstərmək olar.

İkinci Dünya müharibəsindən sonra SSRİ üçün əsas vəzifələrdən biri ölkənin bərpası və yenidən dirçəldilməsi idi: müharibə dövründə 1700-dən çox şəhər və 70 minə yaxın kənd və qəsəbə, 27-30 min müəssisə dağıdılmış, 27,5 milyon nəfər insan tələf olmuş, milyonlarla insan yaralanmış, iş qabiliyyətini itirmişdi, adambaşına düşən yaşayış sahəsi 3,5 $m^2$ qalmışdı.

Müharibədən sonrakı iqtisadiyyat tələb edirdi ki, sənaye, nəqliyyat yolları, kənd təsərrüfatı təcili bərpa edilsin. 1945-ci il 1 noyabrda SSRİ Xalq Komissarları Soveti "Alman işğalçılarının dağıtdığı şəhərlərin bərpası üzrə tədbirlər haqqında" qərar qəbul etmişdi. Sovet iqtisadiyyatı 1950-1951-ci illərdə bərpa edilmişdi. Sürətli bərpa prosesi nəticəsində 1947-ildə ərzaq kartoçkası ləğv edilmişdi, 1947-1950-ci illərdə hər baharda qiymətlərin endirilməsi həyata keçirilirdi.

Bərpa üçün pul və maddi vəsaitin olması əsas şərtlərdən biri idi. Potsdam (Almaniya; 17 iyul-2 avqust 1945-ci il) konfransının sənədlərinə əsasən, Birinci Dünya müharibəsindən fərqli olaraq **reparasiya** (yəni yalnız pul formasında ödənilirdi) həm də maddi formada (zavodlar, maşınlar, dəzgahlar, mal ehtiyatı, həmçinin xaricdə ehtiyatlar ) ödənilməli idi.

**Reparasiya** (*lat.reparatio-bərpa*) beynəlxalq hüququn subyektinin digər beynəlxalq hüquq subyektinə qarşı beynəlxalq hüquqpozmalara yol verməsi nəticəsində vurduğu ziyana görə maddi məsuliyyət formasıdır. Reparasiya – günahı üzündən müharibədə vurduğu ziyana görə məğlub tərəf qalib tərəfə pul və maddi formada ödəmələr etməsidir.

Beynəlxalq hüquqda **kontribusiya** anlayışından da istifadə edilir. Kontribusiya (*lat.cantributio - "ümumi əmanət, vəsaitin ictimai yığımı*) uduzan dövlət tərəfindən qalib dövlətin xeyrinə qoyulmuş ödənişdir. Burada qalib tərəf hücum edən, zəbt edən dövlət də ola bilər. Beləliklə, fərq ödənişin üsulundadır. *Reparasiya* aqressiyaya məruz qalmış və ziyan görmüş qalib dövlətə, *kontribusiya* isə özü işğalçı ola bilən qalib tərəfə ödənişdir.

İkinci Dünya müharibəsinin sonuna *Avropanın* əksər hissəsi dağılmış vəziyyətdə idi. Kontinentin böyük şəhərlərinin çoxu, o cümlədən Varşava, Rotterdam və Berlin xarabalığa çevrilmişdi. Regionların iqtisadi strukturu dağıdılmış, milyonlarla insan evsiz qalmışdı.

*"Avropanın bərpa planı"* adlanan **Marşall planı** (1947-ci ildə ABŞ-ın Dövlət katibi Marşall tərəfindən irəli sürülmüşdür) İkinci Dünya müharibəsindən sonra *Avropaya kömək məqsədi daşıyırdı.* Planın həyata keçirilməsində Qərbi Almaniya da daxil olmaqla, 17 Avropa ölkəsi iştirak edirdi. ABŞ planının məqsədində müharibədə dağıdılmış Avropa iqtisadiyyatının bərpası, ticarət sədlərinin aradan qaldırılması, Avropa ölkələrinin sənayesinin modernləş-

məsi, Avropanın hakimiyyət strukturunda və inkişafında kommunistlərin sıxışdırılmasının zəruriliyi göstərilirdi.

ABŞ Konqresi 4 aprel 1948-ci ildə Avropaya iqtisadi köməyin dörd illik proqramını nəzərdə tutan "İqtisadi əməkdaşlıq haqqında" qanun qəbul etdikdən sonra Marşall planının həyata keçirilməsinə başlandı. Marşall planına ayrılmış ümumi vəsait 13 milyard dollara yaxın məbləğ idi (bu məbləğdən 2,8 milyard dollar Böyük Britaniyanın, 2,5 – Fransanın, 1,3 – İtaliyanın, 1,3 – Qərbi Almaniyanın, 1,0 – Niderlandın payına düşürdü).

Marşallın Avropanın "birləşdirilməsi" planının məqsədlərindən biri kimi *həm Avropanın özündə və həm də Avropa ilə Amerika arasında hər hansı valyuta və gömrük sədlərinin aradan qaldırılması dururdu.* Avropada qısa müddətdə dağıdılmış şəhərlər bərpa olundu, əvvəlki vəziyyətindən daha yaxşı vəziyyətə gətirildi. Nümunə üçün Rotterdamı göstərmək olar. Müharibə vaxtı bombalandığı üçün şəhər tam dağılmış vəziyyətdə idi. O, 1946-cı ildə tanınmaz dərəcədə dəyişərək yenidən qurulmuş, ən model meqapolislərdən birinə çevrilmişdir.

Təhlil göstərir ki, yenidənqurmanın, bərpanın, dirçəlişin və ya islahatların effektiv həyata keçirilməsi ilk növbədə **idarəetmənin** təşkilindən və idarəetmə - hakimiyyət subyektinin iradəsindən, idarəetmə sisteminin yeni reallığın tələblərinə uyğunlaşmasından asılıdır. İnsanların həyat fəaliyyəti, cəmiyyət və dövlətin fəaliyyət funksiyaları idarəetmə olmadan həyata keçirilə bilməz. İdarəetmədə idarəedici subyektlə idarəolunan obyektin münasibətləri, yəni onların davranış qaydaları hüquqi normalarla tənzimlənir və bununla da bütün növ insan fəaliyyəti hüquqi müstəviyə gətirilir. İdarəetmədən həm insanın həyat fəaliyyətində, həm də iqtisadi, sosial-siyasi sahədə, cəmiyyətin mənəvi həyatında geniş istifadə edilir.

İdarəetmə universal xarakter daşıyır. Qarabağın işğaldan azad olunmuş ərazilərinin bərpası prosesində bütün məsələlər birbaşa və ya dolayısı ilə onun vasitəsilə həll edilir. Nümunə kimi Qarabağın bərpası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" və "İşğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkili" və "Hərbi vəziyyət elan edilməsi haqqında" 27 aprel 2021, 27 sentyabr 2020-ci il tarixli fərmanlarını göstərmək olar.

## İdarəetmənin mahiyyəti və xarakterik əlamətləri

Məlumdur ki, "idarəetmə" insanların həyat fəaliyyətinin (istər fərdi, istərsə də kollektiv olsun) əsas hissəsini tutur. İdarəetmə istər insan orqanizmində, istərsə də cəmiyyətdə və hakimiyyət qollarından asılı olmayaraq dövlət orqanlarının hər birində (təşkilatdaxili fəaliyyətdə) həyata keçirilir. Harada fəaliyyət varsa, orada idarəetmənin mövcudluğundan danışmaq olar. İdarəetmənin klassik elmi anlayışı idarəetmə subyektinin (xüsusən hakimiyyət-idarəetmə subyektinin) idarəolunan obyektə məqsədyönlü şüurlu təsiri kimi baxılır. İdarəetmə təsirinin effektivliyi əks-əlaqənin düzgün qurulması və bu kanalın effektiv işləməsi ilə müəyyən edilir.




İdarəetmə öz mahiyyətinə görə müvafiq strukturları nizamlamaq və bu sistemin mövcudluğunun və inkişafının qanunauyğunluğuna tam müvafiq şəkildə effektiv funksiya göstərməsini təmin etmək məqsədilə subyektin obyektə idarəetmə təsirinə gətirir.

Hər bir idarəetmə prosesinə aşağıdakı xarakterik əlamətlər xasdır: 1) tamamlanmış idarəetmə sisteminin yaradılması; 2) qoyulmuş məqsədə çatmaq üçün idarəetmə obyektinə məqsədyönlü təsirin olması; 3) idarəedən subyektin və idarəolunan obyektin mövcudluğu; 4) idarəetmə iştirakçıları arasında əsas əlaqələndirici bölmə kimi informasiyanın olması; 5) idarəetmə strukturunda iyerarxiyanın mövcudluğu; 6) idarəetmə obyektinin idarəedən subyektə tabeçiliyinin olması.

İdarəetmənin mahiyyəti ondadır ki, bir tərəf – idarəedən subyekt digər tərəfi–idarəolunan obyekti istiqamətləndirir, müvafiq təsir göstərir, əks-əlaqə kanalı ilə obyektin vəziyyəti barədə məlumat alır və bununla da, idarəetmə fəaliyyəti yaranır və münasibətlərə keçir.

İdarəetmə bir **sistemdir**. İdarəetmə sisteminin yaradılması üçün əvvəlcə məqsədlər qoyulur, sonra istifadə olunacaq meyarlar seçilir, idarəetmə subyekti və idarəolunan obyekt formalaşır, onların arasında əlaqələr (birbaşa və əks-əlaqələr) və qarşılıqlı təsir yaradılır.

Məlumdur ki, sosial sistem təbiətin başqa sistemləri, o cümlədən süni yaradılmış sistemlə həmişə **insan** vasitəsilə təmasda olur. Dövlət idarəetməsinin təsiri yalnız insana yönəldilir. İdarəetmə sisteminin əsas elementi - insan, onun maraqları və tələbatıdır. İdarəetmə sistemində həm idarəedən və həm də

idarəolunan insandır. *İnsan idarəetmədə idarəetmə sisteminin fəal bölməsi* keyfiyyətində həm idarəetmə subyekti və həm də idarəetmə obyekti rolunda: idarəedən, idarəetmə qərarlarını hazırlayıb qəbul edən şəxs, rəhbər, idarəetmə aparatının işçisi və s. kimi çıxış edir.

İdarəetmə problemləri o qədər geniş və əhatəlidir ki, onu bir məqalədə təhlil etmək mümkünsüzdür, odur ki, bu məqalədə idarəetmənin yalnız bəzi aspektləri tədqiq edilir.

İdarəetmənin əsas funksiyalarından birini ***tənzimləmə*** tutur. Tənzimləmə qərarların qəbul edilməsi, məqsədlərin qoyulması və seçim edilməsindən sonra başlanır. İdarəetmə kateqoriyası daha ümumi xarakter daşıdığı halda, tənzimləmə idarəetmənin tərkib hissəsi kimi fəaliyyət göstərir. Tənzimləmə idarəetmənin ayrılmaz hissəsi olub, idarəetmə funksiyalarını – qərarları, planlaşdırmanı, proqnozlaşdırmanı, strateji məqsədləri tamamlayır. *İdarəetmə* bütövlükdə fəaliyyətin, hərəkətin, inkişafın trayektoriyasını müəyyən edirsə, *tənzimləmə* yalnız yaranmış şəraitə, əlavə tələblərə, dövlət maraqlarına uyğun dayanıqlı olan, proqramın trayektoriyasının korreksiyasına, dəyişdirilməsinə və aydınlaşdırılmasına yönəldilir[1].

İdarəetmədə **hakimiyyət** həlledici rol oynayır. Mahiyyətcə hakimiyyət idarəetmənin yaradıcısıdır. Hakimiyyətin təsiri ilə idarəetmənin ictimai münasibətlərə təsiri məqsədyönlü idarə olunan, nəzarət edilən xarakter alır, insanın həyat fəaliyyəti təşkil olunmuş və nizama salınmış vəziyyətə gətirilir. Hakimiyyət cəmiyyətə bütövlük, idarəolunanlıq xüsusiyyəti verir, təşkilatlanmaqda və qaydaların müəyyən olunmasında həlledici amil rolunu oynayır. Hakimiyyət həyat qaydalarını təmin edən və sistem yaradan təzahürdür. Hakimiyyət *iradi münasibət* olub bir tərəfdə əmr, tələb, qanun, norma və qaydaları verən subyektin, digər tərəfdə isə tabeçilik, riayət etmək, icra etmək funksiyası daşıyan obyektin olmasını şərtləndirir.

Hakimiyyətdə və idarəetmədə **iradə** prinsipial əhəmiyyət daşıyır. İdarəetmənin ilkin şərti və hərəkətverici qüvvəsi keyfiyyətində *iradə* çıxış edir. ***İradə***– heç də seçilmiş məqsədə gözüyumulu getmək bacarığı deyil, o, həm də özü və cəmiyyət üçün əhəmiyyətli işi ağılla və məqsədyönlü müəyyənləşdirmək bacarığı və onu yerinə yetirməyə çalışmaqla, tələsmədən maneələri aradan qaldırmaq üçün optimal variantı seçmək və həyata keçirməkdir. Hər bir iradə gücü *iki mərhələdən* keçir:

***Birinci** – hazırlıq mərhələsi* – burada məqsədlər aydınlaşır, məqsədə çatmaq üçün yollar, imkanlar və vasitələr müəyyən olunur və qərar qəbul edilir.

***İkinci** – icra mərhələsi* – burada qəbul olunmuş qərarların icrası həyata keçirilir. İradəni həyata keçirərkən "məqsədəuyğunluq" əsas götürülməli, insanda aydın məqsədlilik, qətiyyət, inadcıllıq, təmkinlilik, cəsarət, hünər, intizamlılıq keyfiyyətləri olmalıdır.

---

[1]https /yandex.ru/images/search?text=управление

Azərbaycan xalqı bu iradəni 44 günlük Vətən müharibəsində AR Prezidenti İlham Əliyevdə gördü. Teleqram-kanalında "*Azərbaycan Ermənistanla Dağlıq Qarabağ uğrunda aparılan müharibəni necə qazandı?*" sualına 9 bənd üzrə şərhin birinci bəndində bu fakt obyektiv qiymətləndirilir: 1) *Güclü və iradəli Prezident və Ali Baş Komandan İlham Əliyev*; 2) Səmərəli təlimlənmiş, texniki cəhətdən təchiz olunmuş müasir bir ordu; 3) Azərbaycan əsgər və zabitlərinin yüksək əhval-ruhiyyəsi; 4) Müharibənin ədalətli xarakteri – işğal olunmuş ərazilərin azad edilməsi; 5) Səriştəli hərbi planlaşdırma, döyüş əməliyyatlarının hərtərəfli hazırlığı; 6) Ordu ilə xalqın birliyi; 7) İnkişaf etmiş hərbi-sənaye kompleksi; 8) Güclü və çoxşaxəli iqtisadiyyat; 9) Ölkə üçün optimal siyasi hakimiyyət sistemi.

*İradə aparatı* ***məqsədlər*** *müəyyən edildikdən sonra fəaliyyətə başlayır. Məqsəd arzuolunan vəziyyətin "ideal təsəvvürüdür"*. İdeyaları həyata keçirmə prosesində məqsədlərin *proqnozlaşdırılması* idarəetmə prosesində mühüm amildir, bir və ya bir neçə məqsədi seçməkdir.

*Məqsədlərin proqnozlaşdırılması*: 1) yaxın və uzaq perspektivdə məsələlərin vacibliyini nəzərə almaq, iş vaxtını proqnozlaşdırmaq məharəti; 2) məsələlərin həllində optimal yolları axtarmaq qabiliyyəti; 3) məqsədlərin düzgün qoyulması və onlara nail olmaq bacarığı idarəetmənin mənasını təşkil edir və nəzərdə tutulan məqsədlərə çatmaqla müəyyən olunur. Qoyulmuş məqsədlərin həyata keçirilməsi aşağıdakı ardıcıllıqla müəyyən edilir*: məqsədlərin proqnozlaşdırılması* – konkret məqsədin qoyulması – məqsədə çatmaq imkanlarının dərk edilməsi – bu imkanları təsdiq və inkar edən motivlərin yaranması – motivlərin mübarizəsi – qərar keyfiyyətində imkanlardan birinin qəbul edilməsi – qərarın həyata keçirilməsi – qəbul olunmuş qərarın yerinə yetirilməsində kənar maneələrin aradan qaldırılması və qoyulmuş məqsədlərə çatılması.

Təbiətdə, cəmiyyətdə, istehsalatda baş verən hər hansı bir dəyişiklik bu və ya başqa təzahürün, prosesin, hadisənin kəmiyyət və keyfiyyət xarakteristikasını əks etdirir. İstənilən formada və istənilən məzmunda olan bütün bu məlumatlar **informasiyanı** təşkil edir. İdarəetmə prosesində *informasiya* əsas rol oynayır. İnformasiya idarəetmənin bütün səviyyələrində rəhbərlərin və mütəxəssislərin əsas əmək predmetidir, lakin idarəetmə fəaliyyətinin son nəticəsi sosial-iqtisadi sistemin effektiv fəaliyyəti ilə ölçülür. Ümumiyyətlə, əhəmiyyətli ictimai vəzifəni realizə edən istənilən idarəetmə sistemlərində, xüsusən iri sistemlərdə informasiya təminatının azı *üç mənbə və kanalı olmalıdır:*

- cəmiyyətin, onun şəxsiyyətlərinin və institutlarının vəziyyəti və həyat fəaliyyəti haqqında – *sosial informasiya*;
- təbii şəraitlərin və ehtiyatların potensialı və dinamikası, o cümlədən əhalinin demoqrafiyası haqqında – *ekoehtiyat informasiyası*;
- elmi tədqiqat, yaradılan məhsul istehsalı, xidmət və istehlak prosesləri və istiqamətləri haqqında –*elmi axtarış* informasiyası[1].

---

[1] Атаманчук Г.В. Управление в жизнедеятельности людей. М.: РАГС, 2008, с. 186

İdarəetmədə bütün fəaliyyət **strukturlaşma** ilə həyata keçirilir**.** Hər bir sistem struktur şəklində rəsmiləşdirilir: onun elementləri nisbi müstəqildir və sistem təşkil edirlər. Struktur onun başlıca xüsusiyyətlərini təmin edən əsas, sistem yaradan elementləri və əlaqələri əks etdirir. Strukturlaşmada *təşkilati struktur* əsas rol oynayır. İnsanların birliyi və müəyyən nisbətdə onların fəaliyyət şəraiti və qarşılıqlı əlaqəsi *təşkilati strukturu* yaradır. Təşkilatın *formal strukturu* – bu, qanunverici aktlarda, təlimatlarda, əsasnamələrdə və b. sənədlərdə təsbit olunur.

İdarəetmə orqanının işinin uğuru **idarəetmə qərarlarının** effektivliyindən asılıdır. *İdarəetmə subyekti* tərəfindən qəbul olunan qərar *institusional* xarakter alır, sərbəst həyata başlayır. İdarəetmə qərarlarında *dövlət idarəetmə qərarı* daha mühüm əhəmiyyət daşıyır. Dövlət idarəetmə qərarı *dövlət hakimiyyəti –idarəetmə subyektinin* düşünərək rəsmi formada ifadə etdiyi sosial gerçəkliyə məqsədyönlü təsir seçimidir.

İdarəetmə qərarı öz mövcudluğu prosesində - ideyanın yaranmasından tam yerinə yetirilməsinə və yeniləri ilə dəyişilməsinə qədər düşünülmüş hərəkət, müəyyən *mərhələlər və ardıcıl prosedurlarla* həyata keçirilir. İdarəetmə qərarının qəbulu prosesi müəyyən mərhələləri əhatə edir: qərarın hazırlanması; problemin formalaşması; məqsədləri, kriteriyaları və məhdudiyyətlərini müəyyən etmək; problemi həll etmək üçün informasiyanın yığılması və təhlili; qərarın müəyyən şəklə salınması; alternativ qərarın hazırlanması; alternativlərin təhlili və seçilməsi; qərarın qəbulu və realizasiyası; qərarın yerinə yetirilməsinin təşkili; qərarın icrasına nəzarət.

İdarəetmə qərarları aşağıdakı istiqamətlərə yönəldilir: sosial sistemdə qəbul edilir və strateji planlaşdırmaya; idarəetmə fəaliyyətinin, insan resurslarının; istehsalat və xidmət fəaliyyətinin idarə edilməsinə; təşkilatın idarəetmə sisteminin formalaşdırılmasına.

## Qarabağın dağıdılmış ərazilərinin bərpasının hüquqi əsasları

*Cinəyatkarın ən böyük şirnikləndirməsi - cəzasızlıqdır.*
***Siseron***

*İlahi, mənim düşmənlərimi gülünc eylə.*
***F .Volter***

Qarabağın otuz il müddətində ermənilər tərəfindən işğal edilmiş ərazilərinin Ali Baş Komandan, AR Prezidenti İlham Əliyevin rəhbərliyi ilə xalqla müzəffər ordu tərəfindən 44 günlük müharibədə azad olunmasının sirləri dünya mətbuatında, siyasi dairələrdə müzakirə olunmaqda, Azərbaycan xalqının və hər bir insanın yaddaşında fəxarət hissi ilə qalmaqdadır. Bu tarixi zəfər düşmən tapdağı altında olan ərazilərimizin azad edilməsi ilə yanaşı, 30 ilə yaxın davam edən münaqişəyə də son qoydu. Müharibə dövründə hərbi qələbə ilə yanaşı, İlham Əliyev tərəfindən informasiya sahəsində qazanılan qələbəni də xüsusi qeyd etmək lazımdır. Cənab Prezidentin xarici informasiya kanallarına və yerli

informasiya vasitələrinə verdiyi müsahibələr informasiya blokadasının yarılmasında aparıcı rol oynamışdır.

Prezident İlham Əliyev müharibə zamanı Rusiya, Türkiyə, Fransa, Böyük Britaniya, İspaniya, Almaniya, İtaliya, Yaponiya və ABŞ kimi bir neçə ölkədən olan media qurumlarına rus, türk və ingilis dillərində olmaqla 26 müsahibə vermiş və 600-dan çox sualı cavablandırmışdır[1].

Dağıdılmış ərazilərin bərpası dövründə qarşıda ilk növbədə *kommunikasiyanın –yol və rabitənin bərpası, elektrik enerjisi ilə təminat* dayanır. Ölkə başçısı 2021-ci il fevralın 14-də Füzulidə olarkən Horadiz – Ağbənd dəmir yolu xəttinin (Ağbənddən Zəngəzur dəhlizi vasitəsilə Naxçıvan yoluna qoşulacaq), martın 15-də Füzuli–Hadrut avtomobil yolunun və aprelin 26-da isə Zəngilan–Horadiz avtomobil yolunun təməlini qoydu... Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin CNN kanalına verdiyi müsahibədə (15 avqust 2021-ci il) Horadiz–Zəngilan – Zəngəzur dəhlizi – Naxçıvan avtomobil yolunun çəkilməsinin zəruriliyini göstərmişdir. Əhmədbəyli–Füzuli–Şuşa; Horadiz–Ağbənd (Zəngilan); Xudafərin – Xanlıqlar (Qubadlı)–Laçın şəhəri; Hadrut–Cəbrayıl (Naxçıvan yoluna birləşdirilməklə); Toğanaq – Ömər aşırımı – Kəlbəcər avtomobil yollarının, hava nəqliyyatı üçün Füzulidə beynəlxalq aeroportun, Zəngilanda və Laçında aeroportların tikintisi başlanmışdır. Ümumi uzunluğu 100 kilometr olacaq Ağbənd–Zəngəzur dəhlizi–Naxçıvan dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ – Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə, Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaqdır.

Bərpa işləri arasında elektrik enerjisi təchizatı xüsusi yer tutur. Bu məqsədlə Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün “Azərenerji” Səhmdar Cəmiyyəti Şuşa şəhərinə yüksək gərginlikli elektrik xətləri çəkmiş və Şuşa şəhərində elektrik yarımstansiyası inşa etmişdir. Potensial imkanlar nəzərə alınaraq, Kəlbəcər və Laçın rayonlarında külək enerjisindən, Zəngilan və Cəbrayıl rayonlarında günəş enerjisindən istifadə etmək, Qarabağı “**yaşıl enerji**” zonasına çevirmək planlaşdırılır.

Azərbaycan Respublikası Prezidentinin 07 may 2021-ci il tarixli Sərəncamı ilə Şuşa şəhəri **Azərbaycanın mədəniyyət paytaxtı** elan edilmişdir. Şuşa şəhərinin su, istilik, kommunikasiya işləri aparılmışdır. Əlamətdar tarixi hadisə Şuşa şəhərində “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında **Şuşa Bəyannaməsi**”nin imzalanması idi. Bu sənədin Qars müqaviləsinin 100 illiyi və Milli Qurtuluş Günü kimi qeyd

---

[1] 44 günlük diplomatiya dərsləri. Bakı: Elm və təhsil, 2021, 251 s.

edilən bayram günündə baş tutması tarixə qızıl hərflərlə yazılacaq hüquqi sənəd olmaqla, iki qardaş dövlətin dostluğunun və Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı tarixi zəfərin yeni müstəvidə davamı idi. 1921-ci ildə imzalanan Qars müqaviləsi ilə Naxçıvanın təhlükəsizliyinin qarantı olan Türkiyə 100 il sonra - 2021-ci ildə Şuşa Bəyannaməsi ilə bu dəfə Qarabağın təhlükəsizliyinin qarantı oldu.

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2021-ci il tarixli Fərmanı xüsusi mahiyyət daşıyır, “**ağıllı şəhər**” və “**ağıllı kənd- smart kənd**” konsepsiyalarının reallaşdırılmasını nəzərdə tutur. Sonra isə bu layihələr idarəetmə mexanizmi kimi digər ərazilərimizə transfer ediləcək. Zəngilan rayonunda salınacaq “ağıllı kənd”də məskunlaşacaq əhali kifayət qədər üstünlüklərə sahib olacaq. Nəzərə alaq ki, bu modeldən inkişaf etmiş ölkələr artıq uzun müddətdir istifadə edirlər. Avropa ölkələrində, xüsusən Hollandiyada bu model geniş tətbiq olunur. “Ağıllı kənd”də sakinlərin kənd təsərrüfatı, əkinçilik və heyvandarlıqla məşğul olmaq imkanları böyük olacaq. Əldə edilən məhsullar sadəcə xammal formasında deyil, daha çox emal edilərək daxili və xarici bazara çıxarılacaq, emaledici məhsulun istehsalına imkan yaranacaq.

Növbəti addım Ağdamda “ağıllı şəhər” layihəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ağdam şəhərinin Baş Planını təsdiq edərkən demişdir: “Hesab edirəm ki, bu gün tarixi gündür. Çünki bu gün azad edilmiş torpaqlarda birinci “Baş Plan” artıq təsdiqlənir. İndi Şuşa şəhərinin Baş Planı hazırlanır, artıq bir müddətdən sonra təsdiqlənəcək. Füzuli şəhərinin, Cəbrayıl şəhərinin, digər şəhərlərin Baş Planları üzrə iş gedir. Amma birinci Baş Plan, bax, burada təsdiqlənəcəkdir. Biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır”.

“*Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında”* Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı xüsusi əhəmiyyət daşıyır. Bu fərmana görə, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılması nəzərdə tutulur. Müvəqqəti komendantlıqların fəaliyyətinə ümumi nəzarəti AR Prezidentinin Administrasiyası həyata keçirir.

Azərbaycan Respublikası Prezidentinin 24 may 2021-ci il tarixli Sərəncamı ilə Ağdam şəhəri də daxil olmaqla, Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilib.

“Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü (14 iqtisadi rayon) haqqında” Azərbaycan Respublikası Prezidentinin 07 iyul 2021-ci il tarixli Fərmanı iqtisadi, sosial və siyasi əhəmiyyət daşıyır. Bu fərmanla

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ayrılması Azərbaycanın tarixi ərazisinin hüquqi əsaslarla təsdiqidir.

Şərqi Zəngəzur iqtisadi rayonunda Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları, Qarabağ iqtisadi rayonunda Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarının birləşdirilməsinin qanunvericilikdə təsbit edilməsi bu rayonların iqtisadi inkişafı ilə yanaşı, gələcək üçün bütün sahələrdə çox böyük perspektivlər açır. Bu fərmanın 7 iyulda qəbul edilməsinin siyasi mahiyyəti ondadır ki, təxminən 100 il bundan qabaq – 7 iyul 1923-cü ildə Dağlıq Qarabağ MuxtarVilayəti yaradılmışdır. Bu fərmanın 2021-ci ilin 7 iyul tarixində qəbul edilməsi 7 iyul 1923-cü il qərarının arxivə göndərilməsi deməkdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinin bərpası ilə bağlı hüquqi aktların qəbulu məntiqi ardıcıllıqla davam etdirilir.

## ƏDƏBİYYAT

1. Rzayev Ə.H. Dövlət qulluğunun hüquqi əsasları . Bakı: Elm, 2011, 480 s.
2. Атаманчук Г.В. Управление в жизнедеятельности людей. М.: РАГС, 2008, 400 с.
3. Hakimiyyət və idarəetmə: hüquqi və sosial aspektləri. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Bakı, 2019, №1(65), с.137-148.
4. 44 günlük diplomatiya dərsləri. Bakı: Elm və təhsil, 2021, 251 s.
5. https /yandex.ru/images/search?text=управление

## ПРАВОВЫЕ ОСНОВЫ ПЕРЕСТРОЙКИ В КАРАБАХЕ

**А.РЗАЕВ**

## РЕЗЮМЕ

В статье уточняются понятия «перестройка», «восстановление», «возраждение», Проведена историческая экскурсия по восстановлению разрушенных территорий СССР и Европы в годы Второй мировой войны и вопросу компенсации за нанесенный ущерб. Универсальный характер управления показывает, что в процессе восстановления освобожденных территорий Карабаха все вопросы прямо или косвенно решаются через управление. Анализируются роль управления в процессе восстановления, его сущность, характерные черты, системность, сравнение с регулированием, связь с властью и волей. Подчеркивается важность прогнозирования целей в управлении, указывается роль организационной структуры и управленческих решений.

На основе правовых актов в статье рассматриваются вопросы транспортной, коммуникационной, энергетической, дорожной инфраструктуры в процессе восстановления в Карабахе, реализации в переспективе проектов по использованию «энергии ветра» в Кельбаджаре и Лачине, «солнечной энергии» в Зангиланском и Джебраильском районах, превратить Карабах в зону «зеленой энергии», построения «умной деревни» в Зангиланском и «умногогорода» в Агдамском районах.

В статье также отмечается, что подписание «Шушинской декларации о союзнических отношениях между Азербайджанской Республикой и Турецкой Республикой» в г.

Шуше, объявленной Указом Президента Азербайджанской Республики от 7 мая 2021 года *культурной столицей Азербайджана*, является важным историческим событием.

**Ключевые слова:** перестройка, восстановление управление, регулирование, система, власть, информация, субъект управления, объект управления

## LEGAL BASIS OF RESTRUCTURION IN KARABAKH

**A.RZAYEV**

## SUMMARY

The article clarifies the concepts of “perestroika”, “restoration”, “rebirth”. A historical excursion is conducted on the restoration of the destroyed territories of USSR and Europe during the Second World War and the issue of compensation for the caused damaged. The universal nature of the governance shows that in the process of restoration of the liberated territories of Karabakh, all issues are resolved directly or indirectly through the governance. The role of governance in the recovery process, its essence, characteristic features, systematization, comparison with regulation, connection with power and volition analyzed. The importance of the goal prediction in management is emphasized, the role of the organizational structure and management decisions is indicated.

Based on the legal acts the article addresses the issues of transport, communication, energy, road infrastructure in the recovery process in Karabakh, the implementation of the future projects to use **“wind energy”** in Kalbajar and Lachin, **“solar energy”** in Zangilan and Jabrayil districts, to turn Karabakh into **“green energy”** zone, to build a **“smart village”** in Zangilan and **“smart city”** in Aghdam districts.

İt is also indicated in the article that the signing of the **"Shusha Declaration** on Allied Relations between the Republic of Azerbaijan and the Republic of Turkey" in Shusha, which was declared *the capital of culture of Azerbaijan* by the Decree of the President of the Republic of Azerbaijan dated May 7, 2021, is a significant historical event.

**Keywords**: perestroika, restoration, management, regulation, system, power, information, subject of management, object of management

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2021

UOT 343.1

# MƏHKƏMƏ NİTQ MƏDƏNİYYƏTİNİN BİR ELM SAHƏSİ KİMİ ANLAYIŞI VƏ ƏHƏMİYYƏTİ

**Ə.Ə.QASIMOV, K.HÜSEYNOVA**
***Bakı Dövlət Universiteti***
***haci-arastun@rambler.ru***

*Məqalədə nitq mədəniyyətinin bir elm sahəsi kimi anlayışı və əhəmiyyəti araşdırılmışdır.*

*Nitq mədəniyyətindən danışarkən, birinci növbədə, bu anlayışın məzmununu aydınlaşdırmaq, başa düşmək lazımdır. Başqa sözlə, «nitq» və «mədəniyyət» sözlərinin məzmununu açmaq gərəkdir. Nitq dil anlayışı ilə sıx bağlıdır. Bunlar bir hadisənin iki cəhətidir. Dil dedikdə, ünsiyyət vasitəsi olan sözün xüsusiyyətləri, yəni onun səs tərkibi, morfoloji quruluşu, bir-biri ilə əlaqə formaları, sözlərdən cümlə düzəltmək qaydaları kimi cəhətlər nəzərdə tutulur.*

**Açar sözlər**: nitq, dil, natiq, monoloq, dialoq, poliloq

Müasir dövr, müasir həyat inkişaf etmiş elmi-texniki və mədəniyyət dövrüdür. Bu dövr hər bir şəxsin yüksək nitq mədəniyyətinə malik olmasını tələb edir. Bəs, nitq mədəniyyəti nədir? Nitq mədəniyyəti dedikdə, natiqin və ya danışan şəxsin ədəbi dilin orfoepik, leksik, üslubi, qrammatik və digər sahələrinin ümumiləşdirilmiş və normalaşdırılmış səviyyələrinə uyğun şəkildə söyləməsi, fikrini izah etməsi nəzərdə tutulur. Çünki nitq mədəniyyəti xalqın ümumi mədəni səviyyəsinin tərkib hissəsində aparıcı rola malikdir. Başqa sözlə, nitq mədəniyyəti şəxsiyyətin bütövlüyünü və mənəvi kamilliyini hərtərəfli aşkara çıxaran mühüm bir vasitədir. Nitq mədəniyyəti, gözəl və rəvan danışıq vərdişi bir tərəfdən natiqin dünyagörüşü, hazırlıq dərəcəsi, estetik və etik zövqü, digər tərəfdən isə fitri istedadı ilə bağlıdır. Belə ki, öz çıxışlarında nitq mədəniyyəti normalarına riayət edən şəxsin nitqi mədəni nitq adlanır (3, 249-250).

Nitq mədəniyyəti ümumi mənəvi mədəniyyətin tərkib hissələrindən biridir. Xalqımızın müstəqillik və suverenlik əldə etdiyi indiki dövrdə hərtərəfli inkişaf etmiş şəxslərin tərbiyə olunması tələbi dil mədəniyyətini də vacib məsələ kimi qarşıya qoyur. Azərbaycan dili hazırda sözün əsl mənasında dövlətimizin rəsmi dilidir, geniş və şəriksiz ictimai ünsiyyət vasitəsidir. Hər cür dəftərxana işləri, rəsmi sənədlər, mətbuat, radio və televiziya verilişləri və s. bu dildə aparılır. Ayrı-ayrı ixtisas sahələrinə, müxtəlif dil duyumuna mənsub olan adamlar öz arzu-istəklərini, təklif və tövsiyələrini, xalqın ədəbiyyatı, tarixi mədəniyyəti, dövlətin daxili və xarici siyasəti və s. bağlı fikirlərini öz ana

dilində – Azərbaycan dilində şərh edir, söyləyirlər (1, 4). Dil böyük bir xəzinənin – insan mənəviyyatının açarıdır, onu əks etdirən güzgüdür. Dil xalqın varlığını təmin edən əsas amillərdən biridir. Dil fikrin ən incə cizgilərinin, qəlbin ən dərin ehtiraslarının, şüur və düşüncənin, həyəcan və iztirabların ifadəsidir. Dil, ana dili xalqın ruhudur. Hər bir xalqın öz vətəni, ana dili olduğu kimi, bizim ana dilimiz də Azərbaycan xalqının fikrinin, müşahidələrinin, düşüncəsinin, əqidə və məsləkinin, bir sözlə, bütövlükdə onun şərəfli tarixinin, milli ruhunun ifadəsidir (8, 150).

Respublikamız yalnız dövlət müstəqilliyi qazandıqdan sonra ana dilimiz, həqiqi mənada, əməli şəkildə dövlət dili statusu qazandı. Müstəqilliyimizin sonrakı illərində prezident olmuş Ümummilli lider, Ulu öndərimiz Heydər Əlirza oğlu Əliyev cənabları Azərbaycan dilinin Konstitusiya hüququnun həyata keçirilməsinə, onun inkişafına, tətbiq dairəsinin genişlənməsinə xüsusi diqqət və qayğı göstərmişdir. O, qeyd edirdi ki: «Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalı və bu dili sevməlidir». Belə bir şəraitdə kütlələrlə daima təmasda olan natiqlərin üzərinə böyük vəzifələr düşür. Onlar əməli fəaliyyətində dildən yüksək səviyyədə istifadə etmək bacarıq və vərdişlərinə yiyələnməklə, bu keyfiyyəti digərlərinə də aşılamalıdırlar (1, 6-7).

Heydər Əliyevin istər Sovet imperiyası, istərsə də müstəqillik dövründə Azərbaycan dili uğrunda apardığı mübarizəni, bu dilin müdafiəsinə yönələn mücadiləni dərk etmək üçün onun Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsinin dövlət dili haqqında maddəsinin geniş müzakirəsində söylədiyi nitqinə diqqət yetirmək yerinə düşər. Hələ Sovetlər dövründə Ulu öndərin Azərbaycan dövlət dilinin Azərbaycan dili olması uğrunda apardığı mübarizənin şahidi oluruq: «1977-78-ci illərdə biz yeni Konstitusiyanı qəbul edərkən bu məsələ, şübhəsiz ki, əsas məsələlərdən biri idi. Biz yeni Konstitusiyada Azərbaycanın dövlət dilinin Azərbaycan dili olması barədə maddə hazırladıq. Ancaq bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirlər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur. Mən indi sizin vaxtınızı alıb bunların hamısını geniş danışmağa ehtiyac duymuram. Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərləri ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, bizim dövlət dili Azərbaycan dili olduğunu öz Konstitusiyamıza yazmalıyıq və yazacağıq» (10, 3-4). Prof. M.M.Məmmədovun tədqiqatlarının nəticələri ilə razılaşaraq, bildirmək istərdik ki, öz nitqinin düzgünlüyü, kamilliyi, estetik, estetik, məntiqi və psixoloji təsir gücü ilə dinləyicilərə, tamaşaçılara nümunə olmuş Ümummilli liderimiz Heydər Əliyev cənabları öz çıxışlarında, məruzələrində, nitqlərində, müxtəlif görüşlər zamanı söhbətlərində, yeri düşdükcə, Azərbaycan dilini, nitq mədəniyyətini inkişaf etdirmək haqqında bir sıra maraqlı, nəzəri və elmi fikirlər, tövsiyələr, mülahizələr də söyləmişdir. Keçmiş Sovetlər İttifaqında çox mürəkkəb və çətin şəraitdə də siyasi rəhbər kimi ustalıqla respublikamızda dil

siyasəti aparmış Ulu öndər, XX əsrin 90-ci illərindən sonra da müstəqil Azərbaycanın başçısı, prezidenti kimi bu məsələni yenə diqqət mərkəzində saxlamışdır. Heydər Əliyev cənablarının nitq mədəniyyəti və onu inkişaf etdirmək haqqında söylədiyi fikirləri belə ümumiləşdirmək və səciyyələndirmək olar: 1) Xalqımızın mənəvi varlığı kimi ana dilini – Azərbaycan dilini sevmək; 2) Ana dilini dərindən və mükəmməl öyrənmək; 3) Ana dilinin tədrisini yüksəltmək və onu səmərəli etmək; 4) Dilin zəngin lüğət tərkibindən və böyük söz ehtiyatından bacarıqla istifadə etmək; 5) Dilin qayğısına qalmaq, onun saflığını qorumaq, onunla fəxr etmək; 6) Dilimizin – nitqimizin gözəlliyini duymaq, öyrənmək, mənimsəmək və bu gözəlliyi hər zaman, hər yerdə təbliğ etmək, bu dildə düzgün danışmaqla hamıya nümunə olmaq (8, 153-154).

Nitq mədəniyyətindən danışarkən, birinci növbədə, bu anlayışın məzmununu aydınlaşdırmaq, başa düşmək lazımdır. Başqa sözlə, «nitq» və «mədəniyyət» sözlərinin məzmununu açmaq gərəkdir. Nitq dil anlayışı ilə sıx bağlıdır. Bunlar bir hadisənin iki cəhətidir. Dil dedikdə, ünsiyyət vasitəsi olan sözün xüsusiyyətləri, yəni onun səs tərkibi, morfoloji quruluşu, bir-biri ilə əlaqə formaları, sözlərdən cümlə düzəltmək qaydaları kimi cəhətlər nəzərdə tutulur. Bu vasitə və qaydalar özlüyündə donuqdurlar, yalnız ünsiyyət prosesində tətbiq olunduqda, onlardan istifadə etdikdə canlanırlar, yeni keyfiyyət qazanırlar. Dil vasitələrinin, qaydalarının ünsiyyət prosesində tətbiqinə isə nitq deyilir. Nitq mədəniyyəti ifadəsində mövcud olan «mədəniyyət» sözü isə çox geniş anlayışdır. O həm maddi, həm də mənəvi sahələrə aid edilə bilər. Məsələn, danışıq mədəniyyəti, hüquq mədəniyyəti, təsərrüfat mədəniyyəti və s. «Mədəniyyət» sözü hamı tərəfindən dəyərləndirilən və qəbul olunan cəhətləri əhatə edir. Məsələn, məişət mədəniyyəti dedikdə, məişətdə hamı tərəfindən bəyənilən və tətbiq edilə bilər məsələlər nəzərdə tutulur, yaxud davranış mədəniyyəti ifadəsi insanlar arasında hamı tərəfindən dəyərləndirilən və qəbul edilən normaları, qaydaları əhatə edir. Bu anlamda, dil vasitələri (yaxud vahidləri) və qaydaları ünsiyyət prosesində hamı tərəfindən dəyərləndirilib bəyənilirsə, qəbul edilirsə, bu, nitq mədəniyyəti hesab oluna bilər (9, 4-5). «Mədəniyyət» termini ilk dəfə 1767-ci ildə Şotlandiya filosofu A.Fergüson işlətmişdir. Bu anlayış geniş anlamda xalq və millətin maddi-mənəvi inkişaf səviyyəsini, həyat və fəaliyyətin xüsusi sahəsini bildirir. Dar anlamda «mədəniyyət» insanların mənəvi həyat sahəsinə aid edilir. Mütəxəssislər mədəniyyətin 259 tərifini qeyd edirlər. Hər bir dövrün və xalqın öz mədəniyyəti vardır və o, cəmiyyətin inkişafı ilə dəyişib, zənginləşir. Xalqımızın milli mədəniyyəti qədim olduğu kimi, onun dil mədəniyyəti də tarixin qədim kökləri ilə bağlıdır. Azərbaycan xalqının milli mədəniyyəti özünün zəngin mədəni irsinə əsaslanır. Bu mədəniyyətin mühüm bir qolu nitq mədəniyyətidir. Nitq mədəniyyəti ümumxalq mədəniyyətin ayrılmaz tərkib hissəsidir. Bu mədəniyyət xalqın mədəni səviyyəsini göstərən faktorlardan biri və önəmlisidir. Mədəniyyət dil vasitəsilə yaranmışdır. Bir xalqın kökü, mədəniyyəti ana dilindən başlanır (5, 5).

Ümumiyyətlə, «nitq mədəniyyəti» özü geniş anlayışdır. Nitq mədəniy-

yəti terminini mədəniyyət sözü ilə qarışdırmaq olmaz. İnsanlar mədəniyyət dedikdə, əsasən, təlim-tədris ocaqlarını, məktəb, klub, kitabxana, kino-teatrları, tamaşa salonlarını, tarix-ölkəşünaslıq muzeylərini, mədəni sözünü isə təhsilli, tərbiyəli anlamında başa düşürlər. Mədəniyyət sözü həyatımıza dərindən sirayət etmiş, insanın həyat və fəaliyyətinin bütün sahələrini əhatə edən çox işlək anlayış olmuşdur (məsələn, hüquq mədəniyyəti, həkim mədəniyyəti, oxu mədəniyyəti və s.). Sadalanan anlayışlar arasında danışıq mədəniyyəti ifadəsi özünəməxsus yer tutur. Danışıq mədəniyyəti bilavasitə insanla bağlı olduğu üçün sadalanan və digər fəaliyyət sahələri ilə bağlı insanların ədəb-ərkan, qanacaq və əxlaq normaları daxil olmaqla danışığı nəzərdə tutulur. İnsan mədəniyyətinin ayrılmaz hissəsi olan nitq mədəniyyəti dil normalarının məcmusu kimi təzahür tapır (6, 6-8).

Nitq mədəniyyəti bir elm sahəsi kimi dilçiliyin bir şöbəsidir. Nitq mədəniyyəti elmi – nitqşünaslıq da hesab edilə bilər. Bu elm sahəsi ədəbi dilin normalar sistemini, danışıq etikasını, yazılı və şifahi nitq formasını və s. məsələləri öyrənir və nitqi inkişaf etdirməyə xidmət edir. Nitq mədəniyyəti qrammatik cəhətdən cümlələri düzgün qurmaq, fikri aydın dəqiq və məntiqi ardıcıllıqla, ədəbi bir dildə, bəzən tələffüz normalarını gözləyərək ifadə etməyi bacarmaq deməkdir. Nitq mədəniyyəti nitqin ədəbi dil normalarına uyğunluğunu, dilin ifadə vasitə və imkanlarından nitqin məqsəd və məzmununa müvafiq şəkildə istifadə etmək bacarığını, dilə yaxın olan vahidlər sisteminin normalaşdırılmasını, təkmilləşdirilməsini, nitqin düzgünlüyü meyarlarının müəyyənləşdirilməsi problemlərini, dil, hadisə və proseslərin inkişaf xəttini, üslubiyyat məsələlərini araşdırır. Nitq mədəniyyəti ümumi anlayışdır. Onu adi və yüksək mədəni nitq kimi, nitqlə dilin münasibəti, nitq ünsiyyətinin növləri – monoloq, dialoq, poliloq və nitq formaları – yazılı və şifahi nitq baxımından öyrənmək olar (4, 5).

Mədəni nitq hamı üçün aydın, sadə və başa düşülən, ahəngdar və gözəl, ardıcıl, səlis və məntiqli olmalıdır. Nitqdə bu amillərə əməl edildikdə, nitq cəlbedici və maraqlı olur. Natiqin ən böyük ustalığı, ləyaqəti onun nitqində yalnız vacib olan məsələləri şərh etmək deyil, həm də vacib olmayan məsələləri açıb ağartmamaqdır. Çünki nitq mədəniyyəti yalnız natiqin fərdi zövqündən, istəyindən asılı olaraq yox, ümumxalq mədəniyyətinin vahid inkişafı ilə tənzim olunur. Mədəni nitq – ədəbi dilin müasir normalarına əsasən söylənilən nitqdir. Ziyalı, alim, jurnalist və s. iqtisadi, siyasi, mədəniyyət, elm və s. sahələrə aid çıxışları mədəni nitqə misal ola bilər (3, 250-252).

Nitq mədəniyyəti bir elm sahəsi kimi mədəni nitqin problemləri (*mədəni nitqin elmdə işlənib müəyyən edilmiş meyarları sisteminə paraqrafın sonunda diqqət yetiriləcəkdir – Ə. Qasımov*) ilə yanaşı natiqlik bacarığının da problemlərini öyrənir.

Nitq mədəniyyəti və natiqlik nəzəri və təcrübi fəaliyyətin nəticəsidir. Nitq materialının hazırlanması nəzəri, onun ifası isə təcrübi əhəmiyyət kəsb edir. Hazırda dünya əhalisi arasında insanların dialoqa girməsinin zəruriliyi

qlobal problemlərdəndir. İnsanların mədəni səviyyəsi inkişaf etdikcə nitq mədəniyyətinə tələbat artır (5, 6).

Şifahi nitq mədəniyyəti hələ qədim dövrlərdən xüsusi bir fəaliyyət sahəsi olan natiqliklə bağlıdır. Natiqlik, əsasən nitqin şifahi formasına adi olub, təsirli, gözəl danışıq qaydalarından bəhs edir. Natiqlik bacarığı hər bir adam üçün faydalıdır, xüsusilə ictimai-siyasi fəaliyyət göstərənlər üçün zəruridir. Natiqlik bacarıqları hər adamın öz istədiklərini başqalarına çatdırmaq, onlara təsir göstərmək, onları öz təsiri altına almaq üçün əhəmiyyətlidir, həm də şəxsin nüfuzunun artması, hörmət qazanması üçün mühüm amillərdən biridir. Bəziləri belə hesab edir ki, hamı nitq mədəniyyətinə, natiqlik peşəsinə yiyələnə bilməz, bunun üçün xüsusi istedad olmalıdır. Bəziləri isə əks fikirdədirlər və onlar hesab edirlər ki, hətta nitqi qüsuru olanlar da nitq mədəniyyətinə, natiqlik peşəsinə yiyələnə bilərlər. Bu şərtlə ki, onların nitq cihazı, danışıq üzvləri normal olsun, ciddi səy göstərsinlər, mənəvi-fiziki cəhətdən zənginləşməyin qayğısına qalsınlar, yaradıcılıq axtarışları aparsınlar, məşqlər etsinlər (2, 8-10).

Hər bir insan elə danışmalı, nitqini elə qurmalıdır ki, dinləyicilər onu nəinki başa düşməli, həm də onun danışığına həvəslə qulaq asmalı, ondan həzz almalıdırlar. O, bu hal vərdişə çevriləndən, danışığının arzu olunduğunu eşidib biləndən sonra nitqinin mənalı və məzmunlu olmasına daha diqqətli olacaqdır. Doğrudur, bu heç də asan başa gəlmir, hamıda yaxşı alınmır, bunun üçün böyüklə böyük, kiçiklə kiçik dilində danışmaq, nə barədə, nə məqsədlə, harada, hansı şəraitdə kiminlə və ya kimlərlə danışdığını bilmək və bunları mütləq nəzərə almaq vacibdir. Nitq mədəniyyətinə yiyələnmək üçün dilin lüğət tərkibinə dərindən bələdlik, onun fonetik, leksik-semantik, frazeoloji və qrammatik normalarına yiyələnmək, dil qanunlarını nitqdə düzgün tətbiq edə bilmək zəruridir. Söz ehtiyatı zəngin olan, sözlərin məna çalarlarını nitqində düzgün əlaqələndirməyi bacaran, geniş erudisiyalı insan öz fikrini çətinlik çəkmədən məntiqi cəhətdən ifadə etmək qabiliyyətində olur (6, 8).

N. Kərimbəyli qeyd edir ki, natiqlik sənəti sənətlərin tacıdır, o, Siserona iqtibasən yazır ki: «Ancaq müdrik adam həqiqi natiq ola bilər. Natiq dialektikin müdrikliyini, filosofun düşüncəsini, dərin fikirlərini, şairin sözləri mənalandırma bacarığını, hüquqçunun möhkəm yaddaşını, tragiklərin səsindəki intonasiyanı özündə yaşatmalıdır. Filosof natiqdən aşağı səviyyədə durur, çünki hər filosof natiq ola bilmir, natiq isə filosofların öyrəndiyi bütün bilikləri əxz etməyi bacarır». N.Kərimbəyli belə bir sual qoyur ki, bəs həmin natiq hansı keyfiyyətlərə malik olmalıdır? Daha sonra, özü bu suala cavab olaraq sadalayır: cəsarətə, iradəyə, güclü ruha, güclü məntiqə, fəlsəfi düşüncə tərzinə, söz ehtiyatına, söz düzəltmə yaradıcılığına, sözü, fikri istədiyi variantda oynatmaq bacarığına, güclü yaddaşa, bütün elm sahələrindən yüksək məlumatlılığa, bilgiyə, ən çətin və dar macallarda iti və qəti düşünmə bacarığına, intuisiyaya, fikrin qısa, dəqiq, aydın və məqamında ifadə etmək qabiliyyətinə, nitqin doğuracağı təsirləri əvvəlcədən hiss etmək uzaqgörənliyinə və daha sonra qeyd edir ki, bütün bunlar Ümummilli liderimiz Heydər Əliyev cənablarının nitqində ehtiva edilirdi (7, 8).

Ədəbiyyatda, haqlı olaraq, qeyd edilir ki, nitq mədəniyyətinin əsas vəzifəsi hər hansı bir hadisənin gedişinə təsir göstərməkdir. Siyasət, iqtisadiyyat, elm, mədəniyyət məsələlərinin inkişafında nitq mədəniyyətinin mühüm əhəmiyyəti vardır. Nitq mədəniyyətinin insan həyatında ən böyük əhəmiyyəti intellektual nitq formalaşdırmaqdır. Nitq insana qiymət vermək üçün ən böyük meyardır. Nitq mədəniyyətinin bir elm sahəsi kimi konkret predmetini müəyyən etmək onun üçün çətindir ki, o, praktik fəaliyyət tələb edən bir sahə olaraq ümumiliyi ilə digər elmlərdən fərqlənir. Nitq mədəniyyəti dildən ünsiyyət vasitəsi kimi istifadə qayda-qanunlarını öyrənir. Nitq mədəniyyətinin ən mühüm şərti ədəbi dil normalarına əməl etməkdir. Bu mədəniyyət nitq fəaliyyəti nəticəsində meydana çıxır. Nitq fəaliyyəti dedikdə, nitqin təzahürü üçün lazım olan ictimai psixoloji və fizioloji aktların sistemi başa düşülür (5, 6, 8).

Nitq mədəniyyətinin bir elm sahəsi kimi konkret predmetini müəyyən etmək çətin olsa da, bu elmin nəyi, daha doğrusu nələri araşdırdığını sadalamaq mümkündür. Belə ki, nitq mədəniyyəti bir elm sahəsi kimi nitqin ədəbi dil normalarına uyğunluğunu, dilin ifadə vasitə və imkanlarından nitqin məqsəd və məzmununa müvafiq şəkildə istifadə etmək bacarığını, dilə daxil olan vahidlər sisteminin normalaşdırılmasını, təkmilləşdirilməsini, nitqin düzgünlüyü meyarlarının müəyyənləşməsi problemlərini, dil, hadisə və proseslərin inkişaf xəttini, üslubiyyat məsələlərini araşdırır (4, 6).

Nitq mədəniyyətinin bir elm sahəsi kimi məhkəmə nitq mədəniyyəti üçün əhəmiyyəti ümuminin xüsusi üçün əhəmiyyəti kimi izah edilə bilər. Məhkəmə nitq mədəniyyəti ümumi nitq mədəniyyəti elminin bir sahəsi, bir istiqaməti kimi nəzərdən keçirilə bilər. Bununla belə, nitq mədəniyyəti elminin əsas müddəaları (nitqin növləri, formaları, qaydaları, natiqlik bacarığının göstəriciləri və s.), xüsusilə də mədəni nitqin cavab verməli olduğu meyarlar sistemi məhkəmə nitqlərinə də birbaşa şamil edilir. Bəli, məhkəmə nitqləri də ictimai-siyasi nitqlərin bir növünü təşkil edir və onlar qanunla müəyyən edilmiş prosedur qaydaları ilə yanaşı məhz nitq mədəniyyəti elmi tərəfindən müəyyən edilmiş qaydalara da cavab verməlidir. Məhz, nitq mədəniyyəti elmi tərəfindən müəyyən edilmiş meyarlara cavab verən məhkəmə nitqləri mədəni nitq hesab edilə bilər.

Aristotelə görə, natiqin etosu (üstün cəhəti) danışdığı mövzu haqda yaxşı biliyə və yaxşı xarakterə malik olmasından ibarətdir. Aristotel və Siseron hesab edirdilər ki, natiq öz üstün cəhətinə yalnız nitqində müraciət edə bilər və nitqinin birinci hissəsinin inam yaratmağa həsr etməlidir. Klassik natiq Sokrat hesab edirdi ki, auditoriyada öz üstünlük və inamının inkişaf etdirilməsi hətta natiqin danışığından öncə başlanılır. Dinləyicilər, təbii olaraq, natiq və yazıçılara şübhə ilə yanaşırlar. Dinləyicilər natiqin danışdıqlarının doğruluğunu mühakimə etmək üçün onun keçmişinə (bunadək necə bir adam olaraq tanınmasına) istinad edirlər (11).

Əvvəldə qeyd etmişdik ki, mədəni nitqi digər nitqlərdən fərqləndirən meyarların sisteminə nəzər salacağıq. Hesab edirik ki, işin bu hissəsində həmin

meyarların sisteminə və mahiyyətinə nəzər salmağın vaxtı çatmışdır. Xatırlatmaq istərdik ki, aşağıdakı sadalanan meyarlar sistemi bizim tədqiqat işi üçün birbaşa əhəmiyyət kəsb edir, çünki mədəni nitqin bir forması kimi məhkəmə nitqləri də aşağıdakı meyarlara cavab verməlidir. Nitq mədəniyyətinə dair elmi ədəbiyyatda mədəni nitqin aşağıdakı meyarlara cavab verməli olması bildirilir (1, 34-62):

1) Mədəni nitq aydın olmalıdır.
2) Mədəni nitq yığcam olmalıdır.
3) Mədəni nitq təmiz olmalıdır.
4) Mədəni nitq düzgün olmalıdır.
5) Mədəni nitq zənginliyi ilə seçilməlidir.
6) Mədəni nitq sadə olmalıdır.
7) Mədəni nitq orijinallıq tələbinə cavab verməlidir.
8) Mədəni nitq münasib olmalıdır.
9) Mədəni nitq rabitəli olmalıdır.

Müasir dövrün ən istedadlı natiqlərindən bəhs edərkən, Ümummilli liderimiz, Ulu öndər Heydər Əliyev cənablarının natiqlik fəaliyyətini qeyd etməmək mümkün deyil. AMEA-nın Dilçilik İnstitutunun sabiq direktoru AMEA-nın müxbir üzvü A.Axundov xatirələrini danışarkən qeyd edir: «bir dəfə Ulu öndərimiz məni və İnstitutun bir neçə əməkdaşını yanına çağırmışdı. O, söhbətə başlamazdan əvvəl üzünü mənə tərəf tutaraq soruşdu: «Nə işlə məşğul olursunuz?» Mən Azərbaycan dilinin ayrı-ayrı sahələri üzrə tədqiqatların aparılması, kitabların yazılması, müxtəlif məzmunda lüğətlərin tərtib olunması və s. məsələlər barədə məlumat verdim. Cavabımdan razı qaldı və dedi: «Bunlar öz yerində, bəs nitq mədəniyyəti ilə bağlı nələr etmişsiniz? Siz bu sahəyə daha çox fikir verməlisiniz ki, xalq öz dilində sərbəst danışa bilsin»». H.Əliyev Azərbaycan dilini çox sevirdi və bu dildə danışmağı ilə fəxr edirdi. Ulu öndərin nitqi həqiqi mənada yaradıcı fəaliyyət idi. O, bir natiq kimi zəngin söz ehtiyatına malik idi. Danışarkən duruxmaz, söz axtarmaq üçün fikirləşməzdi. H.Əliyev yüksək nitq mədəniyyətinə sahib idi. O öz səfərbəredici nitqi, danışıq tempi, manerası, jestləri, mimikası və s. ilə auditoriyanı ələ alar, öz ideyalarını dinləyicilərə aşılayardı. Hələ 1987-ci ildə Azərbaycan yazıçılarının VII Qurultayında H.Əliyev nitq söyləyərkən xalqın sərvəti olan dilin təkmilləşdirilməsi və zənginləşdirilməsində, onun lüzumsuz dialekt sözlərindən, jarqon ünsürlərindən təmizlənməsində nitq mədəniyyətinin əhəmiyyətini xüsusilə qeyd edərək demişdir ki: «Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərilməlidir» (1, 25-28).

Sevinclə bildirmək lazımdır ki, Ümummilli liderin nitq mədəniyyətinə və ana dilinə qarşı qeyd edilən münasibəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən qorunub, inkişaf etdirilir. Həqiqətən də, nitq mədəniyyəti təkcə nəzəri fənn, bir elm sahəsi deyildir, bu bir dil siyasətidir, dilin və dil normalarının təbliğ edilməsidir. Prezident İlham Əliyev cənablarının «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə

dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında» 23 may 2012-ci il tarixli Sərəncamında dövlətçiliyimizin başlıca rəmzlərindən olan ana dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılması, ölkəmizdə dilçilik elmi sahəsində vəziyyətin əsaslı surətdə yaxşılaşdırılmasını təmin etmək baxımından son dərəcə mühüm bir sənəddir. Sərəncam nitq mədəniyyəti məsələlərinə də diqqətin artırılması, bu sahədə aparılacaq işin məzmunca genişlənməsi, keyfiyyətcə yaxşılaşması üçün yetərincə əhəmiyyətli və faydalıdır (1, 30-31).

### ƏDƏBİYYAT


1. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013, 288 s.
2. Cəfərquliyev M.Ə. Azərbaycan Respublikasının cinayət prosesi. Dərslik. Bakı: Qanun, 2008, 768 s.
3. Cinayət qanunları külliyatı / B.C.Kərimov, F.Y.Xəlilov, S.O.Əliyev. Bakı: Hüquq yayın evi, 2014, 1184 s.
4. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı: Hüquq ədəbiyyatı, 2013, 506 s.
5. Hacıyeva İ.H. Nitq mədəniyyəti. Dərs vəsaiti. Bakı: Bakı Universitetinin nəşriyyatı, 2011, 245 s.
6. Həsənova S.Q. Nitq mədəniyyəti və üslubiyyat. Dərslik. Bakı: ADPU nəşriyyatı, 2005, 194 s.
7. İsmayılov İ.İ. Məhkəmə etikasının bəzi məsələləri. Dərs vəsaiti. Bakı: ADPU, 2007, 265 s.
8. Qasımov Ə. Məhkəmə nitq mədəniyyətinin əsas istiqamətləri, Bakı, 2010.
9. Məmmədov M.M. Ana dili və nitq mədəniyyəti məsələləri // Dirçəliş – XXI əsr, 2001, № 45, s. 150-160.
10. Ritorika. Tarix, nəzəriyyə, praktika. Ali məktəblər üçün dərs vəsaiti / tərtibçi Q.Y.Abbasova. Bakı: Turan evi, 2008, 460 s.
11. Туркова В.В. Тактика поддержания государственного обвинения (лжесвидетельство и изменение обвиняемым показаний в суде) /Актуальные проблемы совершенствования законодательства, правоприменения и правовых теорий в России и за рубежом. Материалы Международной научно-практической конференции. Челябинск, 3 декабря 2009 г., с. 346-350.


## ПОНЯТИЕ И ЗНАЧЕНИЕ СУДЕБНОЙ РЕЧЕВОЙ КУЛЬТУРЫ КАК ОБЛАСТИ НАУКИ


**А.А.ГАСЫМОВ, К.Е.ГУСЕЙНОВА**


### РЕЗЮМЕ


В статье исследуются понятие и значение речевой культуры как области науки.

Говоря о культуре речи, прежде всего, необходимо уточнить и понять содержание этого понятия. Другими словами, необходимо прояснить значение слов «речь» и «культура». Речь тесно связана с понятием языка. Это два аспекта события. Под языком мы имеем в виду особенности слова, являющегося средством общения, такие как его звуковой состав, морфологическая структура, формы общения друг с другом, правила построения предложений из слов.



**Ключевые слова**: речь, язык, оратор, монолог, диалог, полилог.

## THE CONCEPT AND SIGNIFICANCE OF SPEECH CULTURE COURT AS A FIELD OF SCIENCE

**A.A.GASIMOV, K.E.HUSEYNOVA**

**SUMMARY**

The article examines the concept and significance of speech culture as a field of science.

Speaking about the culture of speech, first of all, it is necessary to clarify and understand the content of this concept. In other words, it is necessary to clarify the meaning of the words "speech" and "culture". Speech is closely related to the concept of language. These are two aspects of the event. By language, we mean the features of a word that is a means of communication, such as its sound composition, morphological structure, forms of communication with each other, rules for constructing sentences from words.

**Keywords**: speech, language, speaker, monologue, dialogue, polylogue

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Sosial-siyasi elmlər seriyası 2021*

UOT 343.98

# HÜQUQ TƏCRÜBƏSİNDƏ XÜSUSİ MÜHASİBAT BİLİKLƏRİNİN TƏTBİQİNİN FORMASI KİMİ TƏFTİŞİN VƏ MƏHKƏMƏ-MÜHASİBAT EKSPERTİZASININ NİSBƏTİ

**Q.S.HÜSEYNOV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə təftişin və məhkəmə-mühasibat ekspertizasının aparılması zamanı təftişçinin və ekspert-mühasibin fəaliyyətlərinin fərqi tədqiq edilmişdir. Eyni zamanda təftiş və ekspertizanın aparılması zamanı müstəntiq (hakim), təftişçi, ekspert-mühasib və müəssisənin məsul şəxsləri arasında yaranan hüquq münasibətləri dəqiqləşdirilmişdir.*

**Açar sözlər:** təftiş, məhkəmə-muhasibat ekspertizası, xüsusi muhasibat bilikləri

Hüquq təcrübəsində xüsusi mühasibat biliklərinin tətbiqinin iki nisbi forması həm oxşar, həm də fərqli cəhətləri malik olub, məntiqi surətdə kəsişir.

Sənədli təftişin və məhkəmə-mühasibat ekspertizasının ümumi cəhəti aşağıdakılarda təzahür edir:

-sənədli təftiş və məhkəmə-mühasibat ekspertizası mühasibat uçotu sahəsində mütəxəssislər tərəfindən aparılır;

-mühasib-ekspert, bir qayda olaraq, mühasib-müfəttişin öyrəndiyi sənədləri araşdırır;

-mühasib-ekspert və müfəttiş sənədlərin tədqiqinin eyni metodikasını tətbiq edir;

-ekspertin və müfəttişin işinin həcmini sualların siyahısını tərtib edən hüquqtətbiqçisi (müstəntiq, hakim) müəyyən edir.

Müstəntiqin tələbi ilə həyata keçirilən mühasibat ekspertizası və sənədli təftiş arasında fərqlər (cədvəl 1) aşağıdakılardan ibarətdir:

-ekspertiza müstəntiqin qərarı ilə təyin olunur, təftiş isə müstəntiqin tələbi üzrə müvafiq təşkilatın rəhbərinin əmri, yaxud sərəncamı ilə təyin olunur;

-ekspert məhkəmə-mühasibat ekspertizasının icraatı zamanı yalnız müstəntiq tərəfindən ona təqdim olunmuş sənəd və materialları tədqiq edir; müfəttiş isə bir qayda olaraq, hansı sənədləri tədqiq etməli olduğunu özü müəyyən edir, özü həmin sənədləri tələb edir və götürür, inventarlaşdırma aparmaq və müvafiq şəxslərdən izahat almaq hüququna malikdir;

-ekspert AR CM-nin 297-ci maddəsinə görə bilərəkdən yalan rəy verilməsinə görə cinayət məsuliyyəti haqqında xəbərdar edilir, halbuki müfəttiş məsuliyyət haqqında xəbərdar edilmir və təftişin nəticələri prosessual təminatlarla təmin edilmir;

-müstəntiqin ekspertin rəyi ilə razılaşmaması əsaslandırılmalıdır; onun təftiş aktı ilə razılaşmaması əsaslandırma tələb etmir;

-mühasib-ekspert nəticədə müəyyən edilmiş səhvlərə və çatışmazlıqlara görə kimin məsuliyyət daşımalı olduğunu göstərə bilməz; onun təşkilata vurulmuş zərəri müəyyən etmək hüququ yoxdur, çünki «zərər» hüquqi anlayışdır və müstəntiq (hakim) tərəfindən qiymətləndirilir. Müfəttiş məsuliyyət və zərər məsələlərini həll etmək hüququna malikdir;

-ekspert onların dürüstlüyünü qiymətləndirmədən mühasibat uçotunun məlumatlarını şahidlərin, təqsirləndirilən şəxslərin ifadələri ilə müqayisə edə bilər, müfəttişin isə belə səlahiyyəti yoxdur;

-ekspertin ictimaiyyət nümayəndələrini ekspertizanın keçirilməsinə cəlb etmək hüququ yoxdur, müfəttiş isə belə köməkdən istifadə edə bilər;

-ekspert rəyini yalnız ekspert imzalayır, təftiş aktı isə müfəttiş, təftiş olunan təşkilatın rəhbəri və baş mühasibi tərəfindən imzalanır;

-ekspertin geri çağırılması prosessual qanunvericilikdə nəzərdə tutulmuşdur, müfəttişin geri çağırılması isə normativ təsbitini tapmamışdır;

-rəy vermiş mühasib-mütəxəssis zərurət yarandıqda ekspert qismində dindirilə bilər; müfəttiş iş üzrə şahid qismində dindirilir.

Cədvəl 1

**Müstəntiqin tələbi ilə keçirilən sənədli təftiş və məhkəmə-mühasibat ekspertizası arasında fərq**

| **Fərqləndirici əlamətlər** | **Sənədli təftiş** | **Məhkəmə-mühasibat ekspertizası** |
|---|---|---|
| 1 | 2 | 3 |
| Prosessual fərq<br><br>Təyin olunmanın əsası<br><br>İşin həcmi | Müstəntiqin tələbi ilə təftiş sübutların toplanılması üsuludur və qərarla təyin olunur (AR CPM-nin 7-ci maddəsi)<br><br>İşdə yalnız müfəttişin xüsusi biliklərinin köməyi ilə aşkar edilməsi mümkün olan hallar haqqında | Məhkəmə-mühasibat ekspertizasının təyin olunması müstəqil prosessual hərəkətdir<br><br>Düzgün qiymətləndirilməsi üçün müstəntiqə (hakimə) mühasib-ekspertin rəyi zəruri olan iş halları mövcud olduqda təyin |

| | | |
|---|---|---|
| | məlumatlar mövcud olduqda müstəntiq tərəfindən təyin edilir | edilir |
| | Müstəntiqin, hakimin tapşırığından asılıdır, lakin müəssisə rəhbəri tərəfindən sualların dairəsi genişləndirilə bilər | Bütün hallarda müstəntiqin, hakimin sualları ilə məhdudlaşdırılır |
| Keçirən subyekt | Mühasib-müfəttişin qeyri-prosessual fiquru | Prosessual statusa malik mühasib-ekspert |
| Tədqiqat obyekti | Mühasibat sənədləri, registrlər, inventarlaşdırma materialları, mühasib-müfəttiş digər sənədlərə, qeydlərə də müraciət edə bilər | Yalnız işin materialları (mühasib-ekspertin bu və digər təşkilatda olan sənədlərə müstəqil surətdə müraciət etmək hüququ yoxdur) |
| Tədqiqat metodu | Həm sənədli, həm də faktiki yoxlama metodları | Faktiki yoxlama metodlarını tətbiq etmək olmaz |
| Nəticələrin rəsmiləşdirilməsi və onların hüquqi qüvvəsi | Sənəd qismində çıxış edən akt | Müstəqil sübut kimi mühasib-ekspertin rəyi |

BMT-nin məlumatına görə, inkişaf etmiş ölkələrdə cinayətkarlığın strukturunda iqtisadi və digər əmlak cinayətlərinin xüsusi çəkisi 82 % təşkil edir. Belə cinayətləri törətməyə meyilli olan şəxslər öz tamahkar məqsədlərinə nail olmaq üçün təsərrüfat əməliyyatlarının yerinə yetirilmə metodlarını dərhal mənimsəyir, qanunvericilikdəki boşluqlardan və ziddiyətlərdən, mühasibat uçotu və təftişin təşkilində və aparılmasındakı çatışmazlıqlardan istifadə edirlər.

Bu catışmazlıqların yaranmasının əsas səbəblərinin biri də xüsusi iqtisadi

biliklərin prosessual forması kimi təftişin mahiyyəti, onun aparılmasının prosessual, taktiki və təşkili aspektləri işlənib hazırlanmamışdır.

İqtisadi cinayətlərin istintaqı gedişində təftişin təyin olunmasını tələb etmək hüququ CPM-nin 85 və 86-cı maddələrində nəzərdə tutulur. Lakin cinayət-prosessual qanunvericilik təftişin təyin olunma və aparılma əsaslarını müəyyən etmir. Bu cür vəziyyət hüquqtətbiqetmə fəaliyyətində CPM-nin göstərilən maddələrinin tələblərini realizə etməyə maneə törədir. Müfəttişin prosessual hüquqi vəziyyəti nəzərdə tutulmadığından, təftişin aparılmasının keyfiyyətindən danışmaq mümkün deyildir. Müfəttiş prosessual hərəkətləri müstəqil olaraq həyata keçirmək hüququna, təqsirləndirilən şəxs isə ona etiraz etmək, onun qarşısına əlavə suallar qoymaq, müfəttiş tərəfindən əlavə hərəkətlərin yerinə yetirilməsini tələb etmək imkanına malik deyildir. Buna görə də təəccüblü deyildir ki, istintaq orqanları iqtisadi cinayətlərin istintaqı zamanı təkrar təftişə və iqtisadi ekspertizalara üz tuturlar.

Vəziyyətin bu cür qərarlaşması, fikrimizcə, təftişin aparılma qaydasının prosessual tənziminin və təftişin aparılması ilə bağlı cinayət prosesi iştirakçılarının prosessual hüquq və təminatların verilməsini tələb edir.

**ƏDƏBİYYAT**


1. Дубоносов Е.С. Судебная бухгалтерия: учебник - 3-е изд., перераб. и доп. М.: Юрайт, И.Д. Юрайт, 2010, 386 с.
2. Дмитриенко Т.М., Чаадаев С.Г. Судебная (правовая) бухгалтерия. Учебник. М.: Проспект, 1999, 336 с.
3. Коверкова Ж.А., Савин А.А. Судебно-бухгалтерская экспертиза: Учебное пособие. М.: Вузовский учебник, 2007, 129 с.
4. Пошюнас П.З. Судебная ревизия и судебно-экономические экспертизы: монография. Вильнюс: Минтис, 1990, 232 с.
5. Российская Е.Р., Эриашвили Н.Д. и др. Судебно-бухгалтерская экспертиза: учеб. пособие для студентов вузов - 2-е изд., перераб. и доп. М.: ЮНИТИ-ДАНА: Закон и право, 2009, 383 с.


## РАЗЛИЧИЯ МЕЖДУ ОБЯЗАННОСТЯМИ РЕВИЗОРА И ЭКСПЕРТА БУХГЛАТЕРА ПРИ ПРИМЕНЕНИИ СПЕЦИАЛЬНЫХ БУХГАЛТЕРСКИХ ЗНАНИЙ ПРИ ЮРИДИЧЕСКОЙ ПРАКТИКЕ


**Г.С.ГУСЕЙНОВ**


**РЕЗЮМЕ**


В работе исследованы отличия в деятельности ревизора и эксперта-бухгалтера при назначении и проведении ревизии и судебно-бухгалтерской экспертизы. А также уточнены правовые отношения, возникающие при проведении ревизии и экспертизы между следователем (судом), ревизором, экспертом-бухгалтером и отвественными лицами предприятий.



**Ключевые слова:** ревизия, судебно-бухгалтерская экспертиза, специальные бухгалтерские знания

## DIFFERENCES BETWEEN THE DUTIES OF AN AUDITOR AND AN EXPERT BUCHGLATER WHEN APPLYING SPECIAL ACCOUNTING KNOWLEDGE IN LEGAL PRACTICE

**G.S.HUSEYNOV**

**SUMMARY**

In the work were investigated the differences in the activities of the auditor and the expert accountant in the appointment and conduct of audits and forensic accounting expertise. And also clarified the legal relations that arise during the audit and examination between the investigator( court), the auditor, the expert accountant and the responsible persons of enterprises.

**Keywords:** inspection, forensic accounting expertise, special accounting knowledge

## İQTİSADİYYAT

UOT 339.9; 339.9:061(100)

# İQTİSADİ TƏHLÜKƏSİZLİK SİSTEMİNDƏ SOSİAL TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI ZƏRURİLİYİ

**H.H.ASLANOV**
***Bakı Dövlət Universiteti***
***dosent1966@mail.ru***

*Mövcud iqtisadi sistemindən, həmçinin iqtisadiyyatının inkişaf səviyyəsindən asılı olmayaraq, iqtisadi təhlükəsizlik hər bir ölkədə daim diqqət mərkəzində olan ən aktual məsələlərdən biridir. Təsadüfi deyil ki, bir sıra Qərbi Avropa ölkələrində İqtisadi İnkişaf Nazirliyinin tabeçiliyində olmaqla bu problemlə bir sıra dövlət orqanları məşğul olur. O cümlədən, bu ölkələrdə iqtisadi təhlükəsizlik institutları da fəaliyyət göstərir. İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın müstəqilliyini, sabitliyini və dayanıqlığını təmin edən, ona dair yenilənməyə və təkmilləşdirməyə imkan verən şərt və amillər məcmusudur. Məhz Sosial sahə də nəinki iqtisadi, həm də milli təhlükəsizliyin təmin olunmasında aparıcı rola malikdir. Məqalədə bu və digər məsələlər nəzəri cəhətdən öyrənilmşdir.*

**Açar sözlər:** Milli iqtisadiyyat , iqtisadi təhlükəsizlik, iqtisadi inkişaf, milli iqtisadi maraqlar, iqtisadi sabitlik, makroiqtisadi tarazlıq.

İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın müstəqilliyini, sabitliyini və dayanıqlığını təmin edən, ona daim yenilənməyə və özünü təkmilləşdirməyə imkan verən şərt və amillər məcmusudur.

İqtisadi təhlükəsizliyin mahiyyətini daha yaxşı başa düşmək üçün onun inkişaf və dayanıqlıq anlayışları ilə əlaqələrini aydın etmək lazımdır. İnkişaf iqtisadi təhlükəsizliyin komponentlərindən biridir. İqtisadiyyat inkişaf etmirsə, onun xarici və daxili təhlükələrə qarşı müqaviməti kəskin aşağı düşür. Dayanıqlıq və təhlükəsizlik iqtisadiyyatın bir vahid sistem kimi vacib xüsusiyyətlərindəndir. Onları qarşı-qarşıya qoymaq olmaz. İqtisadiyyatın dayanıqlığı onun elementlərinin sistem daxilində möhkəmliyi və etibarlılığını daxili və xarici “yüklərə” dözmək qabiliyyətini göstərir.

Müasir dövrdə aktuallığı daha da artan məsələlərdən biri iqtisadi təhlükəsizlik anlayışıdır. İstər siyasi, istərsə də iqtisadi rəqabətin güclənməkdə davam etdiyi hazırki cəmiyyətdə iqtisadi təhlükəsizliyin əhəmiyyəti yüksəlməkdədir. Bəs nədir iqtisadi təhlükəsizlik? İqtisadi təhlükəsizlik anlayışı iqtisadi

nəzəriyyə və politologiya ilə əlaqədə olan bir kateqoriyadır. Bu anlayış özündə iqtisadi asılılıq, sabitlik, iqtisadi təzyiq, iqtisadi təxribat, iqtisadi suverenlik və başqa kateqoriyaları cəmləşdirib.

İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın səmərəli dinamik yüksəlişi, onun cəmiyyətin, dövlətin, fərdin tələbatlarını ödəyə bilməsi üçün əlverişli olan daxili və xarici şəraitlərin məcmusudur. İqtisadi maraqlar üçün birbaşa təhlükəni ictimai təkrar istehsalın normal gedişini pozan iqtisadi təhdidlər yaradır. Ən ümumi şəkildə onlar daxili və xarici təsirlərə bölünə bilərlər.

Müasir dövrün obyektiv inkişaf prosesi olan qloballaşma şəraitində milli iqtisadiyyatların formalaşması qanunauyğunluqları, cəhətləri və problemləri tədqiq olunarkən hər bir ölkənin milli xüsusiyyətləri, ayrı-ayrı iqtisadi sahələrin inkişaf meylləri, onların dünya iqtisadiyyatına daxil olma imkanları və s. nəzərdə tutulur. Bu baxımdan onların inkişaf səviyyəsi mövcud iqtisadi sistemin səmərəliliyini və necə fəaliyyət göstərməsini əks etdirir. Tarixi təcrübə göstərir ki, iqtisadi sistemlərin dəyişməsi nəticəsində meydana gələn milli iqtisadiyyatlar sonda cəmiyyət ilə iqtisadiyyatın qarşılıqlı əlaqəsi və ınkişafı nəticəsində təşəkkül tapır və onların tarixi şəraitinə, dövlətçilik ənənələrinə, iqtisadi inkişaf səviyyələrinə, iqtisadiyyatın strukturuna, ictimai əmək bölgüsünün inkişafı dərəcəsinə görə bir-birindən fərqlənir.

Milli iqtisadiyyatın formalaşması və inkişafı, ümumiyyətlə milli iqtisadiyyat nəzəriyyəsi XIX əsrin əvvəllərində alman iqtisadçısı və dövlət xadimi F.Listin əsas tədqiqat mövzusu olmuşdur. O, "Siyasi iqtisadın milli sistemi" (1984) əsərində daha çox milli mənafelərin, o cümlədən də alman xalqının milli mənafelərinin təmin olunmasının əsas şərti kimi milli iqtisadiyyatın yaranması və inkişafını mühüm hesab etmişdir [6, 125].

Müasir şəraitdə müstəqil dövlətlərin sayının artması və yeni milli iqtisadi inkişaf modellərinın formalaşması, qloballaşma prosesindən irəli gələn iqtisadi problemlərin həllinin zəruriliyi, dünya, regional inteqrasiya səviyyəsində öz yerini saxlaması milli iqtisadiyyatın nəzəri əsaslarına və prinsiplərinə olan marağı artırmışdır.

Milli iqtisadiyyat özünün daxili inkişaf qanunauyğunluqlarına malik institutsional quruluşu, milli dəyərləri, əhalinin iqtisadi təfəkkürü, tarixi varisliyi özündə əks etdirən daha mürəkkəb bir sosial-iqtisadi təsərrüfat orqanıdır [6, 80]. Göründüyü kimi milli iqtisadiyyat müxtəlif təbiətli xassələri ifadə edir və onun normal fəaliyyəti iqtisadi, siyasi və təşkilati kimi şərtlərin olmasını tələb edir.

Məlum olduğu kimi, hər bir ölkənin əhalisi müxtəlif millətlərdən və xalqlardan ibarət olduğuna görə milli iqtisadiyyat bütün ölkə əhalisinin iqtisadi fəaliyyətinin nəticəsi kimi özünü büruzə verir. Ona görə də o ümummilli, ümumxalq, ümumdövlət səviyyəsində mənafelərin reallaşmasına şərait yaradır və bu amillərin inkişafına xidmət edir." Professor A.V.Qradova görə, milli iqtisadiyyat institusional sistemdə tənzimlənən, bu ölkədə təşəkkül tapmış iqtisadi, siyasi və ideoloji qaydalara cavab verən, sahə və regional mühitlərdə

strukturlaşdırılmış ölkə miqyaslı iqtisadi fəaliyyətdir. Milli iqtisadiyyat sosial istiqamətli olmaqla ölkənin əmək qabiliyyətli əhalisini işlə təmin etmək, mövcud resurs potensialından səmərəli istifadə etməklə cəmiyyətin tələbatlarını ödəmək vəzifələrini yerinə yetirməlidir [5, 48]. Milli iqtisadiyyatın inkişaf səviyyəsi əhalinin həyat keyfiyyətinin yüksək səviyyəsini, ölkənin milli təhlükəsizliyini təmin etmək məqsədilə milli sərvətdən istifadə dərəcəsi ilə qiymətləndirilir [6, 127].

Müasir tələblər baxımından milli iqtisadiyyat həm də qloballaşdırma proseslərinə müvəffəqiyyətlə qoşula bilən, dünya iqtisadiyyatında öz mövqeyini müəyyən edə bilən və qoruyan iqtisadiyyatdır. Qloballaşdırma prosesi ilə yanaşı paralel olaraq inkişaf səviyyələri təqribən eyni olan ölkələrin ticarət-iqtisadi birliklərinin yaradılması prosesi də baş verir ki, bu da dünya iqtisadiyyatında regionlaşmanın gücləndiyini göstərir. Bu baxımdan Azərbaycanın milli iqtisadiyyatı dünya iqtisadi sisteminin bir hissəsinə çevrilməklə ümumbəşəri iqtisadi qanunauyğunluqlar əsasında fəaliyyət göstərərək dünya iqtisadiyyatına inteqrasiya olunmuş və təsərrüfat əlaqələrinin genişlənməsi prosesinin nəticəsi olan qlobal və regional miqyaslı proseslərə qoşulmuşdur.

Qloballaşma şəraitində formalaşan milli iqtisadiyyatlar açıq iqtisadiyyatlar olduğundan onların səmərəli fəaliyyəti əhəmiyyətli dərəcədə beynəlxalq rəqabət qabiliyyətliliyi və ölkədə həyata keçirilən xarici iqtisadi siyasətin keyfiyyətindən asılıdır. Ölkədə 1995-ci ildən başlayaraq bazar münasibətlərinə əsaslanan və özünün inkişaf qabiliyyətinə malik olan sosial yönümlü müstəqil milli iqtisadiyyatın formalaşması və onun dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyası konkret şəraitdə ölkənin mənafelərinin təmin olunması, xarici iqtisadi siyasətin azad ticarət və himayədarlığın metodlarının əlaqələndirilməsi istiqamətində həyata keçirilir [3, 64]. Bu zaman xarici iqtisadi əlaqələrin fəaliyyətin liberallaşdırılması milli təhlükəsizlik konsepsıyası ilə elə uzlaşdırılır ki, ölkənin xarici iqtisadi asılılığı təhlükəli xarakter almasın.

Onu da qeyd edim ki, müasir dünyada qloballaşma eyni zamanda insanların həyat səviyyəsinə, şəraitinə təsir göstərərək müxtəlif xarakterli dəyişikliklər yaradır. Sosial sahədə insanın inkişafı və həyat keyfiyyətini yüksəltmək üçün imkanları genişləndirir, ayrı-ayrı təhlükə və təhdidlərin qarşısını almağa və ya onların təsirlərini zəiflətməyə kömək edir. Digər tərəfdən isə, qeyri-bərabərliyi dərinləşdirərək insanların təhlükəsizliyi üçün təhdidlər yaradır [7, 87].

Təhlükəsizlik anlayışı ilk dəfə XII əsrdə Avropada işlənmişdir və insan mənəviyyatının hər cür təhlükədən qorumaq mənasını vermişdir. Sonralar bazar iqtisadiyyatı sisteminin formalaşması ilə əlaqədar ölkə daxilində sabitliyi təmin etmək, insanları fiziki və mənəvi təhlükələrdən qorumaq, siyasi və iqtisadi sahələrin təhlükəsziliyini təmin etmək üçün dövlətin təhlükəsziliyi ön plana keçmişdir.

Təhlükəsizlik cəmiyyət üzvlərinin sosial iqtisadi tələbatlarının ödənilməsi ilə bu tələbatların ödənilməsi üçün lazım olan iqtisadi ehtiyatların bir-birilə uzlaşmasıdır. Ancaq, belə uzlaşma ilə cəmiyyətin iqtisadi tələbatının, onun

iqtisadi müstəqilliyinin, stabil və davamlı inkişafının xarici və daxili təhlükə və maneələrdən müdafiəsinin təmin olunması şəraitində mümkün olur. Onu da qeyd edək ki, milli təhlükəsizliyin iqtisadi və qeyri-iqtisadi aspektləri bir-birilə əlaqəlidir. İqtisadi təhlükə milli mənafelərin qorunması yox, həm də milli mənafelərin təmini və müdafiəsi, cəmiyyətdə sosial stabilliyin qorunmasıdır.

Milli təhlükəsizlik ölkənin milli mənafeyi ilə sıx sürətdə əlaqədardır. Milli təhlükəsizlik həm ölkə, həm də onun ərazisindən kənarda qorunmalıdır. Bunun təmin edilməsi üçün xüsusi metodlar tətbiq edilir, dövlətin və onun müvafiq orqanları bu vəzifəni həyata keçirirlər. Milli təhlükəsizlik siyasi anlayışını ilk dəfə 1904-cü ildə ABŞ prezidentinin diplomatik nümayəndəsi ABŞ konqresində işlətmişdir. O, burada ABŞ-ın Panama kanalını ələ keçirmək üçün onun hərbi təcavüzünə haqq qazandırmağa çalışmış və sübut etmək istəmişdir ki, bu hadisə ABŞ-ın milli mənafeyinə uyğundur və gələcəkdə ölkənin milli təhlükəsizliyini təmin etmək üçün bu aksiya həyata keçirilməlidir. Bu illərdən sonra amerikan müəllifləri milli mənafeyi milli təhlükəsizliyin təmin olunmasının mənbəyi hesab etmişlər. Bu isə həm elmi, həm də əməli cəhətdən həqiqətə uyğundur. Çünki milli mənafe bütün iqtisadi mənafelərin mərkəzində durur, milli mənafe ödənilmədən nə milli iqtisadiyyatı formalaşdırmaq və inkişaf etdirmək, nə bunun əsasında şəxsi, kollektiv və digər mənafelər təmin oluna bilməz, millət xoşbəxt olmadan ayn-ayn fərdlərin xoşbəxtliyindən danışmaq ağlasığmazdır.

Milli iqtisadiyyatın təhlükəsizliyi hər bir vətəndaşın, cəmiyyətin və dövlətin mənafelərinin müdafıə edilməsi olduğundan onu təmin etmədən heç bir dövlət özünün sağlam milli iqtisadiyyatını nə formalaşdıra, nə də inkişaf etdirə bilməz. Eyni zamanda iqtisadi təhlükəsizliyin təmin olunması da milli iqtisadiyyatın inkişaf səviyyəsindən çox asılıdır. Təhlükəsizliyin tənzimlənməsi zamanı verilməlidir ki, inkişaf etmiş ölkələr üçün xammal bazasına çevrilməsi məhsul idxalına görə xarici dövlətlərdən asılılığın güclənməsi, kapitalın ölkədən “axıb” getməsi, dövlətin xarici borcunun artması və iqtisadiyyatın həddindən çox açıq olması təhlükələri artmasın. Mütəxəssislərin hesablamalarına görə daxili idxalın xüsusi çəkisinin 30 faizə, o cümlədən ərzaq məhsulları üzrə 25 faizə bərabər olması təhlükəsizlik səviyyəsinin normal olmasıdır [7, s.52].

Ölkənin milli təhlükəsizliyinin təmin edilməsinin mərkəzində milli mənafeyin durması bütün milli müstəqil dövlətlər, o cümlədən Azərbaycan üçün xarakterik xüsusiyyətdir və bu obyektiv amildir. O millətin həyatının bütün sahələri, məcmusu ilə şərtlənir. Milli mənafelərin mahiyyəti milli mənafe ilə bütün dünya dövlətlərinin mənafelərinin uzlaşması və bu dövlətlərin siyasətində öz ifadəsini tapmalıdır. Milli mənafe maddi və mənəvi dəyərlərlə millətin münasibətinin məcmusudur və onları özündə birləşdirir. Bu isə ölkədə, bazar iqtisadiyyatının inkişaf səviyyəsindən, onun milli iqtisadiyyatının milli mənafeyə uyğun necə qurulmasından asılıdır. Çünki milli iqtisadiyyatın inkişafı insan amilinin, onun mənəviyyatının formalaşmasına ən böyük təsir göstərən amillərdən biridir.

Qeyd edək ki, ölkənin iqtisadi təhlükəsizliyini müəyyənləşdirmək üçün bir çox ümumi və sınaqdan çıxmış metodlar vardır. Bunlardan biri mühüm makroiqtisadi göstəricilərdir, bunlar öz əhəmiyyətinə görə digər iqtisadi göstəricilərdən daha böyük əhəmiyyət kəsb edir. Digəri isə tədqiq olunan hadisə və prosesin kəmiyyət və keyfiyyət göstəricilərinin ekspert qiymətləndirilməsi metodudur. Hər hansı sahənin problemlərini yaxşı bilən şəxslərdən ekspertlər qrupu təşkil olunur və onlar əsas göstəriciləri hərtərəfli öyrəndikdən, tədqiq etdikdən sonra müəyyən rəyə gəlirlər. Ölkənin iqtisadi təhlükəsizliyinin səviyyəsi bal sistemi ilə qiymətləndirilir. Müəyyən edilmiş nəticələr əsasında həm bütövlükdə ölkənin, həm də müxtəlif sahələrin iqtisadi təhlükəsizlik səviyyələri təhlil olunur və bunun əsasında ölkənin iqtisadi təhlükəsizliyinin strategiyası müəyyənləşdirilir. Hər bir dövlətin iqtisadi təhlükəsizliyi qiymətləndirilərkən həmin ölkənin iqtisadi səviyyəsi, onun keçdiyi inkişaf yolu, geoiqtisadi, geostrateji və başqa xüsusiyyətləri nəzərə alınmaqla yanaşı, iqtisadi təhlükəsizliyin qiymətləndirilməsinin ümumi metodları da tətbiq olunur. Bunlar əsasən aşağıdakılardır: ssenarilərin təhlili və emal edilməsi metodu; optimal, ən münasib metod; nəzəri-oyun metodu; faydalılıq metodu; qeyri-səlis sistem nəzəriyyələri metodu; çoxmeyarlı statistik təhlil metodu.

Ölkənin iqtisadi təhlükəsizliyinin səviyyəsinin öyrənilməsi və onun təhlükəsizliyinin təmin olunmasında ssenarilərin təhlili və emal edilməsi metodu böyük əhəmiyyətə malikdir. Bunun mahiyyəti ölkənin iqtisadi təhlükəsizliyini təmin etməkdən və onun nəzəri əsaslarını işləyib hazırlamaq üçün etibarlı materiallar verməkdən ibarətdir. Bu sənədlər təhlil-təsvir xarakteri daşıyır, lakin burada ardıcıllıq olduğuna görə gələcək inkişafı müəyyən etmək üçün nəzəri müddəalar və ümumi qanunauyğunluqlar çıxarmaq mümkün olur. Metodun mahiyyəti bir də ondan ibarətdir ki, yüksək səviyyəli mütəxəssislərə- ekspertlərə müxtəlif istiqamətlərdə olan böyük və çətin sosial- iqtisadi və ümumiiqtisadi problemlərin həllində müasir riyazi vasitələrdən istifadə etməyə imkan verir. Ssenari anlayışı burada mərkəzi yerdə durur. Bu metodu tətbiq etməklə ilkin proqnozlar dəqiqləşdirilir, konkretləşdirilir, eyni zamanda ssenarinin yeni variantları yaranır, axtarılıb tapılır. İqtisadi təhlükəsizliyin qiymətləndirilməsi metodlarından biri də optimallaşdırma metodudur. Bir qayda olaraq, bu metoddan təsviri təhlildən təhlükəsizliyin kriteriyasını müəyyən etmək üçün istifadə edilir. Bu variant dövlətin iqtisadi təhlükəsizliyinin digər real kriteriyalarını məhdudlaşdırır. Başqa sözlə, təhlükəsizlik əsasən bir göstərici üzrə hesablanır, halbuki təhlükəsizlik kriteriyaları çoxdur və onlar bir-birini qarşılıqlı əlaqələndirir, şərtləndirir. Nəzəri oyun metodundan ikitərəfli və çoxtərəfli konflikt situasiyası zamanı istifadə olunur. Burada məqsəd konfliktlərə sintez şəkildə, bir- birinə təsiri və asılı olması şəklində baxmaqdır. Çünki, bütün ziddiyyətlər bir-birilə sıx surətdə əlaqədardır. Bu metod formanın məzmunu qabaqlamasının qarşısını almaq üçün əhəmiyyətlidir və bu metodun tətbiqi real prosesi daha düzgün əks etdirir. Qeyri-səlis sistem nəzəriyyəsi də iqtisadi təhlükəsizliyin qiymətləndirilməsində tətbiq edilir. Bu metod müasir vasitələrlə ən mü-

rəkkəb problemləri həll etməkdə açar rolu oynayır. Onlar qeyri-səlis, qeyri-mükəmməl, bəzi hallarda ziddiyyətli biliklər verir. Bu mütəxəssislərə düşünməyə, axtarmağa, tapmağa, öz mühakimələrini yürütməyə, ondan istifadə etməyə imkan yaradır, başqa sözlə, mütəxəssislərin başa düşdüyü EHM-in dilinə yaxınlaşdırılır. Bu isə insanların intellektual səviyyəsinin yüksəlməsinə, hadisə və prosesin obyektiv səbəblərinin aşkara çıxarılmasına və aradan qaldırılmasına imkan verir.

İqtisadi təhlükəsizlik həm də milli iqtisadiyyatın bütün sahələrinin dinamik, davamlı inkişafı, xarici bazarlarda rəqabət qabiliyyətli məhsullarla çıxış etməsi cəmiyyətin, fərdlərin, tələbatını ödəyə bilmək qabiliyyətinə, yəni ölkə əhalisinin normal həyat şəraitinin təmin olunmasına imkan yaradır ki, bu da sosial problemlərin sabitliyi deməkdir. Amerika iqtisadçıları iqtisadi təhlükəsizlik dedikdə, ölkənin iqtisadi müstəqilliyinin saxlanılması və təsərrüfat qərarlarının qəbul edə bilməsi qabiliyyəti, həmçinin əhalinin həyat səviyyəsinin təmin edilməsi və onun yüksəldilməsi imkanı kimi başa düşürlər [15, 80].

Bütövlükdə iqtisadi təhlükəsizliyin təmin olunması bir-biri ilə bağlı olan və biri digərini şərtləndirən iki mürəkkəb problemin – iqtisadi və sosial təhlükəsizliyin həlli ilə əlaqədardır. Bu problemlərədən birincisi iqtisadi təhlükəsizlikdir ki, o ölkənin iqtisadi qüdrətinin və potensialının möhkəmlənməsi və onun daha da artması, hərbi potensialının artması, həmçinin işsizlik, yoxsulluq və s. problemlərinin həllinin vacib şərtidir. İkincisi isə sosial təhlükəsizlikdir ki, bu isə ölkədə sosial gərginliyin azaldılması, demoqrafik vəziyyətin yaxşılaşması, yoxsulluğun azaldılması və s. ilə əlaqədar olaraq sosial sabitliyin təmin olunmasıdır.

Bununla da iqtisadi təhlükəsizlik ölkə vətəndaşlarının sosial təhlükəsizliyinin məzmununu da özündə birləşdirir ki, bu da insanların maraq və mənafelərinin təmin olunmasına birbaşa təsirindən irəli gəlir. Sosial sahədə maraqların təmin olunmasında məqsəd isə əhalinin həyat səviyyəsinin və onun keyfiyyətinin yüksəlməsinə nail olmaq və bunun davamlılığını həyata keçirməkdir. Bunun üçün gəlirlərin və yoxsulluğun səviyyəsinə görə əhalinin təbəqələşməsinin azaldılması, inflyasiyanın səviyyəsinə uyğun olaraq əhalinin pul gəlirlərinin indeksləşdirilməsi, onun yaşayış minimumu həddinə çatdırılması, əhalinin səmərəli məşğulluğunun təmin olunması ölkədə təhsilin, səhiyyə xidmətinin keyfiyyətinin yüksəldilməsi və s. problemlərin həll olunmasını özündə əks etdirir.

Milli iqtisadiyyatın təhlükəsizliyi bir-biri ilə əlaqəli təsərrüfat subyektlərinin iqtisadi mənafelərini nəzərə aldığı kimi ayrı-ayrı insanların mənafe və maraqlarının da ödənilməsini nəzərdə tutur ki, bu da sosial təhlükəsizliklə əlaqəlidir. Sosial təhlükəsizlik ayrıca bir anlayış kimi yox, milli təhlükəsizliyin tərkib hissəsi kimi digər təhlükəsizlik sistemləri ilə qarşılıqlı əlaqəlidir. O iqtisadi təhlükəsizliklə yanaşı digər təhlükəsizlik növləri - ekoloji, maliyyə, siyasi, müdafiə, demoqrafik və s. amillərin sosial aspektlərini əhatə edir. Yəni həm iqtisadi, həm siyasi, həm də ekoloji və s. təhlükəsizliyin təmin olunması

zamanı insanların, sosial qrupların, cəmiyyət üzvlərinin mənafeyi nəzərə alınır. İnsanların tələbatı kimi çıxış edən həyatı maraqlar, mənafelərin qorunması səviyyəsi və onun yaxşılaşdırılması təhlükəsizliyin təmin olunma səviyyəsindən çox asılıdır. Ona görə də milli iqtisadiyyatın təhlükəsizliyi ayrıca bir şəxsin iqtisadi təhlükəsizliyindən başlayır.

Qeyd edim ki, Azərbaycan Respublikasının Konstitusiyasında da hər bir şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə qarşı təhlükə yaradılması qadağan edilir və onun təhlükəsiz yaşaması hüquqi cəhətdən təsbit olunur. Deməli, sosial təhlükəsizlik sistemində insanlar əsas rola malikdir, bütün təhlükələrin mərkəzində dayanır.

Sosial təhlükəsizlik yalnız insanların mənafelərinin təmin edilməsi yox, həmçinin cəmiyyətdə sosial sabitliyin qorunması və müdafiəsi sahəsində hakimiyyət institutlarının gördüyü tədbirləri də ifadə edir. Deməli, sosial təhlükəsizliyin təmin edilməsi həm iqtisadi, həm də milli təhlükəsizliyin təmin olunmasında əsas rol oynayır.

İstər sosial, istər iqtisadi, istərsə də, milli təhlükəsizliyin maddi əsasını ölkədə istehsal olunan ÜDM-in həcmi və quruluşu, ölkənin iqtisadi gücü təşkil edir. Sosial təhlükəsizlik milli iqtisadiyyatın sabit, dinamik və davamlı inkişafını təmin edən amil və şərtlərin olmasını tələb edir [14, 73].

İqtisadi ədəbiyyatlarda ölkədə milli iqtisadiyyatın sosial təhlükəsizliyi anlayışına cəmiyyət üzvlərinin hər birinin, insanların mənafe və maraqlarının təmin olunması, tələbatlarının ödənilməsi səviyyəsi və onun daim artırılması baxımından yanaşılır.

İqtisadi təhlükəsizlik problemi ilə məşğul olan F.Qezan, D.Xager, D.Yolsman, V.Xodson və başqaları iqtisadi təhlükəsizlik dedikdə, səmərəli xarici ticarətlə yanaşı onun sosial aspektlərini də, yəni məşğulluğun təmin olunması və sosial təminatı nəzərdə tutmuşlar.

Aparılan araşdırmalar göstərir ki, son illərdə Rusiyanın və digər MDB ölkələrinin iqtisadi ədəbiyyatlarinda iqtisadi təhlükəsizliyin sosial aspektlərinə geniş yer verilmişdir. Bu problemə Y.İ.Abalkin, V.Pankov, V.Z.Tambotsev, V.K.Senqaçov, R.Dronov, İ.Y.Boqdanov, B.Q.Yanovski əsərlərində geniş yer verilmişdir. Məsələn, Y.I.Abalkin iqtisadi təhlükəsizliyin sosial problemlə əlaqəsini belə göstərmişdir ki, iqtisadi təhlükəsizlik iqtisadi sistemin elə bir vəziyyətidir ki, bu vəziyyət onun dinamik inkişafına, sosial vəzifələrin səmərəli şəkildə həll edilməsinə şərait yaradır və dövlət müstəqil iqtisadi siyasət hazırlayaraq onu həyata keçirmək iqtidarında olur.

İqtisadi təhlükəsizliyin sosial göstəriciləri məsələlərini tədqiq edən S.Qlazyev iqtisadi təhlükəsizlik göstəriciləri sırasında gəlirləri yaşayış minimumundan aşağı olan əhali təbəqəsinin payı, ən yüksək gəlirə malik olan 10 faiz əhali hissəsinin və ən aşağı gəlirə malik olan 10 faiz əhali arasında fərq, işsizliyin səviyyəsi, yaşayış minimumuna görə regionların diferensiasiyasını sosial göstəricilər hesab etmişdir.

Ümumilikdə, bu alimlərin əsərlərində dünya ölkələri üçün qəbul edilmiş

iqtisadi təhlükəsizliyin göstəriciləri içərisində:

- alıcılıq qabiliyyəti üzrə ümumi daxili məhsul;
- alıcılıq qabiliyyəti üzrə əhalinin adambaşına düşən ümumi daxili məhsulu gözlənilən orta ömür müddəti;
- 10 faizdən yüksək gəlirə malik əhali hissəsi ilə 10 faizdən aşağı gəlirə malik əhali hissəsinin nisbəti;
- BƏT-in metodologiyasına uyğun olaraq işsizliyin səviyyəsi, 40 faiz;
- ərzaq istehsalında idxal ərzağının payı sosial təhlükəsizlik göstəricilərinə aid edilməsi və s. də vardır.

Göründüyü kimi, iqtisadi tədqiqatlarda sosial təhlükəsizlik iqtisadi ləhlükəsizliyin sosial-iqtisadi göstəriciləri sırasında özünə yer almışdır. Eyni zamanda iqtisadi təhlükəsizliyin göstəriciləri bir-birini tamamlayaraq birinin inkişaf səviyyəsi digərini şərtləndirir. Əgər iqtisadi təhlükəsizlik ölkənin iqtisadi inkişafına təhlükə törədən amillərlə əlaqəlidirsə, sosial təhlükəsizlik cəmiyyət üzvlərinin hər birinin həyat səviyyəsinin təmin olunması və təkrar istehsalına mane olan amillərın aradan qaldırılmasıdır. Əhalinin həyat səviyyəsinin daim yaxşılaşdırılması və sosial təminatın səmərəli üsullarının həyata keçirilməsi onların əmək məhsuldarlığına, bu isə istehsalın kəmiyyət və keyfiyyətinin yaxşılaşdırılmasına, makroiqtisadi göstəricilərin yüksəlməsinə səbəb olur ki, bu da ölkənin iqtisadi təhlükəsizliyi deməkdir.

Qeyd olunan yanaşmalardan belə nəticəyə gəlmək olur ki, milli iqtisadiyyatın sosial təhlükəsizliyi məhdud mənada - cəmiyyətin hər bir üzvünün, insanların mühüm həyati mənafelərinin qorunmasının təhlükəsizlik vəziyyətidir. Geniş mənada sosial təhlükəsizlik özündə şəxsiyyətin, ailənin və cəmiyyətin həyati vacib maraqlarının daxili və xarici təhlükələrdən müdafiə olunması vəziyyətini ifadə edir. Bu əhalinin həyat səviyyəsinin normal şərtlərinin qorunmasını müəyyən edən keyfiyyət xarakteridir. Burada bir cəhəti qeyd etmək lazımdır ki, sosial təhlükəsizliyi mütləq mənada təmin etmək olmur, onu daxili və xarici təsirlərdən mühafizə etmək olar, yəni sosial təhlükəsizlik nisbidir.

Fikrimizcə, iqtisadi nəzəriyyə baxımından milli iqtisadiyyatın sosial təhlükəsizliyi anlayışının tədqiqi makro və mikroiqtisadiyyat səviyyəsində öyrənilməsi daha münasibdir. Mikrosəviyyədə sosial təhlükəsizlik ayrıca bir şəxsin mənafelərinin və tələbatlarının ödənilməsidir. Məhdud mənada bu insanların bioloji bir varlıq kimi mövcud olması, mühüm həyatı mənafelərinə təhlükə törədən amillərin və şərtlərin dəf edilməsidir. Makrosəviyyədə sosial təhlükəsizlik ölkə ərazisində və onun regionlarında yaşayan hər bir insanın, sosial qrupun həyat fəaliyyəti, təkrar istehsalı ilə əlaqədardır. Bildirim ki, əhalinin sosial vəziyyəti makroiqtisadi təhlükəsizlik göstəricisi olduğundan geniş mənada sosial təhlükəsizlik əhalinin maddi tələbatı ilə yanaşı, onun mənəvi və sosial tələbatlarının ödənilməsi, əmək və məişət şəraiti üçün təhlükə yaradan amillərin aradan qaldırılması deməkdir. Bu baxımdan Azərbaycanda hazırda məhdud mənada sosial təhlükəsizlik problemləri mövcud olsa da, geniş mənada bu problem həll olunmuşdur.

Milli iqtisadiyyatın sosial təhlükəsizlik anlayışının açılmasında daha çox təhlükə yaradan mənfi amilləri də nəzərdən keçirmək lazımdır. Bunlar əhalin gəlir və istehlak səviyyəsində kəskin diferensiasiyanın olması, ərzaq malları üzrə orta istehlak normasının azalması hesabına ərzaq istehlakı strukturunun (qidalanmanın) pisləşməsi, gəlir səviyyəsi yaşayış minimumundan aşağı olan əhalinin çoxluğu nəticəsində yoxsulluq səviyyəsinin yüksək olması və s.-dir. Sosial sahədə ən böyük təhlükə həyat səviyyəsinin pisləşməsi, işsizlik və yoxsulluq hallarının artması, cəmiyyətdə əhalinin sosial təbəqələşməsi və sosial-əmlak fərqlərinin dərinləşməsidir. Əgər qərb ölkələrində əhalinin 70 faizi yaxşı, 30 faizi pis yaşayırsa, bu yaxşı həyat səviyyəsi olan ölkə sayılır. Dünya təcrübəsində bu göstərici 10 faizdən çox gəliri olan əhali ilə, 10 faiz gəlirləri az olan əhali arasındakı nisbətlə ölçülür. Daha çox inkişaf etmiş Avropa dövlətlərində bu göstərici 1:6, 1:8 olduğu halda, Rusiyada 1:12, Azərbaycanda isə 1:14-dür.

Milli iqtisadiyyatın sosial təhlükəsizliyinin mahiyyəti və məzmunu onun predmetini də müəyyənləşdirir. O, bir tərəfdən sosial sferanın müdafiəsinin təmin olunması üçün təhlükəli amillərin müəyyən edilməsi və onun aradan qaldırılması mexanizminin, digər tərəfdən dövlətin sosial sferada həyata keçirmək üçün müvafiq institutların yaradılması problemlərinin öyrənilməsini əhatə edir. Sosial təhlükəsizlik ölkə daxilində sosial sahədə ona yönəlmiş təhdidlərin, təhlükələrin, risklərin qarşısının alınması, minimuma endirilməsini, qorunmasını təmin edən, zəmanət verən və dövlət tərəfindən yaradılmış hüquqi normalar, şərtlər, sosial normativlər təlimatlar və direktivlər kompleksidir. O, cəmiyyətin elə bir vəziyyətidir ki, dünya iqtisadi sistemində baş verən sosial, siyasi və ekoloji problemlərin yaranmasından ölkənin zəruri həyati tələbatlarını təmin etmək imkanına malik olur.

İqtisadiyyatın sosial təhlükəsizliyi sosial sabitlik və sosial inkişaf anlayışları ilə six əlaqəlidir. Sosial sabitlik sosial təhlükəsizliyin qarantıdır və onların hər biri özünəməxsus səviyyədə sosial sahənin səviyyəsini və vəziyyətini əks etdirir. Sosial inkişaf dedikdə, insanların həyat səviyyəsinin və keyfiyyətinin daim yaxşılaşdırılması, fiziki sağlamlığının qorunması, orta ömür müddətinin uzadılması və s. şərait yaradan amillərdir ki, bu da sosial təhlükəsizliyin tam təminatıdır. Deməli, sosial inkişafın stabilliyi sosial təhlükəsizliyin təmin olunmasının səmərəli sisteminin seçilməsidir. Sosial sabitliyin pozulması, təhlükələrə qarşı müqavimətin aşağı düşməsi və sosial inkişafın yüksəliş imkanlarının məhdudlaşmasıdır.

Sosial təhlükəsizliyin məzmununun araşdırılmasında əsas məsələlərdən biri onun maliyyə təminatının həyata keçirilməsidir. Əhalinin sosial müdafiəsinin maliyyə təminatında isə, cəmiyyətin aztəminatlı kateqoriyalarının həyat səviyyəsinin stabilləşdirilməsinə, onların minimum istehlak büdcəsinin dəyəri həcmində istehlakının reallaşdırılmasına və zəruri sosial ehtiyacların ödənilməsinə yönəldilmiş maliyyə resurslarının məcmuu kimi nəzərdə tutulur. Sosial sahədə iqtisadiyyatın davamlı inkişafı iqtisadi siyasətin sosial yönümlüyünü artırmaq, vətəndaşların əmək, sosial təminat, təhsil, səhiyyə və mədəniyyət sahə-

lərində konstitusiya hüquqlarının qorunması, əhalinin həyat şəraiti və maddi vəziyyətinin yaxşılaşdırılması, əhalinin səmərəli məşğulluğunun təmin edilməsi, işçi qüvvəsinin təkrar istehsalının edilməsi, işsizliyin azaldılması üçün sosial sahənin inkişafı, sosial təhlükəsizliyin təminatıdır ki, ölkəmizdə bu problemlərin həlli kifayət qədər təmin edilmişdir. Bunu hazırki pandemiya dövründə də geniş müşahidə etmək olar.

Şübhəsiz ki, sosial təhlükəsizlik sosial -iqtisadi prosesləri və inkişafı xarakterizə etdiyindən onun təmin olunması da müəyyən göstəricilər sisteminin dərindən araşdırılmasından keçəcəkdir.

Onu da qeyd edim ki, mövcud vəziyyətlə bağlı dövlətin həm iqtisadi həm də sosial sahəyə dəstək proqramını xüsusi vurğulamaq yerinə düşər. İlkin mərhələdə 1 mlr.manat nəzərdə tutulan iqtisadi yardım paketi sonradan ölkə rəhbərliyi tərəfindən daha geniş iqtisadi subyekt və sosial qrupları əhatə etməsi təklifini nəzərə alaraq 3 mlrd.manata yüksəldilmişdir ki, bu da pandemiya şəraitində xeyli sayda vergi ödəyicisi olan təsərrüfat subyektlərinə və əhali qrupuna birbaşa maliyyə yardımının edilməsini nəzərdə tutur. Həmçinin bu ərəfədə bir sıra sosial obyektlərin, o cümlədən xüsusi təyinatlı modul tipli xəstəxanaların tikintisi və 2020-ci il dövlət büdcəsində nəzərdə tutulan sosial layihələrin ixtisara salınmadan yerinə yetirilməsi, həmçinin 2019-2023-cü illəri əhatə edən regional inkişaf proqramında nəzərdə tutulan layihələrin vaxtlı-vaxtında icrası da ölkədə sosial təhlükəsizliyin təmin olunması istiqamətində dövlətin strategiyasını müəyyən edən məsələlərdəndir.

Dövlət orqanları ölkənin iqtisadi təhlükəsizlik strategiyasını reallaşdırarkən əsas vəzifələrindən biri struktur siyasətini ön plana çəkməkdir. Bu zaman dövlət orqanlarının iqtisadiyyatın makroiqtisadi səviyyədə vəzifələri aşağıdakılar olmalıdır: məcmu tələbi yüksəltmək; yığım normasını artırmaq və bunun nəticəsində investisiya qoyuluşunu yaxşılaşdırmaq üçün əlverişli şərait yaratmaq bunun ən yaxşı yolu milli sahibkarların formalaşması və onların geniş fəaliyyət göstərməsinə dövlətin hərtərəfli köməyi ola bilər: ixrac və onun diversifaksiyasını stimullaşdırmaq, yaşamaq qabiliyyəti az olan müəssisələrdən maliyyə və istehsal resurslarının istehsalı səmərəli təşkil etmək qabiliyyəti olan sahələrə axmasını təmin etmək; milli iqtisadiyyatın xarici təhlükədən qorunmasını və onun inkişafını təmin etmək məqsədilə idxalın tənzimlənməsini həyata keçirmək. Mikroiqtisadi səviyyədə iqtisadi təhlükəsizliyi təmin etmək üçün aşağıdakı vəzifələr yerinə yetirilməli və struktur siyasəti yürüdülməlidir. Belə ki. ilk növbədə iqtisadi səmərəliliyinə görə başqa müəssisələrdən irəlidə olan obyektlər müdafiə edilməli və stimullaşdırılmalıdır, bunun əksinə qeyri-səmərəli iqtisadi strukturlar da yenidən qurulmalı və yaxud onların ləğv olunması həyata keçirilməlidir.

Yuxarıda qeyd olunanları ümumiləşdirərək aşağıdakı kimi ifadə etmək olar:

1. İqtisadi təhlükəsizlik yeni bir anlayış olaraq dünyada qloballaşma prosesinin sürətlə inkişaf etdiyi bir dövrdə dövlətlərin öz milli-iqtisadi maraqlarının qorunmasını, ölkənin mövcud iqtisadi potensialının səmərəli şəkildə

reallaşdırılmasını və ölkənin dayanıqlı inkişaf tempinin təmin olunmasını özündə əks etdirir. Dövlətin iqtisadi maraqları baxımından iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, dayanıqlı inkişafı təmin edən iqtisadi mexanizmin qurulması, dünya iqtisadiyyatına səmərəli inteqrasiya və ölkədə əsas sosial-iqtisadi problemlərin həll edilməsi kimi mühüm amillər, iqtisadi təhlükəsizliyin təmin olunmasını aktual bir problemə çevirmişdir;

2. İqtisadi təhlükəsizliyin kriteriyaları həm iqtisadiyyatın sistem kimi inkişafını, həm də dövlətçiliyin möhkəmləndirilməsini özündə əks etdirir. Qeyd etməliyik ki, müasir dünyada ölkələrin iqtisadiyyatının həddən artıq açıqlığı və dünyada mal mübadiləsinin genişlənməsi bir çox hallarda ölkələrin xaricdən asılılığının artmasına və iqtisadiyyatın sistem kimi inkişafının təmin olunmasına mənfi təsir göstərməklə ümumən dövlətin inkişafına mənfi təsir göstərir. Bu baxımdan iqtisadi təhlükəsizlik meyarlarında bu amilləri nəzərə almalı və iqtisadi sistemin formalaşdırılması zamanı ölkənin Beynəlxalq Əmək Bölgüsündə tuta biləcəyi yerinə diqqət yetirmək lazımdır.

3. İqtisadi təhlükəsizliyin təmin olunması əsasən real sektorun inkişaf etdirilməsindən və iqtisadiyyatın ayrı-ayrı sahələri arasında səmərəli əlaqələrin qurulmasından asılıdır. Bu əlaqələrin əlverişli şəkildə təşkili keçid ölkələrində iqtisadiyyatın təkmil quruluşunun və sisteminin formalaşdırılmasının əsas şərtidir. Bu baxımdan iqtisadiyyatın sistem kimi inkişaf etdirilməsi və yeni strukturunun formalaşdırılması müasir dövrdə ölkələrin qarşısında duran mühüm məsələlərdən biridir.

4. Milli iqtisadi təhlükəsizliyin təmin olunması və iqtisadiyyatın təkmil strukturunun formalaşdırılması dövlətin ciddi tənzimləmə mexanizmini tələb edir. Belə ki, bazar iqtisadiyyatına keçidin ilkin mərhələsində dövlətin iqtisadi əsaslarının zəif olması iqtisadi sistemin formalaşdırılması ilə əlaqədar qarşıya çıxan problemlərin həll edilməsində yalnız bazarın gücünə arxalanmağa imkan vermir. Bu baxımdan iqtisadiyyatın dövlət tənzimləmə sisteminin təkmilləşdirilməsi və ciddi tənzimləmə sisteminin həyata keçirilməsi ən vacib məsələlərdən biridir.

## ƏDƏBİYYAT


1. Həsənov R.T. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı, 1998, 343 s.
2. Bərxudarov M., Məmmədov N. İqtisadi Təhlükəsizlik. Bakı: İqtisad Universiteti, 2006, 452 s.
3. Kərimli İ.A. Dünya iqtisadiyyatı: beynəlxalq ticarət, maliyyə və inkişaf. Bakı: CBS, 2006, 166 s.
4. Menkyu N.Q. Ekonomiksin əsasları, üçüncü nəşr, ABŞ: “R.R.Donnolley Willard, OH”, 2004, 836 s.
5. Mirkişili T.F. Azərbaycanın xarici ticarət siyasəti: Reallıqlar və perspektivlər. Bakı: İqtisad Universiteti, 2004, 89 s.
6. Əhmədov M. Milli iqtisadiyyatın formalaşması. Bakı, 2012, 367s.
7. Məmmədov N. Ölkənin iqtisadi təhlükəsizliyi. Bakı: Elm, 2009, 43 s.
8. Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik. 2008, 126 s.
9. “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının qanunu
10. Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия 93 внеш-

неэкономического развития. Киев, 2000, 503 с.
11. Балабанов В.С., Борисенко Е.Н. Продовольственная Безопасность. Международные и внутренние аспекты. М., 2002
12. Филлипенко А.С. Экономическое развитие. Цивилизационный подход. 2001
13. Щетенин В.Д. Экономическая дипломатия. М, 2018, с.237
14. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, 2016, s.432
15. Hümbətova S. Müstəqillik dövründə iqtisadi təhlükəsizlik məsələləri və onun sosial-iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi. Bakı, 2017, s.167

## НЕОБХОДИМОСТЬ ОБЕСПЕЧЕНИЯ СОЦИАЛЬНОЙ БЕЗОПАСНОСТИ В СИСТЕМЕ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

**Г.Г.АСЛАНОВ**

**РЕЗЮМЕ**

Экономическая безопасность, независимо от существующей экономической системы и уровня развития экономики, является одним из самых актуальных вопросов, постоянно находящихся в центре внимания в каждой стране. Неслучайно, в ряде западноевропейских стран в подчинении Министерства Экономической Развитии этой проблемой занимается ряд государственных органов. В том числе, в этих странах действуют институты экономической безопасности. Безопасность рассматривается как совокупность условий и факторов, обеспечивающих независимость, стабильность и устойчивость национальной экономики, позволяющих ей обновляться и совершенствоваться, отмечается что социальная сфера играет ведущую роль в обеспечении не только экономической, но и национальной безопасности. В статье проведено теоретическое исследование этих и других вопросов проблемы.

**Ключевые слова:** национальная экономика, экономическая безопасность, экономическое развитие, национальные экономические интересы, экономическая стабильность, макроэкономический баланс

## THE NEED FOR SOCIAL SECURITY IN THE ECONOMIC SECURITY SYSTEM

**H.H.ASLANOV**

**SUMMARY**

Economic security, regardless of the existing economic system and the level of economic development is one of the most pressing issues of constant focus in each country. There is no coincidence that in a number of Western European countries, a number of government bodies are dealing with this problem under the Ministry of Economic Development. Among others, these countries have economic security institutions. Security is a set of conditions and factors that ensure independence, stability and sustainability of national economy, allowing it to be renewed and improved. It is the social sphere that plays a leading role in ensuring not only economic, but also national security. In the article, these and other issues are theoretically studied.

**Keywords:** National economy, economic security, economic development, national economic interests, economic stability, macroeconomic balance

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Sosial-siyasi elmlər seriyası 2021*

**UOT 331.5.024.54**

# MƏŞĞULLUQ SAHƏSİNDƏ BƏRABƏRSİZLİYİN GENDER ASPEKTLƏRİ

**S.Ə.HƏSƏNOVA**
***Bakı Avrasiya Universiteti***
***sevda.hesenova.73@mail.ru***

*Müasir dövrdə məşğulluq iqtisadiyyatın ən aktual sahələrindən hesab edilir. Sosial rifah və inkişaf baxımından bu problemin həlli vacib məsələdir. Məşğulluq sferasında qadın işçi qüvvəsinin əmək həyatına daxil edilməsi cəmiyyətin inkişafında mühüm amil olaraq diqqət mərkəzində saxlanılmalıdır. Məşğulluğun stimullaşdırılmasında gender problemlərinin həlli davamlı iqtisadi inkişafa şərait yaradır. İqtisadiyyatın bütün sektorlarında çalışan qadınların əmək fəaliyyəti zamanı qarşılaşdıqları problemləri müəyyənləşdirmək və bu problemlərin aradan qaldırılması istiqamətində təkliflər vermək vacibdir. Məqalədə Azərbaycanda məşğulluğun gender aspektləri təhlil edilmişdir. Yekunda təhlildən əldə olunan nəticələr öz əksini tapmışdır. Problemin həlli istiqamətində təkliflər verilmişdir.*

**Açar sözlər**: səmərəli məşğulluq, əmək bazarı, insan kapitalı, əmək resursları, qadınların məşğulluğu, cinsi ayrı-seçkilik, gender əsaslı məşğulluq, sosial-iqtisadi inkişaf.

**Giriş:** Məlumdur ki, inkişafın müasir mərhələsində insan potensialı iqtisadi artımın əsas hərəkətverici qüvvəsidir. Son dövrlərdə Azərbaycanda baş verən sosial, iqtisadi, siyasi dəyişikliklər cəmiyyətin həyat fəaliyyətinin bütün sahələrinə, sosial münasibətlər sisteminə təsir göstərmiş, müxtəlif sosial qrupların həyat və peşə strategiyalarının dəyişməsinə gətirib çıxarmışdır. Ölkə əhalisinin sosial cəhətdən əlverişsiz kateqoriyalarının mövcudluğu cəmiyyətdə sosial fərqliliyin qarşısının alınması istiqamətində tədbirlərin görülməsini, gender problemini aktuallaşdırmışdır. Məşğulluq ölkənin sosial və iqtisadi siyasətinin əsasını təşkil edir. Layiqli və məhsuldar məşğulluq sferasında qadınlar və kişilər üçün bərabər gəlir əldə etmək imkanlarının yaradılması müasir dövrün əsas prioritetlərindəndir. Məşğulluğun stimullaşdırılmasında qender aspektlərinin nəzərə alınması əmək məhsuldarlığının səmərəliliyinin artmasına, iqtisadi artıma və davamlı inkişafa təkan vermiş olar. Bu da öz növbəsində insan resurslarının inkişafı ilə yanaşı yoxsulluğun miqyasının azaldılmasına kömək edə bilər.

**Təhlil:** Məlumdur ki, ölkənin inkişaf səviyyəsi bir sıra amillər vasitəsilə ölçülür ki, onlardan biri də iqtisadiyyatda iş yerlərinin yaradılması məsələsidir.

Əmək bazarında meydana çıxan gender problemləri həm fərdi, həm də sosial-iqtisadi cəhətdən böyük əhəmiyyət kəsb edir. Qadın işçi qüvvəsinin iqtisadiyyata cəlb edilməsi səmərəli, həmçinin davamlı məşğulluğun təmin edilməsinə və ölkədə işsizliyin səviyyəsinin azaldılmasına müsbət təsir göstərə bilər [2, 38]. Qadınların məşğulluğunun təmin edilməsi üçün mövcud problemlərin aradan qaldırılması vacibdir. Problemin aradan qaldırılması üçün qadın əməyindən səmərəli istifadə prosesində qarşıya çıxan maneələr müəyyən edilməlidir. Bütün dünyada gender bərabərsizliyi qadınların iqtisadi, sosial və siyasi həyatda iştirakı kontekstində yaranır. Gender bərabərsizliyi iqtisadi ədəbiyyatda təhsil, məşğulluq və əmək haqqının bərabərsizliyi formasında ifadə edilir. Bərabərsizliyin bütün aspektləri bir-biri ilə sıx bağlıdır və iqtisadi inkişafa əhəmiyyətli dərəcədə təsir göstərir [3, 63]. Ölkəmizdə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanun"un 3-ci maddəsində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarına qarşı qadağa öz əksini tapmışdır. Əmək münasibətlərində Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş güzəştlər, imtiyazlar və əlavə təminatlar qadınlara da şamil olunur və ayrı-seçkilik hesab edilmir. Cinsindən asılı olmayaraq bütün işçilərə eyni iş şəraitinin yaradılması işəgötürənin əsas vəzifəsi hesab olunur [1, 30].

Ölkənin sosial-iqtisadi həyatında baş verən dəyişikliklər qadın və kişilərə fərqli dərəcədə təsir göstərir. Cəmiyyətdə mövcud olan gender bərabərsizliyini gücləndirir. Kişi və qadınlar arasında gəlirlərin, hakimiyyətin və nüfuzun qeyri-bərabər bölüşdürülməsi baş verir. Qadınların şəxsi və peşəkar aspektdən özünü reallaşdırmaq imkanları zəifləyir. Son olaraq kişi və qadınlar arasında gəlirlilik fərqi, peşə bölgüsündə bərabərsizlik və məşğulluq növləri çərçivəsində əmək haqqının bərabərsizliyi meydana çıxır və qadın əməyinə verilən qiymətin aşağı olması ilə nəticələnir. 2019-cu ildə Azərbaycanda 2.1 milyon nəfər qeyri-fəal əhali olmuşdur ki, bunun da 1.4 milyon nəfərini (65,8%-ni) qadınlar təşkil etmişlər. Həmin ilin göstəricilərinə əsasən deyə bilərik ki, iqtisadi fəaliyyət növləri üzrə qadınların orta aylıq əmək haqqı 335 manat təşkil etmişdir. Lakin həmin ildə kişilərin orta aylıq əmək haqqı 663 manat olmuşdur ki, bu da qadınların orta aylıq əmək haqqından 49,5% çox olmuşdur [5].

Azərbaycanda illər üzrə iqtisadi fəal əhalinin təhlilini apararkən məlum olur ki, hüquqi təminata baxmayaraq ölkənin əmək bazarında gender bərabərsizliyi hələ də qalmaqdadır (cədvəl 1).

Cədvəl 2-də iqtisadi illər üzrə iqtisadi fəal əhali, məşğul əhali və işsizlər arasında kişi və qadınların sayının statistikası öz əksini tapmışdır. Göründüyü kimi istər iqtisadi fəal əhali, istərsə də məşğul əhali arasında kişilərin sayı qadınlara nisbətdə üstünlük təşkil etmişdir. Belə ki, əgər 2015-ci ildə 4915.3 min nəfər iqtisadi fəal əhalidən 2475,7 nəfərini kişilər təşkil edirdisə, qadınlar həmin ildə 2365 nəfər təşkil edirdi. Həmin il üzrə məşğul əhalinin sayına nəzər yetirsək məlum olur ki, 2015-ci ildə məşğul əhalinin 2408.2 min nəfərini kişilər, 2263.4 nəfərini isə qadınlar təşkil edir. Cədvəl əsasında digər illərin də təhlili eyni mənzərəni ortaya qoyur. Lakin hər il məşğul əhali sırasında qa-

dınların sayında artım müşahidə olunur. Belə ki, məşğul əhali arasında əgər 2016-cı ildə qadınlar 2294.2 nəfər təşkil edirdisə, 2017-ci ildə bu göstərici 2319.3 nəfər, 2018-ci ildə isə 2349.9 nəfər olmuşdur. Ölkədə işsizlərin sayının təhlilini apararkən aydın olur ki, bu göstəricidə qadınların sayı kişilərin sayını üstələyir. Əgər 2015-ci ildə işsizlər arasında qadınlar 141.1 min nəfər idisə, kişilər isə 102.6 min nəfər təşkil edirdi. Digər illər üzrə, 2016-cı ildə qadınlar 145.3 min nəfər, kişilər 107.5 min nəfər, 2017-ci ildə qadınlar 145.5 min nəfər, kişilər 106.2 min nəfər, 2018-ci ildə isə qadınlar 145.8 min nəfər, kişilər 108 min nəfər təşkil etmişdir.

Cədvəl 1

**İqtisadi fəal əhalinin tərkibində kişilərin və qadınların sayı (min nəfərlə)**




***Mənbə:*** https://www.stat.gov.az/source/labour/ sayıtının məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.

Bütün dünya ölkələrində olduğu kimi Azərbaycanda da iqtisadi sferada gender problemlərinin aradan qaldırılmasına mane olan struktur problemləri hələ də mövcuddur. Əmək bazarında qadınlar daha az əmək haqqı olan və qeyri-rəsmi işlərdə çalışırlar. Yalnız üç sahə üzrə çalışan qadınların sayı kişilərin sayından artıq olmuşdur. Bu səhiyyə və sosial xidmətlər, əyləncə və incəsənət, təhsil və istirahət sahələri daxildir. Uyğun olaraq səhiyyə və sosial xidmətlər üzrə 54,8%, əyləncə və incəsənət üzrə 23,8%, təhsil və istirahət sahəsi üzrə isə 47,6% qadınlar çoxluq təşkil etmişlər (cədvəl 2) [1, 31-32].

Cədvəl 2

**Muzdlu işçilərin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü, 2019-cu il üzrə**

| İqtisadi fəaliyyət növləri | Qadınlar | | Kişilər | | Cins üzrə bölgü, faizlə | |
|---|---|---|---|---|---|---|
| | nəfər | faizlə | nəfər | faizlə | Qadınlar | Kişilər |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 12385 | 1.9 | 41770 | 4.2 | 22.9 | 77.1 |
| Mədənçıxarma sənayesi | 4644 | 0.7 | 30240 | 3.1 | 13.3 | 86.7 |
| Emal sənayesi | 30530 | 4.6 | 91419 | 9.3 | 25.0 | 75.0 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 3196 | 0.5 | 27243 | 2.8 | 10.5 | 89.5 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 10446 | 1.6 | 19723 | 2.0 | 34.6 | 65.4 |
| Tikinti | 7959 | 1.2 | 111674 | 11.3 | 6.7 | 93.3 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 72852 | 11.0 | 221700 | 22.5 | 24.7 | 75.3 |
| Nəqliyyat və anbar təsərrüfatı | 12313 | 1.9 | 63287 | 6.4 | 16.3 | 83.7 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 8244 | 1.2 | 19117 | 1.9 | 30.1 | 69.9 |
| İnformasiya və rabitə | 8256 | 1.3 | 20044 | 2.0 | 29.2 | 70.8 |
| Maliyyə və sığorta fəaliyyəti | 10162 | 1.5 | 17870 | 1.8 | 36.3 | 63.7 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 5355 | 0.8 | 11754 | 1.2 | 31.3 | 68.7 |
| Peşə, elmi və texniki fəaliyyət | 25032 | 3.8 | 31419 | 3.2 | 44.3 | 55.7 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 24100 | 3.7 | 44566 | 4.5 | 35.1 | 64.9 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 30675 | 4.6 | 82606 | 8.4 | 27.1 | 72.9 |
| Təhsil | 248248 | 37.6 | 88040 | 8.9 | 73.8 | 26.2 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 104649 | 15.9 | 30487 | 3.1 | 77.4 | 22.6 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 34085 | 5.2 | 21021 | 2.1 | 61.9 | 38.1 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 6608 | 1.0 | 12886 | 1.3 | 33.9 | 66.1 |
| Cəmi | 659739 | 100.0 | 986866 | 100.0 | 40.1 | 59.9 |

***Mənbə:*** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Statistik göstəricilərə əsasən deyə bilirik ki, göstərilən üç sahə istisna olmaqla digər sahələr üzrə muzdlu işçilərin iqtisadi fəaliyyət növləri üzrə bölgüsündə də kişilərin sayı üstünlük təşkil etmişdir. Belə ki, Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində çalışanların 22.9%-i qadın, 77.1%-i kişilər, mədənçıxarma sənayesi üzrə çalışanların 13.3%-i qadın, 86.7%-i kişilər, emal sənayesi üzrə qadınlar 25%, kişilər 75%, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı üzrə qadınlar 10.5%, kişilər 89.5%, su

təchizatı, tullantıların təmizlənməsi və emalı üzrə qadınlar 34.6%, kişilər 65.4%, tikinti sahəsində qadınlar 6.7%, kişilər 93.3%, ticarət: nəqliyyat vasitələrinin təmiri qadınlar 24.7%, kişilər 75.3%, nəqliyyat və anbar təsərrüfatı sahəsində qadınlar 16.3%, kişilər isə 83.7%, turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə qadınlar 30.1%, kişilər 69.9%, informasiya və rabitə sahəsində qadınlar 29.2%, kişilər 70.8%, maliyyə və sığorta fəaliyyəti üzrə qadınlar 36.3%, kişilər 63.7%, daşınmaz əmlakla əlaqədar əməliyyatlar üzrə 31.3%, kişilər 68.7%, peşə, elmi və texniki fəaliyyət sahəsində qadınlar 44.3%, kişilər 55.7%, inzibati və yardımçı xidmətlərin göstərilməsi üzrə qadınlar 35.1%, kişilər 64.9%, dövlət idarəetməsi və müdafiə; sosial təminat üzrə qadınlar 27.1%, kişilər 72.9%, təhsil sahəsində qadınlar 73.8%, kişilər 26.2%, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi üzrə qadınlar 77.4%, kişilər 22.6%, istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət sahəsi üzrə qadınlar 61.9%, kişilər 38.1%, digər sahələrdə xidmətlərin göstərilməsi üzrə isə qadınlar 40.1%, kişilər isə 59.9% təşkil etmişlər.

2019-cu ildə işsiz əhalinin yaş qrupları və cins üzrə bölgüsünün təhlilinə nəzər salsaq, burada da eyni tendensiyanın şahidi olmuş olarıq (Cədvəl 3).

Cədvəl 3

**İşsiz əhalinin yaş qrupları və cins üzrə bölgüsü (2019-cu il üzrə).**




***Mənbə***: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Cədvəldən də göründüyü kimi 15-19 yaş qrupu istisna olmaqla digər yaş qrupları üzrə işsiz əhali arasında qadınlar üstünlük təşkil etmişlər. Yalnız 15-19 yaş qrupu arasında işsiz əhalinin 52 min nəfəri kişilər, 48 min nəfəri isə qadınlar olmuşdur. 20-24 yaş qrupu arasında işsiz əhalinin 54.2 min nəfəri qadın, 45.8 min nəfəri kişilər, 25-29 yaş qrupu üzrə 58.6 min nəfəri qadın, 41.4 min nəfəri kişilər, 30-34 yaş qrupu üzrə 64.6 min nəfəri qadın, 35.4 min nəfəri

kişilər, 35-39 yaş qrupu üzrə 56.5 min nəfəri qadın, 43.5 nəfəri kişilər, 40-44 yaş qrupu üzrə 51.7 min nəfəri qadın 48.7 min nəfəri kişilər, 45-49 yaş qrupu üzrə 61.3 min nəfəri qadın, 38.7 min nəfəri kişilər, 50-54 yaş qrupu üzrə 63.7 min nəfəri qadın, 36.3 min nəfəri kişilər, 55-59 yaş qrupu üzrə 66.4 min nəfəri qadın, 33.6 min nəfəri kişilər təşkil etmişlər. Ümumilikdə bütün yaş qrupları üzrə işsiz əhalinin 57.4%-ni qadınlar, 42.6%-ni isə kişilər təşkil etmişlər. Bu təhlilin də nəticəsi olaraq deyə bilərik ki, ölkədə məşğulluq sahəsində həyata keçirilən islahatlara baxmayaraq bu sahədə gender problemləri hələ də qalmaqdadır.

**Nəticə:** Hazırkı dövrdə qadınların iqtisadi fəallığının artırılması qanunvericilik bazası və sosial sahənin inkişafı vasitəsilə kifayət qədər möhkəmləndirilmişdir. Lakin buna baxmayaraq, aparılmış təhlil ölkədə gender bərabərliyində problemlərin hələ də olduğunu deməyə əsas verir. Düşünürük ki, qadınların iqtisadi fəallığının artırılmasına böyük önəm verilməlidir. Qadınların ictimai-əmək fəallığının parametrləri yaşından, peşəkar hazırlığından, karyera yönümündən, həyatda baş verən demoqrafik hadisələrdən, ailə-məişət məşğulluğunun həcmindən və qadının iqtisadi roluna, rəqabətqabiliyyətliliyinə təsir edən bir çox amillərdən asılıdır. Əmək, analıq və məşğulluğu bir araya gətirsək ənənəvi düşüncələrdən aydın olurdu ki, qadın kişidən daha az arzu olunan işçidir. Qadın işçi qüvvəsinin rəqabət qabiliyyəti iqtisadi, sosial-psixoloji aspektlərdən ibarətdir. İqtisadi aspektləri dedikdə, məhsuldarlıq, keyfiyyət və səmərəlilik nəzərdə tutulur. Sosial-psixoloji aspektə təhsil səviyyəsi, ixtisas, peşəkarlıq, ünsiyyət qabiliyyəti, əmək hərəkətliliyi aiddir [4, s.8].

Fikrimizcə, qadınların həyat səviyyəsinin aşağı olması ilk növbədə əməyin ödənilməsində ayrı-seçkiliklərlə, pensiya təminatının səviyyəsinin və işsizlik üzrə müavinətlərin azalması ilə əlaqəli problemdir. Ölkə səviyyəsində sosial strukturun dəyişdirilməsi, iqtisadi islahatların aparılması və təhsilin inkişaf etdirilməsi gender ayrı-seçkiliyi probleminin qarşısının alınmasına imkan yaradacaqdır.

**ƏDƏBİYYAT**

1. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikası Qanununun Təhlili. Bakı, 2014, 56 s.
2. Şerife Durmaz. İşgücü Piyasasında Kadınlar ve Karşılaştıkları Engeller. Ahi Evran Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (AEÜSBED) 2016, Cilt 2, Sayı 3, s. 37-60
3. Fatih Celebioglu. Women Employment in terms of Gender Inequality across the Provinces of Turkey. Eurasian Journal of Business and Economics 2017, 10(19), 61-80
4. Заяц О.В. Занятость населения и ее регулирование. Владивосток, 2003, s.153
5. https://www.stat.gov.az

## ГЕНДЕРНЫЕ АСПЕКТЫ НЕРАВЕНСТВА В СФЕРЕ ЗАНЯТОСТИ

**С.А.ГАСАНОВА**

### РЕЗЮМЕ

В настоящее время занятость считается одной из актуальных задач экономики. Решение этой проблемы важно с точки зрения социального благополучия и развития. В сфере занятости включение женской рабочей силы в состав трудовой жизни должно оставаться в центре внимания как важный фактор развития общества. Решение гендерных проблем в стимулировании занятости создает условия для устойчивого развития. Во время трудовой деятельности важно выявить проблемы и внести предложения по их преодолению, с которыми сталкиваются женщины, работающие во всех секторах экономики. В статье анализируются гендерные аспекты занятости в Азербайджане. В заключении отражены результаты анализа и даны предложения по решению проблемы.

**Ключевые слова:** эффективная занятость, рынок труда, человеческий капитал, трудовые ресурсы, занятость женщин, половая дискриминация, на основе гендерной работы, социально-экономическое развитие.

## GENDER DIMENSIONS OF INEQUALITY IN EMPLOYMENT

**S.A.HASANOVA**

### SUMMARY

Nowadays, employment is considered the most relevant area of economy. The solution of this problem is an important problem in terms of social security and development. The inclusion of the female labor force in the field of employment should be focused on development of society as an important factor in development of society. The decision of gender tasks in employment stimulation creates conditions for sustainable economic development. For women, it is important that women working in all sectors of economy to identify the problems with which they face during employment events and make proposals to eliminate these problems. The article analyzes gender aspects of employment in Azerbaijan. In the end, the results obtained from the analysis are reflected. Proposals were taken to solve the problem.

**Keywords:** efficient employment, labor market, human capital, labor resources, women's employment, sexual discrimination, based on gender work, socio-economic development.

UOT 330.342.24+33.338

# CONTRIBUTION OF SCIENTIFIC AND TECHNOLOGICAL PROGRESS TO INNOVATIVE DEVELOPMENT OF NATIONAL ECONOMIES

**S.S.HAJIYEV**
***Baku State University***
***sabirhm@outlook.com***

*The article discusses the possibilities of modern innovative development of the national economies of many countries under the influence of scientific and technological progress. The economic growth of the state largely depends on scientific and technological progress STP and the intellectualization of the main factors of production. The use of innovative technologies is a determining factor in market competition, allowing enterprises to earn super-profits when using new technologies. A feature of economic growth at present is the transition to a continuous innovation process in the management system. The principles of state innovation policy for several countries are the priority of innovation, government regulation, the development of market relations in an innovative environment, the intensification of international cooperation, and an increase in the country's defense capability through innovation policy. The priority goal of the state innovation policy is to constantly build up the national scientific and technological potential to support the economic growth of the state, increase its competitiveness in the world market, and a high standard of living of the population.*

**Keywords:** GDP, scientific and technological progress, economic innovation, industrialization, national economy, R&D.

In the conditions of a developing modern market economy, the importance of innovative activity and the use of the achievements of scientific and technological progress is the dominant factor of a radical qualitative shift in the development of objects of labor and production, energy sources, technologies, organization, and management of branches of economic activity.

The functionality of new economic formations and cluster business systems, the activities of modern production and services are due to the effective operation of their innovative mechanism, in which the achievements of scientific and technological progress (STP) play a leading role.

Scientific and technological progress includes a wide range of processes. This includes the informatization of society, and the processes of digitalization, with the use of computer technologies, and communication technologies, and the use of the latest materials, nanotechnologies.

The conductor of these innovations in the socio-economic formation of

society can be both innovative activity and state innovation policy.

In the modern world, countries with developed and developing economies are solving the problems of income and consumption growth, improving the quality of life of the population using effective technologies.

Radical economic reforms, the introduction of innovative products and information technologies that take place in the national economies of the world countries, force industrial enterprises to apply new methods of management organization, which in turn creates a whole arsenal of new economic relationships, including privatization, corporatization, the formation of the securities market, the capital market, labor and innovation, and most importantly-the creation of an information society [1]. How effective the process of rapid switching and functioning in new formats will depend on the further development of the production sphere of a conditionally taken country, its integration into the world economic community and the actual process of implementing economic reforms themselves. These new reforms are firmly embedded in the spheres of economic activity and in the social life of society. Along with these factors, the effective development of national economies is based on natural resources, geographical location, access to sea cargo transportation, labor resources and, of course, the scientific and technological potential of the country itself.

In the modern world, the essence of the national economy based on a closed system of national and social reproduction of a separate country, in which the spheres, types and forms of social labor, a set of personnel, financial, material, and technical, information, organizational and other resources are interconnected. The assessment of the role and place of science can be given by analyzing the scientific and technological potential of the national economy [2].

The production potential of its national enterprises, their ability to ensure a high level and pace of technological progress, largely depend on the scientific and technological potential of the country. The scientific and technological potential of the country is created both by the efforts of national scientific organizations and based on the use of world achievements of science and technology. In the modern world, there is a transformation of the structures of national economies at the expense of scientific potential and this affects the nature of relationships in the national economy of a particular country, which in turn affects the order in the formation of the world economy. The scientific literature indicates that the growth of the national economy "Is a set of factors that determine the possibility of continuous improvement of the economic efficiency of production due to the acceleration of scientific and technological progress" [3].

As for increase of economic activity, technological growth, and the introduction of the results of this growth are necessary, which is possible in the presence of the following factors: the latest discoveries in the field of funda-

mental sciences, new information and digital technologies, an experimental base, the connection of scientific activity and production.

On the scale of a single country, its scientific potential can be represented by a network of scientific organizations or design bureaus and a fund of ideas operating for the development and implementation of achievements in various fields of science and technology. By the way, this contributes to the development of the country's scientific activities, which can have a good effect on certain areas of economic activity. The interrelation of scientific and technological progress and the national economy is carried out in the following directions: at the state level in the form of innovative activity, at the micro level-increasing labor productivity, in the business environment-increasing competitiveness.

Nowadays, an innovative approach to the issues of reviving the national economy is of great importance. Innovations and their products contribute to the creation of a "new industrialization" and the modernization of the national economies of several countries. The "New industrialization" is a modern global paradigm, a trend of economic development and a course for the renewal of industry, which is focused on the use of highly efficient technologies that can significantly increase the technical equipment of labor and its productivity. Industrialization is the most important factor that has a decisive impact on socio-economic development and trade on an international scale [4].

"New industrialization" or neo-industrialization is the second phase of industrialization, which includes automation and computerization of the production apparatus (the first phase is defined as electrification). Both phases of industrialization are organically linked to each other: the electrification phase is a prerequisite for digital, knowledge-intensive, technetronic industrialization. The concept of industry or industrialization was first given by A. Smith and is defined as an occupation for the manufacture of machines that will allow one employee to replace many. Modernizing the definition of A. Smith considering the laws of modern economic theory, we get that "industry is a way of replacing labor-intensive with machine-intensive", and the modern stage of the development of this process in the conditions of the fourth scientific and technological revolution is the addition of machine-intensive with knowledge-intensive production [5]. He formulated the concept of productive labor as a source of wealth of nations. Smith considered the division of labor and specialization in the production of products to be the main way to increase labor productivity and, as a result, increase wealth. In his opinion, the market is an ideal regulatory mechanism for the economy.

Neo-industrialization implies the formation of an adequate new industrial policy, which should consider several global trends caused by the transformation of the modern economy. National industrialization projects are of considerable scientific and practical interest as objects of state support for the national economy.

The change in the technological structure observed nowadays in developed countries is due, on the one hand, to the acceleration of scientific and technological progress, widespread innovation activity, on the other-to the change in economic relations related to the movement of capital. The intellectual factor occupies a significant place in the capital structure and the cluster structure of national economies is changing [6].

In attempt to become world leaders in technological development, most countries focus primarily on the formation of a production base. Today, this process is quite tightly integrated into the scientific and innovation policy of states. They define an entire scientific direction dealing with this problem. For this purpose, specialized national innovation institutes are being created.

National innovation institutes are created in the form of consortia, which include universities, industrial companies, small businesses, service and consulting organizations, regional authorities, where they, firstly, jointly invest in the development of promising production technologies, and secondly, provide training in relevant areas.

In many developed countries that are not industrial giants, industries that work based on new technologies and produce the latest, high technologies come to the fore. This is the so-called technological business; it can solve quite difficult tasks in the socio-economic development of any state and its national economy.

The technology business in nowadays is the Internet industry and the software development industry, covers the field of development, for the creation of new products or services, which is directly related to the use of the latest scientific knowledge and technologies, the rights to which the developer company has.

Undoubtedly, this type of business activity is one of the most profitable areas of entrepreneurship. The introduction of new technologies in production makes it possible to make a qualitative breakthrough in the world market of goods and services, as well as to achieve an increase in production volumes, employment, investment, foreign trade turnover, improve product quality, save labor and material costs, improve the organization of production, and increase its efficiency [7].

The creation, implementation and widespread use of new technologies and services are becoming key factors for the growth of production volumes, employment, investment, foreign trade turnover, improving product quality, saving material costs, improving the efficiency of the organization and management of production. The sphere of technological production with high tech should include production facilities that ensure the production of a high-tech product designed for the mass consumer.

The above provisions determine the competitiveness of the region's enterprises in the domestic and global markets, in addition, the socio-economic situation in a particular country is improving. Currently, improving the effi-

ciency of the use of innovative technologies is more important for the growth of GDP per capita. If we define what has been said in terms of GDP growth, then this is due to the use of high technology by small and medium-sized businesses in their activities. For example, in Germany, this is almost 100% of GDP growth, another illustrative example was Taiwan, the use of high technology provides 78% of employment and 45% of the GDP of its country [8].

Over the past decades, the main source of economic growth is precisely scientific and technological progress and a high level of use of its products. In developed countries, the use of high technology determines economic growth and affects the recovery of the entire economy. The mechanism of creating and implementing high technology becomes an instrument for increasing the efficiency of public production and the development of national economies in many countries.

Figure 1 shows the dynamics of GDP per capita, considering the average annual population of countries [9,10].




**Fig. 1.** Dynamics of GDP per capita (in US dollars)

It should be noted that certain countries are trying to accumulate scientific potential and establish technological production. But these productions should be directed primarily to the domestic market since effective organization of this process is necessary for competition on the world market. The sustainable development of such complex open socio-economic systems as the region and its economy in modern conditions is impossible without a large-scale systematic use of the results of scientific and technological activities, relying on innovations. It is the development of new technologies that ensures today the growth of labor productivity, resource savings, waste-free production

and more. Technology acts as a way of social organization for the development of the national economy. The acquisition of knowledge in the field of information technologies, innovative developments, their implementation, and use, accelerates the economic development of new sectors of the economy. Thus, one of the main tasks facing the national economies of the countries is being fulfilled, namely, the implementation of a systemic transformation to compete with highly developed countries. It can be stated that technological progress leads to radical changes in the structure of social production, consumption, and socio-economic relations. And the process of informatization of all aspects of life plays a special role in this. Thanks to the development of mass media, computerization, the rapid development of information technologies, a new round is taking place in the formation of world civilization, the transition from an industrial to a post-industrial information society, which stimulates qualitative changes in national economies, which creates conditions for the process of globalization.

The consequences of the influence of scientific progress are the following factors: a large share of the product is produced in the service sector and social transformations, including changes in the composition of the population by profession and by level of education, changes in the composition of the population by place of residence. Due to automation, the number of people employed in heavy production is reduced, and this leads to a reduction in production costs. The use of new types of energy, artificial materials, high-tech technologies open new opportunities for the use of natural resources. The dissemination of scientific knowledge and technological products is an important issue of economic growth and development. The determining factor of socio-economic development is the ability to dynamically generate and master innovations, which implies reliance on intellectual assets, the human factor, the creative potential of employees, a highly developed scientific and educational complex. A "knowledge bank" is accumulating, stimulating an innovative breakthrough for subsequent competitiveness. Innovative breakthroughs make the markets very dynamic. The internationalization of scientific and technical knowledge and the formation of global information networks are working in the same direction. New suppliers of high-tech goods are appearing on the world markets, which leads to increased competition and requires flexible adaptation to rapidly changing conditions.

Those companies that demonstrate innovative approaches to the development of development programs have more chances to successfully gain a foothold in the world markets. intangible technologies (knowledge, skills, qualifications, organizational and managerial experience) play an important role in maintaining competitiveness, and intangible forms of technology transfer (communication via electronic networks, as well as training, technical assistance, scientific conferences, scientific exchanges) play an important role in world economic exchange. By their nature, these forms of ties go beyond

national borders. Globalization is changing the mechanisms of competition; market participants get access to a huge amount of information. Objective trends in global development are pushing for the formation of new mechanisms based on partnership agreements (international strategic alliances, research venture associations, international funds).

It is believed that if countries have access to the same technology, then the growth rates will equalize between them. There is a search for the creation of new institutions and mechanisms for policy coordination. The impact of technological progress on national economies and the world economy is carried out through foreign trade in finished products, purchases of patents, licenses, investment in fixed assets, export of educational services, information exchange in general [11].

Among the factors that ensure the growth of innovative potential in developed countries, it should be noted: a multi-level national innovation system, within which the mechanisms of interaction of its individual elements are dynamically improved; the quality of resource provision, which is critically important in the conditions of an accelerating reduction in the life cycle of high technologies; the widespread development of venture capital and scientific and technical entrepreneurship; the creation of regional high-tech clusters of global significance; state incentives for R & D.

The leading countries in the innovation economy, even during the crisis and the global pandemic, try to maintain state support for R & D, including fundamental research carried out by private corporations, universities and non-profit organizations, seeks to increase the national economic significance of these studies by stimulating the commercialization of technologies, in particular by promoting cooperation in the field of R & D (clusters, hubs, partnerships), legal support for intellectual property protection.

According to the United Nations Educational, Scientific and Cultural Organization (UNESCO)[12], expenditures on R&D (before the pandemic period) were distributed across countries according to the data in Table 1.

Over the past ten years, the average spending on innovation in the world has grown faster than the global economy, which has not fully recovered from the global financial crisis of 2009. At the same time, the volume of venture capital reached record levels and the number of applications for intellectual property rights increased every year [13]. In addition, we have seen the formation of a strong political determination to promote innovation to achieve national goals in the field of socio-economic development around the world. However, the COVID-19 pandemic has caused a global crisis that will have a strong negative impact on innovation processes in 2020-2021. It is obvious that spending on R & D and other types of innovation activities will decrease. It is assumed that the impact of the crisis on innovation will depend on recovery strategies, as well as on business and innovation policies and practices. Past crises have affected different industries and countries in different ways, and in

some cases the level of innovation activity has increased. Considering that the formation of national innovative economic management systems is currently coming to an end in many countries, the decisive role in building a post-industrial economy belongs to the state, which sets the rules for the functioning of this system and provides the necessary resource and financial support. The leadership of the state in the creation and development of national economies is a common position for all countries and R & D expenditures are determined from this position.

Table 1

**R & D expenditures (in % of GDP) by year in the countries of the world**

| Country | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| USA | 2.71 | 2.72 | 2.72 | 2.76 | 2.82 | 2.84 | 3 |
| China | 2 | 2.03 | 2.07 | 2.12 | 2.15 | 2.19 | 2,2 |
| Israel | 4.09 | 4.17 | 4.26 | 4.51 | 4.82 | 4.95 | 5 |
| Sweden | 3.30 | 3.14 | 3.26 | 3.27 | 3.40 | 3.34 | 3,39 |
| Austria | 2.95 | 3.08 | 3.05 | 3.13 | 3.05 | 3.17 | 3,19 |
| Germany | 2.82 | 2.87 | 2.91 | 2.92 | 3.04 | 3.09 | 3,17 |
| Denmark | 2.97 | 2.91 | 3.05 | 3.10 | 3.05 | 3.06 | 3.1 |
| Belgium | 2.33 | 2.39 | 2.46 | 2.56 | 2.70 | 2.82 | 2,8 |
| Finland | 3.29 | 3.17 | 2.89 | 2.74 | 2.76 | 2.77 | 2,8 |
| South Korea | 4.15 | 4.29 | 4.22 | 4.23 | 4.55 | 4.81 | 4,88 |
| Japan | 3.31 | 3.40 | 3.28 | 3.16 | 3.21 | 3.26 | 3,3 |
| France | 2.24 | 2.28 | 2.27 | 2.22 | 2.21 | 2.20 | 2,22 |
| Russia | 1.03 | 1.07 | 1.10 | 1.10 | 1.11 | 0.99 | 1 |
| Great Britain | 1.64 | 1.66 | 1.67 | 1.68 | 1.70 | 1.71 | 1,72 |
| Canada | 1.71 | 1.72 | 1.70 | 1.73 | 1.67 | 1.57 | 1.6 |
| Slovenia | 2.58 | 2.37 | 2.20 | 2.01 | 1.87 | 1.90 | 1.94 |
| Czech republic | 1.90 | 1.97 | 1.93 | 1.68 | 1.79 | 1.90 | 1.93 |
| Hungary | 1.39 | 1.35 | 1.36 | 1.20 | 1.35 | 1.55 | 1.6 |

During this crisis, it is noted that the SARS-CoV-2 pandemic has become a catalyst for innovation. For example, in healthcare, unprecedented funds are being invested in the development of a vaccine and other types of treatment and diagnosis of COVID-19. It can be assumed that with the competition arising in the development of effective treatments for COVID-19, pharmaceutical and biotech companies will confidently develop in the current environment, creating competition in the development of a vaccine.

Thanks to the ongoing digitalization, the ICT sector will maintain its level of profit and the growth rate of R & D. The same forecast can be made for the alternative energy sector (biofuels, hydro, wind, geothermal, nuclear, and others). This sector is no less a priority, since the use of renewable energy sources is associated with their environmental benefits, low operating costs and the expected future shortage of fuel.

In general, to overcome the new crisis and to deepen the process of

development of the national economies of the world countries and their subsequent globalization, a systematic approach is needed to create and widely use innovative technology products. For this purpose, there will be need in:

- creating and implementing advanced technologies, while continuing to diversify its production base based on the development of existing technologies.
- strengthen innovation systems while simultaneously coordinating STI (to involve firms in the main sectors of the development and development of advanced technologies) and economic policy — industrial, trade, tax and monetary.
- develop digital literacy through the creation of educational and vocational training programs.
- direct all resources to overcome the backlog in electrification and ensure access to ICT in all countries (developing and 3 and 3+ countries of the world).
- Create national digital programs to monitor the ICT infrastructure and increase opportunities for wide Internet access via wired or mobile communications.

To participate in a technological breakthrough, developing countries must rely on the financial support of countries through international cooperation. Each country should develop a policy of scientific and technological research, participate in the development of new technologies, because their introduction creates prerequisites for the diversification and modernization of their economies. All developing countries need to prepare people and the industrial sector for innovation and change [14]. The degree of readiness and desire to participate in the new technological world depends on a radical change in the way of life, its improvement, the growth of labor productivity and competitiveness, which will give a chance to get a positive economic effect. It can be stated that STP and innovative technologies have a comprehensive, positive impact on the national economy, on its development and integration into the world economy.

**REFERENCE**

1.Rebrov S.D. Agafonov, I.A. /the Relationship of scientific and technical potential and economic security/Bulletin of the Altai AEIP, 2018, No. 7, pp. 142-147.

2.Novikova E.B., Sabirova G.T./Modern scientific and technological potential of Russia: problems and prospects/5-the international student electronic scientific conference "Student scientific forum"// http://www.science forum.ru/2013/196/2177.

3.Golubev A.V. Scientific and Technical Potential as the Basis of Economic Development of Russia in the Global World, St. Petersburg, 2015, p.22-33.

4. Klimasheva E. I. / New industrialization in the concepts of economic schools/Current issues of economics and management//proceedings of the IV International conference, Moscow: Buki-Vedi, 2016. S. 1-3.

5. Smith A. an inquiry into the nature and causes of the wealth of Nations. M.: Eksmo, 2007, p. 17

6.Korchagin P. V. /Features modern, innovative development and the formation of a regional

innovation system/EURASIAN INTERNATIONAL SCIENTIFIC and ANALYTICAL JOURNAL, problems of modern Economics, N 1 (37), 2011,with 120-129.
7. Nechepurenko M.N. / Innovations as a basic factor of sustainable development//Postgraduate student and applicant, 2006, South Russian State University of Economics and Service. - N1. - pp. 23-28.
8.Klinov V. G. / The wave nature of scientific and technological progress and large cycles of the conjuncture of the world economy / / Society and Economics. 2012. No. 6, p. 3-33.
9. https://studme.org/111411226894/ekonomika/vliyanie_nauchno-tehnicheskih_resursov_ekonomicheskoe_razvitie
10. https://basetop.ru/samye-innovatsionnye-strany-mira-2019-rejting-bloomberg/
11.Voskoboynik, A. V., Demidenko O. I. Scientific and technical progress in the development of the economy: national research online forum, Rostov-on-don, 2015, http://www.scienceforum.ru/2015/pdf/6212
12. Ranking of countries by level of expenditure on research and development / Humanitarian portal: Research Center for Humanities, 2006-2021 (last revised: 10.03.2021). URL: https://gtmarket.ru/ratings/research-and-development-expenditure[Electronic resource]
13. https://www.wipo.int/wipo_magazine/ru/2020/03/article_0002.html
14.Mordor Intelligence (2020). Robotics market size, growth, analysis — Growth, trends, and forecast (2020-2025). URL: https:// www.mordorintelligence.com/industry-reports/robotics-market

## MİLLİ İQTİSADİYYATIN İNNOVATİV İNKİŞAFINA ELMİ-TEXNOLOGİYA TƏRƏQQİNİN TÖHFƏSİ

**S.S.HACIYEV**

### XÜLASƏ

Məqalədə elmi-texnologi tərəqqinin təsiri altında bir çox ölkələrin milli iqtisadiyyatlarında müasir innovativ inkişaf imkanları və yeni texnologiyalarından geniş və səmərəli istifadəsi müzakirə olunur. Dövlətin iqtisadi artımı əsasən elmi-texniki tərəqqidən ETT və əsas istehsal amillərinin intellektuallığından asılıdır. Yeni nəsil texnologiyalardan istifadəsi bazar rəqabətində müəssisələrin yeni texnologiyalardan istifadə edərkən yüksək gəlir əldə etməsinə imkan verən həlledici amildir. Hazırda iqtisadi artımın bir xüsusiyyəti idarəetmə sistemində davamlı innovasiya prosesinə keçiddir. Bir sıra ölkələr üçün dövlət innovasiya siyasətinin prinsipləri innovasiyanın prioriteti, dövlət tənzimlənməsi, innovativ mühitdə bazar münasibətlərinin inkişafı, beynəlxalq əməkdaşlığın intensivləşdirilməsi və innovasiya siyasəti vasitəsilə ölkənin müdafiə qabiliyyətinin artırılmasıdır. Milli iqtisadiyyatın innovasiya siyasətinin prioritet məqsədi dövlətin iqtisadi artımını dəstəkləmək, dünya bazarında rəqabət qabiliyyətini artırmaq və əhalinin yüksək həyat səviyyəsini təmin etmək üçün milli elmi və texnoloji potensialını daim inkişaf etdirməkdir.

**Açar sözlər*:*** ÜDM, elmi-texnologi tərəqqi, iqtisadi yenilik, sənayeləşmə, milli iqtisadiyyat, araşdırma və inkişaf işləri (Ar-Ge).

# ВКЛАД НАУЧНО-ТЕХНОЛОГИЧЕСКОГО ПРОГРЕСССА В ИННОВАЦИОННОЕ РАЗВИТИЕ НАЦИОНАЛЬНЫХ ЭКОНОМИК

**С.С.ГАДЖИЕВ**

## РЕЗЮМЕ

В статье рассматриваются возможности современного инновационного развития национальных экономик многих стран под влиянием научно-технологического прогресса. Экономический рост государства во многом зависит от достижений НТП и интеллектуализации главных факторов производства. Применение инновационных технологий является определяющим фактором рыночной конкуренции, позволяющим предприятиям зарабатывать сверхприбыли при использовании новых технологий. Особенностью экономического роста в настоящее время является переход к непрерывному инновационному процессу в системе управления. Принципами государственной инновационной политики для ряда стран, являются приоритетность инновационной деятельности, государственное регулирование, развитие рыночных отношений в инновационной среде, активизация международного сотрудничества, повышение обороноспособности страны за счет инновационной политики. Приоритетной целью государственной инновационной политики является постоянное наращивание национального научно-технологического потенциала для поддерживания экономического роста государства, увеличения его конкурентоспособности на мировом рынке, высокого уровня жизни населения.

**Ключевые слова:** ВВП, научно-технологический прогресс, экономические инновации, индустриализация, национальная экономика, НИОКР.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 Sosial-siyasi elmlər seriyası 2021

## FƏLSƏFƏ

UOT 321. 01; 340. 11:1

# HÜQUQ FƏLSƏFƏSİ: HÜQUQİ SİSTEM VƏ ONUN ƏXLAQİ, İCTİMAİ-SİYASİ FUNKSİYALARI

**Ə.PAŞAYEVA**
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
***pashayeva.ph@mail.ru***

*Hüquqi sistem və onun əxlaqi, ictimai-siyasi funksiyaları təkcə hüquq elmində deyil, filosofların və hüquqşünas filosofların da tədqiq etdiyi əsas mövzulardan biridir. Filosoflar və hüququ fəlsəfi aspektdən tədqiq edən hüquqşünaslar hüquqa mənsub olan qaydaları fəlsəfi və əqli (təfəkkür) düşüncə əsasında araşdırmış, hüququn əxlaqi xüsusiyyətləri ilə yanaşı, həm də bu qaydaların ictimai – siyasi fəaliyyətinə xüsusi diqqət etmişlər. Hazırkı məqalədə hüquqi sistemin funksiyalarından bəhs edərkən burada bir çox məsələlərə işarə olunmuşdur. Bu məsələlərdən biri də hüquq fəlsəfəsi və hüquqi sosiologiya arasında olan uyğun və fərqli cəhətlərdir. Bildiyimiz kimi hüquqi sosiologiya hüququ ictimai mövzu olaraq təhlil edir. Amma hüquq fəlsəfəsində isə "gərək olsun", "qanunlara tabe olmaq", "qanunsuzluğa yol verməmək" kimi mühüm, məcburi məsələlərə daha çox təkid olunur və burada da əsas hədəf ictimai – siyasi sabitliyi qorumaq, insanların haqlarına riayət etməkdir.*

*Məqalədə digər mühüm məsələ hüquqi qaydaların yaranmasında ruhi – psixoloji amillərin təsiridir. Hüquq elminin bir çox elmlərlə əlaqəsi vardır və psixologiya elmi də bunlardan biridir. Qanunvericilik orqanı bu iki tərəf (hüquq və psixologiya) arasında olan əlaqədən istifadə etməklə ictimaiyyət üçün qanun və qaydalar hazırlayır; həmçinin hər hansı bir qərarın tətbiq olunmasında, xüsusilə cəzanın təyin olunmasında müttəhimin psixoloji durumu araşdırılır. Çünki bir çox hallarda cinayətin icra olunması ilk olaraq cinayətkarın əməlindən əvvəl onun istəyinə (iradəsinə) bağlıdır. Törədilən hər hansı bir cinayətin kökündə təkcə əməl deyil, burada təhrikedici qüvvələrin də xüsusi funksiyası vardır ki, cinayətin zəif və şiddətli olmasına səbəb olaraq psixoloji gərginlikdən xəbər verir. Hüquqi qaydaların yaranmasında ruhi və psixoloji amillərin təsirini bilmək üçün ilk növbədə hüququ məfhum olaraq dərindən öyrənmək olduqca zəruridir. Çünki filosoflar səy göstərmişlər ki, hüquq məfhumu olduğu kimi dərk olunsun; yəni düzgün dərk olunma onun ictimaiyyətdə tətbiqindən daha çox zəruridir.*

**Açar sözlər:** hüququn fəlsəfəsi, hüquqi sistem, hüquqi qaydalar, əxlaq, psixoloji amillər, ictimaiyyət, dövlət, siyasət, insan.

**Müqəddimə**. Hüquqi qaydalar müstəqil və bir-birindən ayrı deyil, bu qaydaların hər biri hədəfə çatmaq üçün ictimai məsələlərdən birini əhatə edir. Qaydaların məcmusu hüquqi mətnlərdə *"hüquqi təşkilatlar"* adlanır ki, bu da insanların hüquq və tələblərinin təyin olunmasında mühüm yer tutur. Buna mi-

sal olaraq, demək olar ki, bəzən qaydaların hədəfi ər-arvad münasibətlərini tənzimləməkdir. Bu zaman hüquqi təşkilat nigahla bağlı olan məsələni qanuna əsasən həll edir. Bundan başqa, hər hansı bir şəxsi himayə etmək və ona başçı təyin etmək üçün irs məsələsinə müraciət olunur. Hüquqi təşkilatlar bir-birləri ilə sıx bağlıdır və ola bilər iki və ya üç hüquqi təşkilatın fəaliyyəti hüquqi qurumlara tabe olmaqdan daha geniş olsun. Hüquqi təşkilat ailə məsələlərini (nigah, irs, aliment və digər məsələlər) yaradan əsas təşkilatlardan biridir. Burada məntiqi bir bağlılıq hüquqi təşkilatların və qaydaların hamısını bir-birinə birləşdirir və bu bağlılığın toplusundan hər bir ölkənin *hüquq sistemi* (the legal system) yaranır. Məsələn, əgər Azərbaycan Respublikasının hüquq sistemini nəzərə alsaq bu hüquqi təşkilatların bir toplusu olaraq bir-biri ilə bağlı olan texniki üsulları, ictimaiyyətdə mövcud olan dolaşıq məsələləri əhatə edərək, ictimai və fəlsəfi ideyalara rəhbərlik edir. Hüquq sistemi və onun funksiyalarından bəhs edərkən hüquq fəlsəfəsi və hüquqi sosiologiya arasında olan oxşar və fərqli cəhətlərə diqqəti yönəltmək zəruridir. Çünki hüququn fəlsəfəsində təhlil olunan əsas mövzulardan biri də hüquqi sosiologiyadır ki, bu mövzu ictimai-siyasi məsələlərlə sıx bağlı olduğu üçün zaman-zaman öyrənilməsinə ehtiyac vardır.

## Hüquq fəlsəfəsi və hüquqi sosiologiya

Məlum olduğu kimi hüquq fəlsəfəsində ideya və dəyərlərdən bəhs olunur; yəni burada əsas əxlaqi məsələlərlə yanaşı, həm də praktiki və elmi məsələlər təhlil olunur. Amma hüquqi sosiologiya elmi bir sistem olaraq hüququ ictimai mövzu olaraq təhlil edir. Elə bir mövzu ki, insan qrupları onu yaradır və himayə edir. Bu mövzuda hər hansı bir düşünülməmiş və tutarlı olmayan məfhumlar, etiqadlar və adətlər bir tərəfə qoyularaq təkcə real məsələlər, yəni dəyərlər sistemi və cəmiyyətdə insanların kütləvi qərarları araşdırılır; yəni elə məsələlər ki, sırf insanların tələbləri, ictimai-siyasi əməlləri ilə bağlıdır və bütün bu məsələlər müzakirə olunaraq tədqiq edilir. Hüquq fəlsəfəsində *"gərək olsun"* məsələsi müəyyən olunur və səy göstərilir ki, ictimaiyyət ona tərəf istiqamətlənsin. Burada əsasən *"qanunlara tabe olmaq"* və *"qanunsuzluğa yol verməmək"*, yəni olmalıdır və olmamalıdır məsələləri daha çox qabardılır və əsas məqsəd də insanları bu istiqamətə yönəltməkdir. Amma hüquqi sosiologiyaya nəzər salsaq görərik ki, əvvəlcədən hazırlanmış hər hansı bir ümumi hədəf ictimai yaşayışın yollarını müəyyən etmir və hər bir insanın hədəfi onun özündən asılıdır. Bu ixtisasda bütün məsələlər ictimai araşdırmalar əsasındadır və burada hüquq ideal və rəhbər bir məfhum kimi tədqiq olunmur. Fəlsəfə və hüquqi sosiologiyanın ayrılığını təkcə kontraktların işlənməsində (xüsusi doktorinaların bir hissəsində mülahizə etməklə) qəbul etmək olar; yəni hüququn fəlsəfəsi hansı doktorin metodlar əsasında qəbul olunur və hüquqi sosiologiya hansı dəlilə (sübut) əsasən diqqətdə olmalıdır? Hüququn ümumi nəzəriyyəsini sosiologiya metodlarına uyğun olaraq yazan hüquq nəzəriyyəçiləri ictimai məsələlərdə adət-ənənələri, insanla bağlı olan duyğuları və həmçinin ədalət məfhumuna daha çox diqqət göstərmişlər. Hüquq fəlsəfəsi ilə hüquqi sosiologi-

yanın oxşar və fərqli tərəfləri də mövcuddur. Hüququn fəlsəfəsində ən mühüm mövzular hüququn mahiyyətini, onun üsullarını, hədəflərini və mənbələrini tanımaqdır. Hüquqi sosiologiyada da həmin mövzulardan bəhs olunur, amma bu şərtlə ki, hüququn ümumi mövzuları, müəyyən qurumların barəsində olan xüsusi məsələlər ictimaiyyətə izah olunur. Amma hüquq fəlsəfəsi bu cür məsələləri təhlil etmir və onun əsas hədəfi hüquqa hakim olan ümumi nəzəriyyəni dərindən təhlil etməkdir (1, 27-28).

Yuxarıda qeyd olundu ki, fəlsəfə və hüquqi sosiologiyanın ayrılığını təkcə müqavilələrin işlənməsində qəbul etmək olar; yəni burada əsas məsələ ondan ibarətdir ki, hüquq fəlsəfəsində hansı məktəbin metodu müqayisə mənbəyinə çevrilir və hüquqi sosiologiya hansı nəzəriyyəyə daha çox diqqət edir. Bir çox alimlər hüququn ümumi nəzəriyyəsini sosioloji aspektlər əsasında tədqiq edirlər və digər bir qrup isə (sosioloqlar) ictimai hadisələrin kənarında adətləri, insan duyğularını, ədalət məfhumunu və bu kimi məsələləri də gözdən qaçırmırlar (2, 49). Məlum olur ki, fəlsəfə və hüquqi sosiologiya arasında mühüm fərqlərlə yanaşı, müqayisə olunan məsələlər də mövcuddur. Hüquq fəlsəfəsində mühüm mövzulardan biri də hüququn başlanğıc prinsiplərinin öyrənilməsi, hüquqla bağlı olan hədəflərin və istinadların təyin edilməsi məsələsidir. Hüquqi sosiologiyada bəzi fərqli cəhətləri nəzərə almaqla həmin mövzulardan da bəhs olunur. Hüquqi sosiologiyada əsas məsələlərdən, yəni hüquq barəsində ümumi məsələlərdən, o cümlədən ictimaiyyətdə mövcud olan müəyyən qurumlardan və onların prinsiplərindən bəhs olunur. Amma hüquq fəlsəfəsi bu məsələləri əhatə etmir, onun əsas tədqiq dairəsi ümumilikdə hüquq üzərində hakim olan ya müəyyən ölkədə hüquq üzərində hazırlanan ümumi nəzəriyyəni tədqiq etməkdir. Buna misal olaraq demək olar ki, hüquqi sosiologiyada ola bilər hər hansı bir cinayət işində (oğurluq, qətl və s.) qanundan istifadə olunsun ya sosiologiya bu məsələyə daha çox diqqət edərək bəzi suallara cavab axtarsın; məsələn, ailənin yaranmasına səbəb nədir? Yaranan ailə hansı proses nəticəsində bu günümüzə gəlib çatmışdır və qüvvədə olan qanunların bu məsələdə tarixi xronikası nədən ibarətdir? Amma hüquq fəlsəfəsi kitablarında hadisələrə hüquqi sosiologiyada olduğu kimi deyil, yəni həyata və onun çətinliklərinə yaxından deyil, məhz uzaqdan baxılır; hadisələr sadə şəkildə yox, daha dərindən müşahidə və tədqiq olunaraq öyrənilir. Hüquqi sosiologiyada tədqiq metodu təcrübə və elmə əsaslanır. Sosioloq hər bir şeyi ictimaiyyətdə axtarır və çalışır ki, insanlara aid olan mövcud qanunları müşahidə və təcrübə əsasında öyrənsin. Amma hüququn fəlsəfəsində baxışlar və metodlar müxtəlifdir və sosioloji metodlar təkcə tədqiqat aparılmaqla dəyərləndirilir (3, 48). Sosial pozitiv (sivil) məktəblər, praqmatizm tarixi və dövlət hüququnu öyrənən məktəblərin kənarında təhlil olunur. *"Hüquq elmi", "hüquq fəlsəfəsi", "hüququn ümumi nəzəriyyəsi"* adı altında yazılan kitablar məhz bu təcrübəyə əsaslanır.

Bu mövzuda hüquq fəlsəfəsi və hüquqi sosiologiya arasında olan əlaqə və fərqli cəhətləri təhlil edərkən qeyd etmək lazımdır ki, bir çox hallarda haqlar sosial normalar əsasında öyrənilir. Məlum olduğu kimi hüquq sosial normalarla

əhatəli formada geniş rabitəsi olan zati (təbii) bir məfhumdur. Məhz bu baxımdan haqlar təkcə qanunvericilikdə deyil, həm də cəmiyyətin sosial, iqtisadi, siyasi, mədəni həyatında da özünü göstərir. Bu baxımdan məsələyə elə yanaşmaq lazımdır ki, hüququn digər sosial normaları daha dərindən öyrənilsin və sosial normaların üstün cəhətləri aydın şəkildə ifadə olunsun. Hüquq fəlsəfəsi və hüquqi sosiologiyadan bəhs edərkən, bəzən hüquqşünaslar hüququ mürəkkəb, çoxcəhətli və eyni zamanda ziddiyyətli bütöv institusional təsisat və bəzən isə nadir sosial hadisə adlandırırlar (4, 140). Buna səbəb ictimai davranışın və fəaliyyətin tənzimlənməsi hüquq normalarına əsaslanır və bu normalar ictimai münasibətlərin normativ tənzimlənməsi sistemini yaradır. Belə olan halda demək olar ki, hüququn fəlsəfəsi mənsub olduğu yeni mənaya əsasən[1] hüquqi sosiologiyanın mühüm hissələrini əhatə edir.

## Hüquqi qaydalara fəlsəfi yanaşma

Hüquqla bağlı olan mövzularda hüquqi qaydaların tərifi müxtəlif cür izah olunur. Əksər hallarda hüquqla bağlı olan qaydalar bu cür tərif olunur: müəyyən zamanda ictimaiyyətə rəhbərlik edən qanunlar toplusu hüquq adlanır. Digər bir tərifdə isə hüquq qaydası belə izah olunur: hüquq qaydası hüquq və qanunçuluğa əsaslanan ictimai münasibətlərin qaydaya salınması vəziyyətidir (5, 35). Amma bu sadə bir tərif olduğu üçün qaydaların mahiyyətini tam olaraq açıqlamır. Hüququn tam tərifini vermək üçün ilk növbədə onun prinsip və hədəfini müəyyən etdikdən sonra xüsusiyyətlərini bilmək lazımdır. Hüquq qaydalarını[2] tanımaq və onların seçilməsi üçün ilk növbədə hüququn cövhərini təşkil edən səbəb müəyyən olmalıdır. Buna görə də bu qaydaları əsasən dörd hissəyə ayırmaq olar:

*-hüquqi qaydalar zəruridir ya məcburi?*

*-hüquqi qaydalara riayət etmək dövlət tərəfindən təmin olmalıdır;*

*-hüquqi qaydalar ümumidir;*

*-hüquq ictimai bir quruluşdur.* Hüquq ictimai bir quruluşdur ona görə ki, onun əsas hədəfi ictimai əlaqələri tənzimləməkdir, nəinki insanın ruhunu və vicdanını paklaşdırmaq. Qeyd olunan bəndlərdə bəzi məqamların təhlilə ehtiyacı vardır. Birincisi: hüquqi qaydaların zəruriliyi dedikdə, demək olar ki, hüquq son hədəfə[3] çatmaq üçün hüquqi qaydalara adi razılaşma ilə deyil, məcburi surətdə riayət etməlidir. Bəzən elanlar qanunlarda görünür, amma bunların heç bir öhdəliyi olmadığı üçün hüquqi qaydalar hesab oluna bilməz, çünki bu qaydaların hüquqi tərəfi yoxdur; amma bununla belə müxtəlif dərəcələri vardır və bütün qaydalar bu baxımdan eyni deyildir. Prinsiplərə riayət etmək mütləq formada lazımdır və bunlardan qaçmaq olmaz. Hüquqi qaydaların vəzifəsi nəsihət və yol göstərmək deyil, bəlkə məcbur etməkdir və daha dəqiq desək hə-

[1] Hüquq barəsində ümumi və xüsusi nəzəriyyə nəzərdə tutulur.
[2] İnsan və onun yaşayışına hakim olan qaydalar nəzərdə tutulur.
[3] Burada hədəf dedikdə ədalət və əmin-amanlıq nəzərdə tutulur.

mişə məcburiyyətlə birlikdədir. Elə buna görə də zəruriliyi hüquqi qaydaların xüsusiyyəti hesab etmək olmaz. Çünki hər hansı bir qayda öz əhatəsində məcburidir. İkinci məsələ isə hüquq və icranın zəmanəti məsələsidir. O qaydalar ki, onların icrası dövlət tərəfindən təmin olunmur bu cür qaydaları hüquqi hesab etmək olmaz. Ona görə ki, əgər şəxs qaydaların yerinə yetirilməsində müstəqil olarsa və yol verdiyi qanunsuzluğa görə heç bir cəza almazsa, onda ictimaiyyətdə hansı əmin-amanlıqdan danışmaq olar? Amma diqqət olunmalıdır ki, hüquqi qaydaların bir hissəsi hələ də tam deyil və bu məsələ xüsusilə ümumi hüquqda və beynəlxalq əlaqələrdə daha çox özünü göstərir. Buna görə də bir qrup tədqiqatçılar hüquqi qaydaları tərif edərkən icra zəmanətinin olmağını məcburiyyət üzündən kənara qoydular (1, 34-35).

Mövzunu təhlil edərkən mühüm suallarla qarşılaşırıq, təbii ki, bunlara cavab vermədən üzərindən keçmək mümkün deyil. Məsələn, hüququ tanımaq dövlətin istəyidir ya insan təbiəti bunu tələb edir və ya insan ağıla əsaslanaraq bu məsələyə tərəf yönəlir? Bəlkə ictimai ehtiyaclar və adət-ənənələr onu yaradır? Hüquqi qaydaların hədəfi nədir? Hüququn vəzifəsi nizam-intizam yaratmaq və ictimaiyyəti hərc-mərclikdən qurtarmaqdır ya cəmiyyətdə ədaləti bərpa etməklə ictimai və mədəni inkişafı təmin etməkdir? Digər mühüm suallar isə bundan ibarətdir ki, hüquq dövlət hakimiyyəti qarşısında şəxsi azadlıqların təminatçısı olmalıdır ya insanların təcavüzü qarşısında hökuməti müdafiə etməlidir? Hüquqi qaydaların mövcudluğu üçün ictimai icra zəmanəti zəruridirmi? Zəmanətin icra olunması hüquqi prinsiplərə aiddirmi? Hüququn digər ictimai qaydalarla (əxlaq, dini məsələlər, adət-ənənələr) fərqi nədədir və hüquqi qaydaları necə tanımaq olar? Bu sualları çoxaltmaq da olar, amma əsas məsələ bunları toplayıb müəyyən bir nəticəyə gəlməkdir. Elə buna görə də yuxarıda qeyd olunan tərif[1] hüququn tam tərifini əks etdirmir və elmi nöqteyi-nəzərdən də faydalı hesab olunmur. Amma bu o demək deyildir ki, bu tariflər əhəmiyyətsizdir; oxucu konkret olaraq bilməlidir ki, sonradan bəhs olunacaq mövzu nə barədədir və təhlillər hansı məsələlər ətrafındadır. Təhlil olunan mövzu daha çox qanunvericilik metodu ilə bağlıdır və bu metodun düzgün tanınmasıdır. Dövlətin güc və qüdrəti (hakimiyyəti) qanunvericilik metodunu qorumaq, onun icra olunması üçün təminatçı olmasıdır və bu əsas məsələdir ki, onu digər ictimai qaydalardan fərqləndirir. İkinci mərhələdə isə dövlətin vəzifəsi odur ki, insanlar arasında ictimai nizam-intizamı və ədaləti qorusun. Burada hüquq ictimai quruluşun aparıcı qüvvəsi kimi tanınır; dövlət və hüquq arasında olan əlaqə də məhz buradan başlayir. Hüquqi qaydaların meydana gəlməsi bəzən müstəqil olaraq dövlət tərəfindən yerinə yetirilir və məclis nümayəndələri bu qaydaların yaranmasını öhdələrinə götürürlər. Ədliyyə Nazirliyi isə qanunları şərh etməklə verilən qərarlara düzəlişlər edir; yəni məclis nümayəndələrinin çatışmamazlıqlarını aradan qaldırırlar. Bunu da nəzərə almaq lazımdır ki, təkcə qanunverici orqan ictimai məsələləri əvvəlcədən təyin edə

[1] Hüquq müəyyən zamanda ictimaiyyətə başçılıq edən qanunlar toplusu adlanır.

bilməz. Bu orqan insanların ehtiyacı olduğu bir sıra məsələləri daxildə standartlaşdırır və təkrar məsələlərdə adət-ənənənin yaranmasını qaydaya uyğun olaraq lazımlı hesab edir. Dövlət yaranan bu qaydalara hörmətlə yanaşır və dövlətin müdaxiləsi ilə qaydaların himayə edilməsi hüququn yaranmasında əsas şərtdir. Bundan əlavə, hüquqi qaydalara digər tərəfdən yanaşsaq deyə bilərik ki, hüquqi qaydalar müəyyən işə və hərəkətə başçılıq edən hökm (judgement) adlanır. Məsələn, hər hansı bir şəxsə verilən cəza, yəni kiçik hökmlərin tərkib hissəsi olan hər hansı bir prinsip qanunvericilik tərəfindən təsbit olunur və vasitəsiz olaraq işə bağlanmır; zərəri olmayan qaydalar, hakimiyyətin tələbləri, müqavilədə sərbəstlik və digər məsələləri buna misal göstərmək olar. Amma bu mövzuda mühüm bir məsələni də nəzərdən qaçırmaq olmaz, yəni hüquqi qaydalar bəzən ikinci qrup üçün kiçik hökmlər qarşısında işlənir və o xüsusi bir hökmdür ki, əməllərdən bir hissəsini əhatə edir. Digər tərəfdən isə hüquqi qaydaları ictimai qaydalardan fərqləndirən mühüm bir məsələ vardır; yəni hüquqi qaydalar o qaydalara deyilir ki, dövlət hakimiyyəti tərəfindən müdafiə olunsun və bu qaydaların yerinə yetirilməsi dövlət tərəfindən tənzimlənsin. Hüquqi qaydaları ictimai qaydalardan fərqləndirən əsas məsələ də elə budur. Bundan sonra dövlətin vəzifəsi ictimai sabitliyi yaratmaq və insanlar arasında ədaləti bərpa etməkdir. Hüquq təkcə insanların bu günü ilə bağlı deyil, həmçinin insanların gələcəyini ön plana çəkərək onların bir-birləri ilə əlaqəsini diqqət mərkəzində saxlayır və elə buna görə də hüquq ictimai bir sistem olaraq qəbul olunur. Bəzən bu qaydalar müstəqil olaraq dövlətin vasitəsi ilə yerinə yetirilir; necə ki, qanunvericilik və Ədliyyə Nazirliyi qanunlar əsasında məclisin bəzi hallarda qüsurlu işlərini müəyyən sistem əsasında leqallaşdırır. Çünki qanunverici orqan fərdi olaraq bütün ictimai məsələləri əvvəlcədən planlaşdıra bilməz və insanlar ehtiyac duyulan məsələləri öz aralarında həll etməyə səy göstərirlər. Adət-ənənələrin yaranması məsələnin həlli üçün əsas amil hesab olunur və dövlət bu məsələlərlə bağlı yaranmış qaydaları mühüm hesab edir. Bir daha məlum olur ki, dövlətin müdaxilə və himayə etməsi hüququn mövcudluğunda əsas şərtdir. Elə buna görə də hüquqi qaydaları tərif edərkən dövlətin prinsipləri nəzərə alınaraq hüquqa düzgün tərif vermək lazımdır: “Hüquqi qaydalar o, qaydalara deyilir ki, insanların əməllərinə başçılıq edir və bu qaydaların yerinə yetirilməsi dövlət tərəfindən müdafiə olunur” (1, 34-35). Buna misal olaraq demək olar ki, valideynin öz övladı qarşısında vəzifəsi, yəni şəxsin öz övladının anasına aliment ödəməsi və bunun kimi digər məsələlər hüquqla bağlıdır və hər hansı bir hökm ki, bunları qanuniləşdrir və onların yerinə yetirilməsini qərara alır bu hüquqi bir qayda hesab olunur. Mövzunu təhlil edərkən mühüm bir məsələni də nəzərə almaq lazımdır ki, hüquqi qaydalar müstəqil və bir-birindən ayrı deyil; hər bir qrup xüsusi hədəfə çatmaq məqsədi ilə ictimai əlaqələrdən birini əhatə edir. Bu məcmu və ya toplu hüquqla bağlı olan mətnlərində *“hüquqi təşkilat”* adlanır və hüququn təyin olunmasında, insanların vəzifələrində mühüm yer tutur. Misal olaraq, demək olar ki, bu qaydaların bir hissəsi nigah məsələsini əhatə edir; ər və arvad arasında olan əlaqələri

tənzimləyir, irslə bağlı olan məsələləri təsdiq etməklə, köməksiz və zəif insanlara himayədarlıq edərək onların müdafiəsini təmin edir. Bundan əlavə, hüquqi təşkilatlar arasında yaxınlıq əlaqələri vardır; ola bilər bir neçə təşkilat geniş fəaliyyət göstərən digər hüquqi təşkilatlara tabe olaraq onun bir hissəsi olsun; necə ki, nigah və irs ailə məsələlərinə aid olaraq hüquqi təşkilatın bir hissəsi hesab olunur. Məntiqə əsasən demək olar ki, bütün, qaydaların hədəfi hüquqi təşkilatları bir-birinə bağlamaq və onların toplusundan hər bir ölkənin hüquqi quruluşunu yaratmaqdır. Qaydaların hədəfi isə hüquqa daxildir, yəni hüquqdan kənar qaydanın hədəfi ola bilməz. Əlbəttə, burada söhbət hüquqla bağlı olan hədəfdən gedir. Təbii ki, bu məsələlərin tədqiqində hüququn ictimaiyyətdə mənəvi və psixoloji təsirləri kənarda qalmamalı və bunların ictimai tərəfləri ilə yanaşı mənəvi və psixoloji aspektləri də təhlil olunmalıdır.

## Hüquqi qaydaların yaranmasında psixoloji amillərin təsiri

Məlum olduğu kimi hüquq elminin psixologiya ilə həm zəruri və həm də faydalı əlaqəsi vardır. Çünki hüquqi qaydaların funksiyalarına nəzər salsaq, şahid oluruq ki, bu qaydalar ictimaiyyət üzərində çox asanlıqla icra olunur. Bunun əsas səbəbi ondan ibarətdir ki, məlum qaydaların icrası insanların ruhi-psixoloji duyğuları və hissləri ilə bağlılığı vardır. Burada ruhi – psixoloji duyğuların və hisslərin tədqiqi və təhlili psixologiya elminin üzərinə düşür. Məhz bu səbəbdən də qanunvericilik orqanı bu üstünlüklərdən istifadə etməklə, ictimaiyyət üçün ən mühüm olan hüquqi qaydaları yaradır. Bundan başqa, hökmün oxunmasında, xüsusi ilə cəzanın təyin olunmasında da psixoloji duruma ehtiyac vardır (6, 14). Nəzərə almaq lazımdır ki, bir çox hallarda cinayətin icra olunması ilk olaraq cinayətkarın əməlindən əvvəl onun istəyinə (iradəsinə) bağlıdır. Çünki müttəhim cinayəti törətməzdən əvvəl bunun haqqında düşünmüş və necə baş verilməsi barədə plan hazırlamışdır. Belə olan halda baş verən hər hansı bir cinayətin kökündə təkcə əməl deyil, burada təhrikedici qüvvələrin də xüsusi funksiyası vardır ki, cinayətin zəif və ya şiddətli olmasına səbəb olaraq psixoloji gərginlikdən xəbər verir. Belə bir vəziyyətdə psixoloji amillər hakimin düzgün qərar verməsinə yardımçı olur. Burada kəm ağıllılığı və dəliliyi sənəd əsasında təsdiq olunan insanı misal göstərmək olar.

Hüquqi qaydaların yaranmasında ruhi və psixoloji amillərin təsirindən bəhs edərkən, hüququ məfhum olaraq tərif etməyi nəzərdən qaçırmamalıyıq. Əgər hüququ məfhum olaraq tərif etsək bunun ən sadə tərifi odur ki, hüququn tələblərinə (qayda və qanunlara) əməl etmək məcburidir və bu tələblər lazım olan qanuni mühiti yaradır. Hüququ məfhum baxımından təhlil edən hüquqşünaslar səy göstərmişlər ki, hüquq məfhumu olduğu kimi dərk olunsun; yəni düzgün dərk olunma onun ictimaiyyətdə tətbiqindən daha zəruridir. Kantın fikrincə, hüquqşünaslar hüququ məfhum olaraq izah etmək üçün öz təsəvvürlərinə istinad edirlər; yəni qanun keşikçiləri bunun mənasını təsəvvür əsasında araşdırmağa çalışırlar (7, 38). Əlbəttə, Kantın fikri məşhur hüquqşünas Hartın gəldiyi nəticədə öz təsdiqini tapır. Hartın fikrincə, tarix hüquqşünasların hüquq məfhumunu dərk

etmək səylərini özündə əks etdirir (8, 73). Başqa sözlə, tarix boyu hüquqşünaslar ona görə çalışmışlar ki, bu məfhumun mənasını dərk etsinlər. Bunun öyrənilməsi isə ancaq hüquq elmini arqumentlərlə təhlil edən hüquq fəlsəfəsində mümkündür. Çünki, fəlsəfə ideyalara istinad edərək hüquqşünasa hüququn hədəfini və onun dərin üstünlüklərini öyrənmək üçün köməklik göstərir. Fəlsəfə başlanğıcda hər hansı bir məsələnin özəyini, onun kəşf olunma yollarını axtarmaqla məşğuldur. Elə buna görə də hüquq məfhumu təkcə məfhum olaraq təhlil olunmamalıdır; hüquq mühüm anlayış olduğu üçün məfhumdan əlavə, həm də onun ictimai-siyasi, mənəvi, ruhi – psixoloji aspektləri təhlil olunmalıdır. Ona görə ki, hüquq insanın əməl və hərəkətlərinə başçılıq edir; haqq, haqsızlıq, ədalət, insaf, vicdan və bu kimi digər məfhumlar insanla sıx bağlılığı vardır. Təbii varlıqlar (məsələn, səma cisimləri) bu cür sifətləri, yəni əməl və rəftarla bağlı olan xüsusiyyətləri qəbul etmir və hüququn məntiqlə bağlı olan məsələlərinə biganədirlər. Çünki hüququn məntiqlə bağlı məsələlərində bu cür varlıqlar, mövcud olmalarına baxmayaraq məfhum və mənaya malik deyillər. Amma əgər istəsək hüquq məfhumunu məntiq əsasında təhlil edək, onda ilk növbədə "*əməl*" və ya "*hərəkət*" təhlil olunmalıdır. Ümumiyyətlə, əməl nə deməkdir və biz onu necə dərk edirik? Əməlin elmi tərifi dedikdə, yəni əməl insanın iradəsinə bağlı olan təbii bir haldan və ya vəziyyətdən ibarətdir; əməl insana aiddir. Əməlin funksiyasına gəldikdə isə bu iki ünsürdən ibarətdir: daxili və zahiri. Daxili əməl psixoloji dəyərlərə mənsub olaraq iradəyə bağlıdır və nəzərə almaq lazımdır ki, əməlin bu növündə məqsəd əsas götürülür. Zahiri əməl isə görünən və həqiqi bir əməldir ki, maddi aləm ilə əlaqəsi vardır. Əgər hərəkət əməl olaraq nəzərdə tutulursa bu insanın iradə və rəftarına aid olmuş olur. Hər bir əməl həm daxili və həm də zahiri olmaqla köklü şəkildə bir-birinə bağlıdır; yəni əməl bir-birinə bağlı olaraq iki ünsürdən-məqsəd və hərəkətdən təşkil olmuşdur; həqiqətən iki ünsür bir-birinə bağlıdır. Əgər biz müəyyən bir məqsədi təsəvvür etsək, bu zaman baxımından keçmiş və başqa bir işlə bağlılığı olacaqdır, elə bu məqsədli təsəvvürdə bir əməllə üzləşirik. Ona görə ki, burada qərarın meydana gəlməsi zamanın müddətinə bağlıdır, yəni bu özü-özlüyündə bir hərəkətə, rəftara və hətta maddi bir qüvvəyə işarədir (9, pp.53-55). Məsələn, hər hansı bir insan riyazi bir məsələnin həllini fikrinə gətirirsə bu düzgün hesab olunur. Buna görə də zahiri və daxili əməllərin ayrılığı qəbul olunmur və bunların ən azı bir-birləri ilə əlaqəsi və tabeçiliyi vardır. Məlum olduğu kimi maddi aləm ilə əlaqəsi olmayan bir fikir hər hansı bir maddədən, rəngdən və cisimdən kənardır. Bu nəzəriyyə paralel olaraq maddi və mücərrəd (qeyri-maddi) aləm arasında mövcuddur. Elə buna görə də dərk olunması mümkün olmayan daxili əməli nəzəri olaraq təsdiq etmək düzgün deyil. Qeyd olunan əməllər ola bilər müxtəlif cür görünsünlər, amma az-çox məxfi və aşkar olan əməllər ayrı-ayrı ola bilməzlər. Hətta zahirdə baş verən bir əməl məsələn, nəfəsin kəsilməsi bu daxili əmələ çevrilərək məxfi qalır. Digər tərəfdən isə idrak kənar bir əməldir ki, ruhun funksiyalarından xəbərsiz deyil. Psixoloji ünsürlərin olmamağı nəticəsində biz təbii bir görüntü ilə qarşılaşacağıq nəinki hərəkətlə.

Qeyd olunan təhlillər hüquqi qaydaların yaranmasında, mənəvi və psi-

xoloji amillərin təsirində və həmçinin hüquqi məsələlərin dəyərləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Ona görə ki, bu məsələlər hər hansı bir əmələ aiddir; burada şüur və iradənin üstünlüyünü də qeyd etmək lazımdır, çünki əməl onların köməyi ilə mövcud olur. Amma hüquq hər bir halda olursa olsun bütün əməllərin, hətta bu əməllər psixoloji xəstəliyə düçar olan insanlarda olsa belə bütün bunların dəyərləndirilməsində başlıca üstünlüyə malikdir. Həqiqətən psixoloji amillərin olması və olmaması ola bilər bəzi əməllərin aradan getməsi üçün kifayət etsin; məsələn, hüquqi məsələlərdən sayılan cinayət işi yerinə yetirilməsin. Amma əməl hüquqi baxımdan hətta qanunsuz olsa belə onun cinayət işi qəti olaraq sistemləşmişdir. Bunu daha da aydınlaşdırmaq üçün misal olaraq demək olar ki, dəliliyi tibbi cəhətdən təsdiq olunan insanlar tərəfindən törədilən və qanuna zidd olan əməllər heç vaxt cinayət tərkibli əməllər hesab olunmur. Onların əməllərini qanuni və qanunsuz hissələrə ayırmaqla (hüququn tələb etdiyi qanuna əsasən) hüquqa zidd olan əməllərdən çəkindirmək lazımdır. Göründüyü kimi hüquq və onun dəyərləri bu cür məsələlərdə həm məfhum baxımından, həm də məna və əməldə güclü təsirə malikdir. Kənarda mövcud olmayan əməllər və həmçinin o əməllər ki, psixoloji amilin olması nəticəsində hüquqi dəyərlərdən məhrumdur, mövcud olmaları mümkün deyil (10, 6-7).

**Nəticə.** Bunları təhlil edərkən belə nəticəyə gəlmək olar ki, hüquqi qaydalar o qaydalara deyilir ki, ictimaiyyətə, yəni insanların əməllərinə rəhbərlik edir və onun icrası dövlət tərəfindən qorunur və təmin olunur. Bunlar bizim gündəlik həyatımızda rast gəldiyimiz qanunlardır ki, ilk olaraq diqqət olunmasa da bunların hüquqi tərəfləri mövcuddur. Məsələn, ata-ananın öz övladları üzərində məsuliyyəti, bundan başqa, hər bir şəxs qanuna tabe olaraq qanunu müqəddəs hesab etməsi və bu kimi digər məsələlərin hüquqi tərəfləri mövcuddur ki, qərara alınan bu hökmlər hüquqi qaydalar adlanır. Digər tərəfdən isə hüquqi qaydaların yaranmasında mənəvi, ruhi və psixoloji amillərin təsirini nəzərə alsaq demək lazımdır ki, hüquq məfhum olaraq ictimai – siyasi, tərəfləri olduğu kimi mənəvi, ruhi və psixoloji tərəfləri də mövcuddur. Bundan əlavə hüququn həm də dəyərlərlə sıx bağlığı vardır və onu təkcə maddi varlıqlar və kənar hadisələr daxilində araşdırmaq olmaz. Çünki bunlarla müqayisədə hüquq olduqca yüksək mənaya dəlalət edir. Hüquq məfhum olaraq bəzən *"hüquqla uyğunluğu vardır", "varlığı vardır"* və ya *"maddi varlıq olmaq imkanı vardır"* kimi mənalardan daha geniş və bunlardan tamamilə fərqlidir; hüquqi meyarlar meyarların ən üstünüdür. Ona görə ki, baş verən hər hansı bir əməlin sübutu ondan ibarətdir ki, bu əməl hüquqi məsələlərə aid olmaqla yanaşı, həm də maddi aləmdə baş verir. Əgər bu məsələyə məntiq baxımından yanaşsaq görərik ki, əməl, əməl olaraq hüquqi normativlərə tabedir və hüquq bu normativlər əsasında əməllərin dəyərlərini müxtəlif dərəcəyə ayıraraq onları müəyyən qaydalar əsasında sistemləşdirir. Hüquq məfhumu təkcə ətraf aləmdə olan varlıqların quruluşlarına və onların real prinsiplərinə bağlı deyil, bəlkə hüquq məntiq əsasında inkar olduğu hallarda belə özünün varlığını və mövcudluğunu qoruyur.

## ƏDƏBİYYAT

***Azərbaycan dilində:***

1. Qurbanov H. Cəmiyyət və sosio – hüquqi problemlər. Bakı: Elm, 2018, 272 s.
2. Lazarev V.V. Ümumi hüquq və dövlət nəzəriyyəsi. Tərcümə edən: Əziz Rzabəyli. Bakı: Qanun, 2007, 491 s.
3. Paşayeva Ə. Hüququn Fəlsəfəsi. Bakı: Avropa, 2019, 154 s.

***İngilis dilində:***

4. Bohanna P. Law and legal institutions. London: Encyclopedia of the Social Sciences, 1971, v. 9, 603 p.
5. Hans K. General Theory of Law and State. Translated by: Anders Wedberg. U.S.A: Harvard University Press, 1949, 516 p.
6. Hart H.L.A. Defination and Theory in Jurisprudence. London: Collier Macmillan Publishers, 1972, v. IX, 801 p.
7. Raymond W. Philosophy of law. Part of the book, USA: Oxford University Press, 2008, 168 p.

***Rus dilində:***

8. Пашаева А. Философия права. Пер. с азербайджанского С.Саттарова. Украина, Сватово: Соборность, 2019, 155 с.

***Fars dilində:***

9. Mustafa Daneş Pəju. Hüquq elminin müqəddiməsi: İran və İslam haqlarına baxış. Naşir: araşdırma mərkəzi və universitet. Qum: h.ş. 1392/2013 m., 276 s.

مصطفی دانش پژوه. مقدمه علم حقوق با رویکرد به حقوق ایران و اسلام. قم: پژوهشگاه حوزه و دانشگاه، هش. 2013/1392 م. 276 ص.

10. Nasir Katuzyan. Hüququn Fəlsəfəsi: hüququn tərifi və mahiyyəti. c. I, Tehran: Nəşriyyat şirkəti. h.ş.1388/2009 m. 706 s.

ناصر کاتوزیان. فلسفه حقوق: تعریف و ماهیت حقوق. جلد اول. تهران: شرکت سهامی انتشار. 1388، 706 ص.


## ФИЛОСОФИЯ ПРАВА: ПРАВОВАЯ СИСТЕМА И ЕЕ МОРАЛЬНЫЕ, СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ФУНКЦИИ


**А.Н.ПАШАЕВА**



### РЕЗЮМЕ

Правовая система и ее нравственные, общественно-политические функции являются одной из ключевых тем не только юридической науки, ее исследованием занимаются также и философы и философы-правоведы. Философы и правоведы, изучающие право с философского аспекта, провели исследование норм, присущих праву, на основании философской и интеллектуальной мысли (мышления), наравне с нравственными особенностями права особое внимание уделили также и общественно-политической деятельности данных норм. В настоящей статье рассказывается о функциях правовой системы, здесь указываются на многие вопросы. Одним из этих вопросов являются схожие и отличительные черты между философией права и юридической социологией. Как мы знаем, право юридической социологии анализируется как общественная тема. Но в философии права больше подчеркиваются такие важные, обязательные вопросы, как *“следует быть”*, *“подчиняться законам”, “не допускать беззакония”,* и ключевая цель здесь – защищать общественно-политическую стабильность, соблюдать права людей.

Другим важным вопросом в статье является влияние нервно-психологических факторов на возникновение правовых норм. Юридическая наука связана со многими науками, и одна из них - наука о психологии. Законодательный орган, используя связь между этими двумя сторонами (право и психология), формирует закон и нормы; а также исследуется психологическое состояние подсудимого в применении какого-либо ре-

шения, в частности назначении наказания. Так как зачастую исполнение преступления связана прежде всего не с деянием преступника, а с его желанием (волей). В корне совершаемого какого-либо преступления лежит не только деяние, здесь особую роль играют и подстрекательские силы, что говорит о психологической напряженности как о причине слабости или жестокости пеступления. Для того, чтобы узнать влияние нервных и психологических факторов в возникновении правовых норм в первую очередь необходимо глубоко изучить право как понятие. Так как философы стремились к тому, чтобы познать понятие права как таковое; то есть правильное познание значительно важнее его применения в обществе.

**Ключевые слова:** философия права, правовая система, правовые нормы, мораль, психологические факторы, общество, государство, политика, человек.

## PHILOSOPHY OF LAW:
## THE LEGAL SYSTEM AND ITS MORAL, SOCIO-POLITICAL FUNCTIONS

**A.N.PASHAYEVA**

### SUMMARY

The legal system and its moral, socio-political functions are among the main topics that are studied not only in legal science, but also by philosophers and lawyer philosophers. Philosophers and lawyers who study law in the aspect of philosophy have studied the rules relating to law on the basis of philosophical and intellectual thinking, paying special attention not only to the moral features of law, but also to the socio – political activity of these rules. In the present article, talking about the functions of the legal system, many issues have been addressed here. One of these issues is the corresponding and different aspects between the philosophy of law and legal sociology. As we know, legal sociology analyzes the law as a public subject. However, in the philosophy of law, it is more insistent on such important and binding issues as “must”, “ to obey the laws”, “not to violate the law”, and the main goal here is to protect the socio – political stability and to ensure the rights of people.

Another important issue in the article is the psychological impact of establishing legal rules. The science of law is related to many sciences, and the science of psychology is one of them. The legislative body prepares laws and regulations for the society by means of the relationship between these two parties (law and psychology); also examines the psychological state of the individual in the application of any decision, in the determination of punishment in particular. Because in many cases, commiting a crime depends first on the will of the offender before his act. In the root of any crime committed, not only acts, but also provocative forces have a special function, which indicates psychological tension, causing the crime to be weak and severe. In order to know the mental and psychological effects of legal rules, it is necessary to study the concept of law deeply. Because philosophers have made efforts to understand the concept of law as it is; that is, proper understanding is more necessary than its application in the society.

**Keywords:** philosophy of law, legal system, legal rules, morality, psychological factors, society, state, politics, human.

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№2 Sosial-siyasi elmlər seriyası 2021***

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**UOT327 -"027.21"**

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR NƏZƏRİYYƏSİNDƏ İNSAN TƏHLÜKƏSİZLİYİ PARADİQMASI

**N.VƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***nargizvaliyeva@bsu.edu.az***

*Məqalə beynəlxalq münasibətlər nəzəriyyəsində insan təhlükəsizliyinin araşdırılmasına həsr olunmuşdur. Məlumdur ki, bir neçə on illiklər boyu beynəlxalq və milli təhlükəsizlik dərindən araşdırılsa da, insan təhlükəsizliyi soyuq müharibədən sonra tədqiqat mövzusuna çevrilmişdir. Məqalədə də insan təhlükəsizliyinin orta əsrlərdən bu günə qədər formalaşan məzmunu müxtəlif tədqiqatçıların təhlili əsasında göstərilmişdir. Dövlət və beynəlxalq təşkilat olan BMT-nin insan inkişafında rolu vurğulanmış və təhlükəsizlik baxımından dövlət-insan münasibətləri nəzəri olaraq təhlil edilmişdir.*

**Açar sözlər:** insan təhlükəsizliyi, BMT, Amerika, milli təhlükəsizlik, insan inkisafı, nəzəri tədqiqat, dövlət.

Təhlükəsizlik və strateji konsepsiyalarla bağlı mübahisələr bir neçə onilliklər ərzində beynəlxalq münasibətlər nəzəriyyəsi və siyasətinin müəyyənləşdirilməsində öz yerini qoruyub saxlamışdır. İkinci dünya müharibəsindən qısa müddət sonra soyuq müharibə dövründə realizm və milli təhlükəsizlik konsepsiyası təhlükəsizlik təhlilində üstünlük təşkil etdi. Soyuq müharibənin sonunda beynəlxalq mühit və beynəlxalq münasibətlərin əsas şərtləri dəyişdi. Yeni beynəlxalq mühit, beynəlxalq sistemin əsas xüsusiyyətləri, müxtəlif aktorlar arasındakı münasibətlər, sabitlik perspektivi, beynəlxalq münasibətlərin inkişafı və ən sonuncu təhlükəsizliklə bağlı mübahisələr başladı [3,81]. 1990-cı illərdə siyasətçilər və alimlər arasında yeni təhlükəsizlik mənbələri, yeni təhdid və riskləri qarşılamaq imkanları, təhlükəsizliyin qorunmasında dövlətin və beynəlxalq təşkilatların rolu barədə geniş mübahisələr başladı. Bu mübahisələr təhlükəsizliyin həlledici olduğuna dair bir razılaşma göstərdi, lakin təhlükəsizliyin nə ilə əlaqəli olduğu və bunun necə öyrənilməsinə dair fikir ayrılığı vardı. Sözdə geniş təhlükəsizlik konsepsiyası ortaya çıxdı və alimlər və siyasətçilər təhlükəsizliklə əlaqəli bir sıra terminlərdən istifadə etməyə başladılar – beynəlxalq təhlükəsizlik, qlobal təhlükəsizlik, insan təhlükəsizliyi və s. Bildiyimiz kimi, təhlükəsizlik təhdidlərin olmaması kimi müəyyən edilir [7, 95]. Beləliklə, beynəlxalq təh-

lükəsizlik, qlobal təhlükəsizlik, insan təhlükəsizliyi və s. haqqında danışarkən bu üçlüyün təhdidlərini və obyektlərini müəyyənləşdirməyə ehtiyac var.

Soyuq müharibədən sonra təhlükəsizlik anlayışı dəyişikliyə uğramağa başladı. 1990-cı illərdə təhlükəsizliklə bağlı mübahisələrdə "insanın öz maraqları" ortaya çıxdı. İnsan təhlükəsizliyi mübahisəsi 1990-cı illərin ikinci yarısının məhsuludur, lakin fərdin təhlükəsizliyinə və suverenliyinə diqqətin tarixi qədimdir. Belə ki, əslində təhlükəsizliyə plüralist baxış, yəni insanın fərd olaraq təhlükəsizliyinə müəyyən baxışlar XVII əsrdə Fransada yayılmağa başladı və fransız inqilabına qədər davam etdi.

20-ci əsrin əvvəllərinə qədər təhlükəsizlik həm fərdlərin, həm də dövlətlərin bir vəzifəsi olaraq görülürdü. Dünya müharibələri, artan silahlanma və orduların genişlənməsi nəhayət, 1950-ci illərdə supergüclərin nüvə ilə təhlükəsizliyin yenidən dəyişməsinə gətirib çıxardı. Bu o demək idi ki, təhlükəsizlik artıq hərbi və qeyri-dövlət xüsusiyyətlərini itirir. Milli təhlükəsizlik paradiqması əvvəlki 50 ildə hökm sürdü, lakin 1990-cı illərdə iki qütblü supergüc rəqabətinin azalmasından sonra genişləndirilmiş təhlükəsizliyin bir çox tərəfdarı fərdi təhlükəsizlik anlayışına qayıtmağı iddia etdilər. BMT-nin fəaliyyət mərkəzləri, milli inkişaf və yardım agentlikləri və beynəlxalq QHT-lər və beynəlxalq əlaqələr üzrə alimlər əsasən inkişaf etməkdə olan ölkələrə yönəlik insan təhlükəsizliyi siyasəti ilə çağırış etdilər. Birləşmiş Millətlər Təşkilatı qısaca belə izahat verdi: İnsan təhlükəsizliyi - yalnız millətlərin deyil, insanların da düşüncəsində və əməlində olmalıdır. Təhlükəsizlik konsepsiyası dəyişməlidir – milli təhlükəsizlikdən, hərbi təhlükəsizlikdən insan inkişafı yolu ilə insanın təhlükəsizliyinə, ərazi təhlükəsizliyindən qida, məşğulluq və ətraf mühit təhlükəsizliyinə qədər məzmunu genişləndirməliyik [6].

Beynəlxalq münasibətlərin realizm paradiqmasına əsasən dövlət həm daxili, həm də xarici işlərdə ərazi baxımından əhəmiyyətli bir muxtariyyətə sahib olan suveren, ərazi əsaslı bir vahiddir. Realizmə görə şəxs o zaman təhlükəsizdir ki, o başqa dövlətin vətəndaşıdır, onu qoruyan dövlət təsisatı var. Dövləti olmayan hər bir şəxs istənilən hədələrə məruz qala bilər.

Realistlərə görə təhlükəsizlik dövlətin özündən qaynaqlanır. İlk növbədə dövlət təhlükəsizliyini qorumalıdır. Dövlət öz mövcudluğu üçün xarici və daxili təhdidlərdən kifayət qədər qorunmanı təmin edə bilməlidir. Bu problem artıq Hobbs tərəfindən təhlil edilmişdi - dövlət olmadan insanlar və mülklər üçün heç bir müdafiə yoxdur; insanlar öz təhlükəsiz və yaxşı həyatları üçün zəmin yaradaraq müqavilə bağlayırlar. Dövlətlər təhlükəsizlik, nizam, ədalət və rifah kimi siyasi məhsullar istehsal etdikləri üçün dəyərlidir. Dövlət fərdlər (vətəndaşlar) və qruplar (vətəndaşlar) üçün təhlükəsizlik məsələsində realizmə görə birinci yeri tutur. Təhlükəsizlik konsepsiyası anlayışına yeni baxış 1970-ci illərdə baş vermiş neft şoku ilə iqtisadi məsələlərin milli təhlükəsizlik mübahisəsinə nüfuz etməsi ilə ortaya gəldi. Bu mübahisə təhlükəsizlik konsepsiyasının daha hərtərəfli, çoxçalarlı baxışı ortaya qoydu. Robert Kohen və Cozef Nay dövlətlərarası əlaqələrin mahiyyətində təhlükəsizliyi iqtisadi aspketinə də nəzər yetirdilər. Belə izah verdilər ki, sərhədlərini hərbi yolla qoruya biləcək bir

dövlət əsas mənbələrin tədarükünü qoruya bilməyəcəyi kimi bir zaman gələr ki təhlükəsizliyini hərbi yolla da qorumaya bilər. Hərbi güc hər zaman təhlükəsizliyi təmin etmir, hədələri sıfırlamır. Təhlükəsizlik konsepsiyasının genişləndirilməsi 1980-ci illərin sonlarında Kopenhagen məktəbinin (B.Buzan, O.Waever, J. de Wilde, P.Lemaitre kimi Kopenhagen Sülh Araşdırmaları İnstitutunun alimləri, M.Kelstrup) tədiqatçılarının adı ilə bağlıdır [1, 12]. Kopenhagen məktəbi, təhlükəsizlik məsələlərinin geniş spektrində tətbiq olunan müəyyən bir siyasət növü olduğunu iddia edərək, siyasi-hərbi təhlükəsizliklə əlaqəli ənənəvi məhdudlaşdırma təklifini rədd etdi. Müxtəlif təhdid mənbələrinə görə təsnif edilən beş sektorda (hərbi, siyasi, ekoloji nominal, ətraf mühit və cəmiyyət) təhlükəsizliyin fərqli xarakterini və dinamikasını araşdırdılar. Bari Buzan təhlükəsizlik obyektləri ilə bağlı mübahisəni də ortaya qoydu. “Hobbs paradoksundan” yaranan fərdi (təhlükəsizlik) və dövlət (milli təhlükəsizlik) arasındakı əlaqəni tədqiq etdi. Buzan üçün dövlətin iki siması var, belə ki, o, həm təhdidlərin, həm də fərdlərin təhlükəsizliyinin əsas mənbəyidir. Fərdlər üçün təhdidlərin əksəriyyəti yaşadıqları yerdəki insanın yerləşməsindən qaynaqlanır və bu da qaçılmaz sosial, iqtisadi və siyasi təzyiqlər (və ya təhdidlər) yaradır. Dövlət fərdi müxtəlif yollarla təhdid edə bilər: daxili qanun qəbul etmə və tətbiqetmə, inzibati və ya siyasi hərəkətlərlə, xarici təhlükəsizlik siyasəti ilə. Buzan üçün dövlətlə fərdlər arasında qarşılıqlı əlaqə mövcuddur - dövlət fərdlərə qarşı təhdid yarada bilər və fərdlər də dövlətin təhlükəsizliyinə, yəni milli təhlükəsizliyə təhdid yarada bilər [2, 110].

Hazırda beynəlxalq münasibətlərdə insan təhlükəsizliyinə iki əsas yanaşma vardır; birincisi Birləşmiş Millətlər Təşkilatının yanaşması, digəri isə Kanada və ya orta güc dövlətləri adlanan yanaşmadır. Soyuq Müharibədən sonrakı dövr qeyri-müəyyənlik dövrü, eyni zamanda Birləşmiş Millətlər Təşkilatı daxilində əməliyyatların genişlənməsi, institusional dəyişiklik və konseptual yenilik dövrü kimi xarakterizə edildi. 1990-cı illərdə bir sıra dövlətlərarası və daxili qarşıdurmalar və daxili müharibələr başladı ki, bundan sonra BMT fəaliyyət prinsipini dəyişdirdi. BMT qaçqın axını, resurs çatışmazlığı, ətraf mühitin deqradasiyası, inkişafın olmaması və s. məsələləri qabartdı. Son on ildə BMT daxilindəki təhlükəsizlik gündəliyi təkcə dövlətlərin və icmaların təhlükəsizliyini deyil, həm də insanların təhlükəsizliyinin bütün aspektlərini əhatə etmək üçün yenidən quruldu. İnsan təhlükəsizliyi fikri bu gün BMT tərəfindən geniş şəkildə istifadə olunur və BMT-nin İnkişaf Proqramı (Birləşmiş Millətlər İnkişaf Proqramı) və BMMYK (BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı) təhlükəsizlik kursunda mərkəzi yer tutur. Təhlükəsizlik daha çox iki qurumun - BMTİP və BMT QAK-ın işinə daxil edilmişdir. BMT-nin insan təhlükəsizliyi anlayışında təhlükəsizlik hər şeydən əvvəl fərdin üstünlüyü kimi başa düşülür və təhlükəsizlik anlayışını insan hüquqları və ləyaqət fikirləri ilə ayrılmaz şəkildə insan əzablarının aradan qaldırılması ilə əlaqələndirirlər. İnsan təhlükəsizliyinin əsas fərqləndirici xüsusiyyəti müharibə məsələsinə toxunmasıdır. Dövlət mərkəzçi yanaşmanı qəbul edən ənənəvi perspektivlərdən fərqli olaraq, şəxsiyyət üzərində qurulmuş insan nöqteyi-nəzərindən şiddət və fiziki və ya

psixoloji təcavüzü təhdid kimi görür. BMMYK bu humanist səyləri dövlətin suverenliyini və sabitliyini təmin etmək uğrunda mübarizə ilə əlaqələndirir. BMT QAK-a görə dövlətlərə qarşı ciddi təhdidlər mövcuddur. Fərdi şəxslərin hərəkətlərindən BMTİP-in insan təhlükəsizliyi ilə bağlı fikirlərini ən yaxşı şəkildə ifadə edən BMT İnkişaf Proqramı insan təhlükəsizlik konsepsiyasının əsas quruluşunu təyin edən 1994-cü il İnsan İnkişafı Hesabatıdır. İnsan İnkişafı Hesabatına görə həmişə insan təhlükəsizliyinin iki əsas hissəsi olmuşdur: qorxudan azadlıq və ehtiyacdan azadlıq. Hesabatda ayrıca, insan təhlükəsizliyi təhdidlərinə cavab verən insan təhlükəsizliyinin əsas kateqoriyaları və ya müxtəliflikləri: iqtisadi təhlükəsizlik (işsizlik, iş təhlükəsizliyi, gəlir və yenidən mənbələrdəki fərqlər, yoxsulluq və evsizlik), qida təhlükəsizliyi (kəmiyyət baxımından ifadə edilir) və qidanın keyfiyyətli mövcudluğu), sağlamlıq təhlükəsizliyi (xəstəliklər, yeni viruslar), ekoloji təhlükəsizlik (hava, su, torpaq və meşə deqradasiyası), şəxsi təhlükəsizlik (münaqişə, yoxsulluq, terrorizm), icma təhlükəsizliyi (etnik və mədəni münaqişə) və siyasi təhlükəsizlik (insan hüquqlarının pozulması) göstərilmişdir [3,96].

Əsas arqument budur ki, dövlət təhlükəsizliyi yalnız fərdi təhlükəsizliyə nail olmaq üçün bir vasitədir. Yalnız bir şəxsin təhlükəsizliyi təhlükəsizliyin qanuni və mənalı hədəfi ola bilər. BMTİP gündəliyində insan təhlükəsizliyi məsələsində üstünlük verilən iki dəyər var - şəxsin fiziki təhlükəsizliyi və onun şəxsi azadlığı. BMT-nin insan təhlükəsizliyi konsepsiyasının vacib bir tərəfi var - Birləşmiş Millətlər Təşkilatının müxtəlif sənədləri və bəyanatları, insan təhlükəsizliyini inkişaf etmiş ölkələrlə əlaqələndirir, yəni insan təhlükəsizliyinin səviyyəsini və ya mərhələsini inkişaf səviyyəsi ilə əlaqələndirməklə təhlükəsizliyi müəyyənləşdirir. İnsan təhlükəsizliyi, insanların bu seçimləri təhlükəsiz və sərbəst şəkildə həyata keçirə bilməsi deməkdir - və bu gün sahib olduqları imkanların sabah tamamilə itirilməyəcəyinə nisbətən arxayınlıq deməkdir. Ölkə nə qədər inkişaf etsə, əhalisi o qədər qorunur,insan təhlükəsizliyi burada insana yönümlü iqtisadi inkişaf mənzərəsi yaradır.

Hobbsa görə dövlətlər təhlükəsizlik, nizam, ədalət və rifah kimi siyasi məhsullar istehsal etdikləri üçün dəyərlidir. Beynəlxalq siyasətdəki dəyişikliklər beynəlxalq ictimai rifah olaraq təhlükəsizlik fikri meydana gətirmiş, yəni bir aktorun təhlükəsizliyi digər aktorların təhlükəsizliyini azaltmamalı, maraq bütün aktorlar üçün faydalı olmalı (xüsusilə fərdlər üçün) və təhlükəsizlik bütün iştirakçı aktorlar üçün əlçatan olmalıdır. İnsan təhlükəsizliyini təmin edən alətlər sülhməramlı inqilabi böhrana ən yaxın olan ölkələr üçün millətə xas faydalar təmin edir və beynəlxalq cəmiyyətə inkişaf etmiş siyasi təhlükəsizlik, sabitlik və daha çox qlobal ictimai fayda verir. İnsan təhlükəsizliyini qlobal normalar və dəyərlər sistemi tərəfindən istehsal olunan bir ictimai təhlükəsizlik indeksi kimi başa düşsək, beynəlxalq birliyin qorumaq və onu maliyyələşdirmək məsuliyyətini qəbul etməliyik. Əlbəttə, motivasiya və dəyərlərin problemi var, çünki fərqli ölkələr fərqli ictimai mallara üstünlük verirlər. Bu halda təminat və qoruma vasitələri barədə düşünməliyik. Beynəlxalq humanitar müdaxilə belə bir vasitə kimi qiymətləndirilə bilər [5,275].

İnsan təhlükəsizliyi konsepsiyasında, digər dövlətlər və ya müxtəlif növ qeyri-dövlət aktorları kimi müəyyən edilə bilən mənbələrdən və ya eyni zamanda müxtəlif səviyyələrdə güc əlaqələrindən qaynaqlanan struktur mənbələrindən - ailədən gələn təhdidlər həm birbaşa, həm də dolayı olaraq qiymətləndirilməlidir. Dolayı təhdid mənbələri arasında az inkişaf, əhalinin yerdəyişməsi, ətraf mühitin deqradasiyası və s. Məsələn, BMT və Kanada insan təhlükəsizliyi konsepsiyası arasındakı əsas fərq, dövlətin və beynəlxalq birliyin fərdin təhlükəsizliyini qorumaqdakı roludur. BMT-nin konsepsiyası uzun müddətdir fərdi təhlükəsizliyin qarantı kimi dövləti nəzərə almır və bu təhlükəsizliyini təsir edən qlobal təhdidlərə qarşı vuruşur.

Kanadada insan təhlükəsizliyinin təkamülü və qorunması konsepsiyası beynəlxalq humanitar hüququn qəbul edilməsi, insan hüquqları və sosial iqtisadi bərabərlik ideyasına əsaslanır. İnsani normaların və dəyərlərin genişləndirilməsi və müxtəlif aktorlar tərəfindən mənimsənilməsi insan təhlükəsizliyini təmin etmək üçün mümkün olan əsas təlimat kimi qəbul edilir. Kanada konsepsiyası, dövlətin suverenliyi və beynəlxalq birliyin müdaxilə imtiyazları arasındakı münasibətlərə diqqətlə yanaşır [6,106].

1990-cı illərin ikinci yarısında baş verən hadisələr (humanitar və sülhməramlı əməliyyatların sayının artması, BMT Təhlükəsizlik Şurasının mandatı olmadan Kosovanın humanitar müdaxiləsi) və beynəlxalq mühitdəki dəyişikliklər akademik sferada dövlətçilik, suverenlik, qlobal insan hüquqları sistemi, beynəlxalq humanitar hüququn inkişafı və tətbiqi və sonuncusu insan təhlükəsizliyinin faydalılığı barədə yeni fikirlər ortaya qoydu. Yuxarıda göstərilən BMT və Kanada yanaşmalarından başqa, insan təhlükəsizliyini bir araşdırma kateqoriyasına çevirmək məqsədi ilə Keith Krause, Michael Williams (kritik təhlükəsizlik araşdırmaları), George Sprensen, Roland Paris, Kanti Bajpai, PH Liotta və Gary King və Christopher Murray gərgin müzakirələr apardılar. İnsan təhlükəsizliyinə "yeni" akademik elmi yanaşmanın ortaq xüsusiyyəti, daha əvvəl də qeyd edildiyi kimi, geniş anlayışa əsaslanan tənqidi baxış və milli təhlükəsizlik ilə fərdi təhlükəsizlik arasındakı əlaqəni düşünmək idi.

Gary King və Christopher Murray BMT-nin istifadə etdiyi insan təhlükəsizliyinin həddindən artıq geniş və qeyri-səlis bir şəkildə tanınmamasını tənqid edir və insan təhlükəsizliyini ölçülə bilən vəziyyətə gətirməyə çalışırlar. King və Murray konsepsiyanı yalnız insanların mübarizə aparması və ya canlarını, ya da mallarını böyük risk altına atması üçün kifayət qədər vacib olan elementləri daxil etmək üçün yenidən müzakirə aparırlar. Hər iki müəllif rifahın beş əsas göstəricisini - yoxsulluq, sağlamlıq, təhsili, siyasi azadlıq və demokratiyanı fərdlər və qruplar üçün ümumi insan təhlükəsizliyi tədbirinə daxil etmək niyyətində olduqlarını bildirirlər. King və Murrayın tərifi iqtisadi baxımdan insan rifahı və inkişafı ilə sıx bağlıdır. Lakin King və Murrayın tərifinin iqtisadi əsası insan təhlükəsizliyinin ictimai, mədəni, ətraf və zehni aspektlərini istisna edir. Həm də qeyd etmək vacibdir ki, insanları maraqlandıran təhdidlər, həyatı məhv edən, həyatı aşağılayan təsirlərdən tutmuş təhdidlərin mənbəyindən və formasından asılı olaraq insan həyatına müxtəlif təsirlər gös-

tərə bilər. İqtisadi göstəricilərə əsaslanan insan təhlükəsizliyi konsepsiyasının xaricdə hazırladığı Fiziki Həyat İndeksi əsasında 1990-cı ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən hazırlanan İnsan İnkişafı İndeksinə otuza yaxın (və ya həqiqətən eyni) təhlükə olması göstərilmişdir. İnsan İnkişafı İndeksi (və ya Indica tor) bu gün BMİP tərəfindən inkişafın qiymətləndirilməsi üçün illik İnsan İnkişafı Hesabatları üçün istifadə olunur [6,48].

Dövlətçilik formaları müxtəlif təhdid mənbələri yaradır. Müasir dövlət öz əhalisini daxili təhdidlərdən qoruya bilən ərazi cəhətdən qurulmuş bir vahiddir. Lakin beynəlxalq sistemdən gələn xarici zəifliklər və təhdidlər mövcuddur ki, dövlət onları həll edə bilmir. İstənilən müharibə hərəkəti birbaşa dövlətin əhalisini təhdid edir. Postkolonial dövlət və onun əhalisi, post-modern və modern dövlətdən (və əhalisindən) fərqli bir şəkildə mövcuddur. Postkolonial dövlətin (elitalar, əhali) təhlükəsizliyi beynəlxalq sistemin normalarından xeyli dərəcədə asılıdır. Müstəmləkə dövründəki insanların etibarsızlığı, təhlükəsizlik və asayiş kimi siyasi məhsullar istehsal edə bilməyən dövlətin zəifliyi ilə əlaqəlidir [10]. Sprensen müstəmləkə sonrası dövlətin xarakteristikasına görə insanların və qrupların təhlükəsizliyinin humanitar müdaxilə ilə əhəmiyyətli dərəcədə yaxşılaşdırıla bilməyəcəyini iddia edir. İnsani müdaxilənin başlıca problemi özünün retrospektiv keyfiyyətidir; əvvəlcə bir hu humanitar fəlakət olmalıdır ki, sonra humanitar yardım olsun. Bundan əlavə, humanitar müdaxilə həmişə humanitar olmayan mülahizələri əhatə edir. Müdaxilə paradoksu ən yaxşı şəkildə NATO-nun Kosovoya müdaxiləsi ilə göstərildi və bu, insanları dövlət tərəfindən maliyyələşdirilən təcavüzdən qurtarmaq fikrinə söykəndi. Müdaxilə dövlət suverenliyi prinsipinə zidd oldu və fərdin suverenliyini üstün tutdu. Müdaxilə tez-tez insanın maraq problemlərinə həll olmaqdan daha çox səbəb ola bilər. Dövlət fərdi təhlükəsizlik qoruyucusu olaraq rolunu itirir və beynəlxalq birlik, qlobal güc olaraq, yerli insan təhlükəsizliyi problemlərini həll edir. Post-modern dövlət və onun əhalisinin fiziki təhlükəsizliyi üçün birbaşa təhdidlərin mövcud olmaması insanın yüksək səviyyədə inkişafına səbəb olur. Ancaq bölgədəki müasir və ya müstəmləkəçi dövlətlərin təhdidi yenə də əsasdır, belə ki, post-modern dövlətlər anarxiya vəziyyətindən yalnız məhdud mənada xilas olmuşlar. Post-modern dövlət insan təhlükəsizliyini zənginləşdirmək üçün bir həll yolu kimi görünür. Lakin elə günümüzdəki reallıq olan pandemiya qlobal bir səhiyyə böhranı artıq dövlətin tipindən asılı olmayaraq insan təhlükəsizliyini tam təmin edə bilmir [4,443].

Qlobal və ya regional təhdidlərə cavab verən dövlətlərin, xüsusilə hərbi baxımdan milli təhlükəsizliyini gücləndirmələri lazımdır. Təhlükəsizliyi təmin etmək, insan ləyaqətindən əvvəl ona xidmət etmək və iqtisadi və ekoloji rifahı təşviq etmək məsələsində bir çox milli təhlükəsizlik aspektləri dövləti getdikcə qeyri-funksional vəziyyətə gətirdi. Paralel olaraq fərdi təhlükəsizliyin zəifləməsinə səbəb olan milli təhlükəsizliyin gücləndirilməsinin nəticələri barədə düşünən Liotta təhlükəsizlik "bumeranq effekti" milli və insan təhlükəsizliyinin yaxınlaşmasından danışdı. Liotta inkişaf etmiş dövlətlərin milli təhlükəsizliyini gücləndirərək, qlobal qarşılıqlı əlaqələrə baxmayaraq, dünyanın digər yerlə-

rində təhlükəsizliyi "unutdurduqlarını" söyləyir. İnkişaf etmiş dövlətlər hətta inkişaf etməmiş dövlətlərin və vətəndaşlarının təhlükəsizliyini müxtəlif aspektlərdə zəiflədə bilir. İnkişaf etmiş ölkələrdə insan etibarsızlığı və çıxılmaz vəziyyətlər yaranır [8,61]. Elə təkcə pandemiyanın qarşısının alınması üçün dünya ölkələrində ədalətsiz peyvend satışı və vaksinasiya aparılması buna əyani sübutdur. İnkişaf etmiş ölkələr üçün insan təhlükəsizliyinin "bumeranq effekti" milli və insan təhlükəsizliyinin yaxınlaşmasının ən bariz nümunəsi ABŞ-ın siyasətidir. 11 sentyabr 2001-ci il tarixində Vaşinqton və New York hücumlarına məruz qaldıqdan sonra Amerika terror hücumlarını Amerikanın milli təhlükəsizliyinə və ABŞ-a təhdid kimi şərh etdi. Onun vətəndaşlarının, onların həyat tərzi və amerika dəyərlərinin pozulması kimi dəyərləndirdi. Bu şərh bir ölkədə insan və milli təhlükəsizliyin yaxınlaşdığını göstərir. Başqa bir yaxınlaşma da var - ABŞ səlahiyyətliləri 11 sentyabrdan sonra qərb yarımkürəsinin kənarında baş verənlərlə daha çox maraqlanmağa başladılar. Bəs ikinci yaxınlaşmanın səbəbi nədir? İlk Körfəz müharibəsindən sonra və keçmiş Yuqoslaviyadakı münaqişə zamanı ABŞ-ın münaqişənin həllinə yanaşması çox məhdud oldu. ABŞ-ın məqsədi hərəkət, milli münaqişəni həll etmək və ən qısa müddətdə evə qayıtmaq idi. Yəni münaqişə sonrası yenidən qurulma və millətin qurulması məqsədində deyildi. Bu siyasət son on ildə sülh quruculuğunun effektivliyinə və münaqişədən sonrakı ərazilər və cəmiyyətlərin yenidən qurulmasına mənfi təsir göstərmişdir. Amerika rəhbərliyi önümüzdəki onilliklərdə milli perspektivləri təmin etmək istəyirsə, Amerika vətəndaşlarının təhlükəsizliyi, yalnız hərbi münaqişələri həll etməməli, həm də dünyanın müxtəlif yerlərində qlobal və yerli davamlı inkişaf strategiyalarını və yerli millət qurmağı dəstəkləməlidirlər. Bumeranq təsiri bir ölkənin və əhalisinin təhlükəsizliyi başqa bir ölkənin və vətəndaşlarının maraqlarından bölünməz olduğu zaman qarşılıqlı asılılığın ifadəsi kimi başa düşülə bilər. İnsan təhlükəsizliyi konsepsiyası bu günə qədər müxtəlif beynəlxalq təşkilatların gündəminə daxil edilmişdir, lakin istifadə olunan anlayış çox fərqlidir və bu təşkilatlar tərəfindən fərdin təhlükəsizliyini təmin etmək və təşviq etmək üçün istifadə etdikləri müxtəlif alətlər vardır [9]. Dünya siyasətində insan təhlükəsizliyinin qəbul edilməsi hələ çox aşağı səviyyədədir - yardım yönümlü beynəlxalq təşkilatlar tərəfindən kifayət qədər geniş qəbul edilir, lakin bir çox dövlət bu fikrə qarşı olmaqda davam edir.Lakin hesab edirik ki, son illər ərzində dünyanın yaşadığı səhiyyə böhranı, koronairus pandemiyasının qlobal formada yayılması insanın ilk növbədə sağlam həyat tərzi, onun sağlamlığına olan hədəni ortaya gətirdi və insan təhlükəsizliyini təmin etmək üçün vahid bir əməkdaşlıq dövlətlərlə ÜST (beynəlxalq qurum) arasında daha sıx yaranmış oldu.

**ƏDƏBİYYAT**


1. Buzan, B. (1983) People, states, and fear: The national security problem in international relations. United States: University of North Carolina Press. 18p.
2. Barry Buzan; Ole Wæver; Jaap de Wilde Security: a new framework for analysis Publisher:Boulder, Colo. : Lynne Rienner Pub., 1998, 298p
3. David J. Galbreath, Jocelyn Mawdsley, Laura Chappell Taylor & Francis Contemporary

European Security, 20 мар. 2019 г. - Всего страниц: 232
4. Mary Kaldor, Human Security, Source: Society and Economy, December 2011, Vol. 33, No. 3 (December 2011), pp. 441-448 Published by: Akadémiai Kiadó
5. Mary Kaldor, Mary Martin and Sabine Selchow, Human Security: A New Strategic Narrative for Europe, Source: International Affairs (Royal Institute of International Affairs 1944-) , Mar., 2007, v. 83, No. 2, Europe at 50 (Mar., 2007), pp. 273-288
6. Mary Martin, Mary Kaldor, The European Union and Human Security: External Interventions and Missions, Routledge, 16 дек. 2009 г. - Всего страниц: 208
7. Həsənalıyev Z. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsasları, 2016, 176 s.
8. Šárka Waisová, Human Security — the Contemporary Paradigm? Author(s): Source: Perspectives, Summer 2003, No. 20 (Summer 2003), pp. 58-72
9. https://www.e-ir.info/2016/02/29/the-significance-of-the-human-security-paradigm-in-international-politics/ - The Significance of the ‘Human Security’ Paradigm in International Politics, Aydar Gazizullin
10. http://users.metu.edu.tr/utuba/Paris.pdf - Human Security Paradigm Shift or Hot Air?, Roland Paris

## ПАРАДИГМА БЕЗОПАСНОСТИ ЧЕЛОВЕКА В ТЕОРИИ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

**Н.ВАЛИЕВА**

### РЕЗЮМЕ

Статья посвящена исследованию безопасности человека в теории международных отношений. Хорошо известно, что, хотя международная и национальная безопасность изучалась на протяжении десятилетий, безопасность человека была предметом исследований со времен холодной войны. В статье также показано содержание безопасности человека, сформировавшееся от средневековья до наших дней на основе анализа различных исследователей. Была подчеркнута роль ООН, государства и международной организации в человеческом развити и теоретически проанализированы отношения между государством и людьми с точки зрения безопасности.

**Ключевые слова:** человеческая безопасность, ООН, Америка, национальная безопасность, человеческое развитие, теоретические исследования, государство.

## PARADIGM OF HUMAN SECURITY IN THE THEORY OF INTERNATIONAL RELATIONS

**N.VALIEVA**

### SUMMARY

This article is devoted to the study of human security in the theory of international relations. It is well known that although international and national security was studied for a decade, human security was the subject of research during the Cold War. This article also indicates the content of human safety formed from the Middle Ages to our days on the basis of the analysis of various researchers. The role of the UN, the state and international organization in human development were researched. Theoretically was analyzed the relationship between the state the people from point of view of security.

**Keywords:** human security, UN, America, national security, human development, theoretical research, state

# MÜNDƏRİCAT

## HÜQUQ

**Məlikova M.F.**
Rəqəmsal texnologiyaların hüquqi sferaya tətbiqi probleminə dair....................... 5
**Nəbiyev E.Q.**
Müasir dövrdə milli təhlükəsizliyin təmin olunmasında əməliyyat-axtarış fəaliyyətinin bəzi aktual məsələləri.......................................................................... 14
**Rzayev Ə.**
Qarabağda yenidənqurmanın hüquqi əsasları ....................................................... 25
**Qasımov Ə.Ə., Hüseynova K.E.**
Məhkəmə nitq mədəniyyətinin bir elm sahəsi kimi anlayışı və əhəmiyyəti .......... 36
**Hüseynov Q.S.**
Hüquq təcrübəsində xüsusi mühasibat biliklərinin tətbiqinin forması kimi təftişin və məhkəmə-mühasibat ekspertizasının nisbəti................................ 45

## İQTİSADİYYAT

**Aslanov H.H.**
İqtisadi təhlükəsizlik sistemində sosial təhlükəsizliyin təmin olunması zəruriliyi.......................................................................................................... 50
**Həsənova S.Ə.**
Məşğulluq sahəsində bərabərsizliyin gender aspektləri......................................... 62
**Hacıyev S.S.**
Milli iqtisadiyyatın innovativ inkişafina elmi-texnologiya tərəqqinin töhfəsi....... 69

## FƏLSƏFƏ

**Paşayeva Ə.**
Hüquq fəlsəfəsi: hüquqi sistem və onun əxlaqi, ictimai-siyasi funksiyaları.......... 80

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Vəliyeva N.**
Beynəlxalq münasibətlər nəzəriyyəsində insan təhlükəsizliyi paradiqması ......... 91

# СОДЕРЖАНИЕ

## ПРАВО

**Меликова М.Ф.**
К проблеме приенения цифровых технологий в правовой сфере ..................5
**Набиев Э.К.**
Некоторые актуальные вопросы оперативно-розыскной деятельности
по обеспечению национальной безопасности в современный период ..........14
**Рзаев А.**
Правовые основы перестройки в Карабахе ....................................................25
**Гасымов А.А., Гусейнова К.Е.**
Понятие и значение судебной речевой культуры как области науки ............36
**Гусейнов Г.С.**
Различия между обязанностями ревизора и эксперта бухгалтера
при применении специальных бухгалтерских знаний
при юридической практике ..........................................................................45

## ЭКОНОМИКА

**Асланов Г.Г.**
Необходимость обеспечения социальной безопасности
в системе экономической безопасности .........................................................50
**Гасанова С.А.**
Гендерные аспекты неравенства в сфере занятости ........................................62
**Гаджиев С.С.**
Вклад научно-технологического прогресссав инновационное
развитие национальных экономик..................................................................69

## ФИЛОСОФИЯ

**Пашаева А.Н.**
Философия права: правовая система и ее моральные,
социально-политические функции .................................................................80

## МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ

**Валиева Н.**
Парадигма безопасности человека в теории международных отношений.....91

# CONTENTS

## LAW

**Malikova M.F.**
On the problem of applying digital technologies in the legal field........................ 5
**Nabiyev E.K.**
Some topical issues of operational-search activities in providing national security in the modern period ........................................................................ 14
**Rzayev A.**
Legal basis of restructurion in Karabakh ............................................................ 25
**Gasimov A.A., Huseynova K.E.**
The concept and significance of speech culture court as a field of science ........... 36
**Huseynov G.S.**
Differences between the duties of an auditor and an expert buchglater when applying special accounting knowledge in legal practice ............................ 45

## ECONOMY

**H.H.Aslanov**
The need for social security in the economic security system ............................... 50
**Hasanova S.A.**
Gender dimensions of inequality in employment .................................................. 62
**Hajiyev S.S.**
Contribution of scientific and technological progress to innovative development of national economies...................................................................... 69

## PHILOSOPHY

**Pashayeva A.N.**
Philosophy of law: the legal system and its moral, socio-political functions ........ 80

## INTERNATIONAL RELATIONSHIPS

**Valieva N.**
Paradigm of human security in the theory of international relations ..................... 91